RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 149 (9028) ÇƏRŞƏNBƏ AXŞAMI, 19 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# QAYIDIRIQ!..

## Bu gündən Qarabağ və Şərqi Zəngəzura böyük Zəfərdən sonra ilk qayıdış başlayır

***Qarabağa, Zəngəzura qayıdırıq...***

***Böyük sevinclə, xoş ovqatla, Ali Baş Komandan İlham Əliyevə, onun Müzəffər Ordusuna minnətdarlıq hissi ilə 29 illik həsrətdən sonra elimizə, obamıza dönürük.***

***Qatar vaqonlarında, çadır şəhərciklərində min bir əzab-əziyyətə qatlanan məcburi köçkün vətəndaşlarımız illərin həsrət yükündən azad olur. Ötən zamanın ağır nisgilindən qurtuluşu sevincə bürünmüş göz yaşları əvəz edir. İçində ömür sürdüyümüz bu şərəfli günlər tariximizdə yeni səhifələr açır.***

***Düşmənin 30 ildə xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzuru yenidən quran İlham Əliyevin işğaldan azad edilən torpaqlarımızda həyata keçirdiyi misli görünməmiş quruculuq işləri Azərbaycanın qüdrətinin göstəricisidir. İyulun 15-də bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə bu məsələyə xüsusi olaraq toxunan Prezident bir daha bəyan etdi ki, Azərbaycan dövləti Qarabağı, Zəngəzuru yenidən qurur. Özü də təkbaşına, heç bir beynəlxalq maliyyə qurumundan yardım almadan: "Hər şey göz qabağındadır. Bütün işlər plan üzrə gedir. İnfrastruktur işləri - artıq yaşayış binalarının inşasına başlanılıb, Ağalı kəndi istifadəyə verilib, beş şəhərin Baş planı təsdiqlənib, yeni yaradılacaq kəndlərin yerləri müəyyən edilib... Bu bölgə nəinki Azərbaycan üçün, dünya üçün nümunəvi bölgə olacaq. Biz hər şeyi planlı şəkildə edirik".***

### Cocuq Mərcanlıdan başlayan Böyük qayıdış



Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan Böyük qayıdışa 2017-ci ildən başlayıb. 2016-cı ildə Azərbaycan Ordusunun Aprel Zəfərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası və kənd sakinlərinin geri dönüşü Böyük qayıdışın başlanğıcı oldu.

Aprel Zəfərindən bir il sonra 2017-ci il iyulun 14-də Cocuq Mərcanlı kəndində tarixi hadisə yaşandı. Yenidən öz yurd-yuvalarına qayıdan soydaşlarımızın yanında olan Prezident İlham Əliyev bu tarixi hadisənin mənasını belə izah etdi: "Bu gün Lələtəpədə və digər işğaldan azad edilən ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız Şuşada dalğalanacaq".

Bu, təsadüfən deyilən fikir deyildi. Sözünə, vədinə sadiq olan lider kimi İlham Əliyevin bu bəyanatı Azərbaycan xalqının qələbəyə inamını daha da artırdı və Aprel döyüşlərində ağır zərbə alan düşmənin canına vəlvələ saldı.

→ 7

# Azərbaycanın layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir

## Avropa İttifaqı İlham Əliyevin timsalında Azərbaycanı artıq ən etibarlı tərəfdaşlar sırasında qəbul edir



### Prezident İlham ƏLİYEV:

■ Enerji sahəsində apardığımız fəal əməkdaşlığın on beş ildən artıq tarixi var. Bugünkü Memorandum aramızda imzalanmış birinci sənəd deyil. Yaxşı tarixçəmiz və nailiyyətlərimiz var.

■ Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir. Biz neft hasilatı ilə başladıq. Sonra qaz hasilatına keçdik. Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərini çəkdik.

■ Enerji təhlükəsizliyi məsələləri bu gün heç zaman olmadığı qədər vacibdir. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq təbii ki, böyük nailiyyətdir.

■ Bu il biz Azərbaycan ilə Avropa İttifaqı arasında bir çox sahələri əhatə edən, o cümlədən neft, qaz və bərpaolunan enerji mənbələrini, hidrogeni, enerji səmərəliliyini və digər məsələləri nəzərdə tutan enerji dialoquna başlamışıq. Azərbaycanda bərpaolunan enerjinin istehsalı sahəsində böyük potensial Avropa İttifaqı tərəfindən artıq yüksək dəyərləndirilir.

■ Gələn illər ərzində istifadə edəcəyimiz yeni qaz yataqlarımız var. Bununla qazın hasilatını artıracağıq. Biz bərpaolunan enerjidən istifadə edərək ixrac üçün daha çox qazı təmin edəcəyik. Bu, səylərimiz sayəsində yaradılmış və Avropa İttifaqının dəstəklədiyi çox üstün vəziyyətdir.

■ Azərbaycanın coğrafi mövqeyini və müasir daşımalar infrastrukturunu nəzərə alaraq, biz potensialımız arasında şəbəkənin qurulması üzərində daha fəal çalışmalıyıq. Burada, Xəzərin qərb sahilində Azərbaycanın Xəzərdə ən iri ticarət donanması, müasir infrastruktur, gəmiqayırma imkanları, yeni dəniz limanı, bütün qonşularımızla bizi birləşdirən dəmir yolları var.

### Avropa Komissiyasının prezidenti Ursula Fon der LYAYEN:

■ Qətiyyət göstərərək Avropa İttifaqını dəstəklədiyinizə görə minnətdarıq.

■ Avropa İttifaqı daha etibarlı və etimad doğuran tərəfdaşlara üz tutmaq qərarına gəldi və mən Azərbaycanı onların sırasında hesab etməkdən məmnunam.

■ Həqiqətən siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz. İndicə imzaladığımız Anlaşma Memorandumu bizim enerji tərəfdaşlığımızı daha da gücləndirir.

■ Biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq, beləliklə Avropanın təchizat təhlükəsizliyinə ciddi töhfə verəcəyik.

■ Azərbaycan yanacaq növlərinin təchizatçısı olmaqla yanaşı, tədricən Avropa İttifaqı üçün bərpaolunan enerji növlərini təchiz edən mühüm və etibarlı tərəfdaşa çevriləcək.

■ Azərbaycan böyük tərəqqiyə nail olub, nümayiş və təqdim etməyə bir çox nailiyyəti var.

■ Avropa İttifaqı Azərbaycanın ən iri ticarət tərəfdaşı və əsas ixrac bazarıdır. Həmçinin sərmayə qoyuluşu baxımından da Azərbaycan üçün ən vacib mənbələrdən biridir. Biz bunu genişləndirmək istəyirik.

■ Xalqlarımızın və cəmiyyətlərimizin daha da yaxınlaşdırılması da xüsusi əhəmiyyət kəsb edir. Bu, bizim qlobal qapı strategiyamızın başlıca missiyasıdır və həmçinin Şərq Tərəfdaşlığının mahiyyətidir.

■ Avropa İttifaqı Azərbaycanla birgə çalışaraq Mərkəzi Asiya və onun hüdudlarından kənarda da əlaqələr qurmaq arzusundadır. Biz mühüm Trans-Xəzər əlaqələrinə dair ideya və müzakirələri böyük maraqla izləyirik və müzakirələrin dərinləşdirilməsinə töhfə verəcəyik.

■ Avropa İttifaqı Sizin regionla sıx bağlıdır. Biz tərəfdaşlığımıza dəyər veririk və bu tərəfdaşlıq zaman keçdikcə ardıcıl şəkildə daha da inkişaf edəcək və dərinləşəcək.

→ 2-3

# İqtisadi artım tempi proqnozlaşdırılandan yüksəkdir

"İqtisadi müstəqillik əsas amillərdən biridir və burada da böyük nailiyyətlər var. Biz büdcəni təkcə neftin qiymətinin artırılması nəticəsində böyütməmişik. Yəni, dürüstləşmə, eyni zamanda aparılan islahatlar nəticəsində mümkün olmuşdur. Çünki bəli, dünyada neftin qiyməti qalxıb, amma, eyni zamanda dünyanın kapital bazarları çöküb, bunu da hər kəs bilməlidir".

Bunu Prezident İlham Əliyev ilin altı ayının yekunlarına həsr olunan müşavirədə çıxışı zamanı deyib. Dövlət başçısı iqtisadi sahədə aparılan islahatların 6 ayda vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığılmasına imkan verdiyini açıqlayıb. Çünki şəffaflıq var, dürüstlük var, hesabatlılıq var.

İqtisadi inkişafdan söz açan Prezident bildirib ki, həm iqtisadi artım, həm də qeyri-neft iqtisadiyyatı üzrə yaxşı nəticələr var. İqtisadiyyat 6,2 faiz, qeyri-neft iqtisadiyyatı 9,6 faiz, ümumi sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi 11,5 faiz artıb.

Ekspertlər də belə mürəkkəb dövrdə Azərbaycanın iqtisadi artıma nail olduğunu və 2022-ci ilin 6 ayında bunu qoruyub saxladığını qeyd edirlər. Eyni zamanda ilin sonuna qədər artımların olacağı proqnozlaşdırılır. Qeyd edək ki, dünyada gedən siyasi proseslər fonunda neftin qiymətinin qalxması Azərbaycanın 2022-ci il dövlət büdcəsində nəzərdə tutulandan yüksək qiymətə satılması büdcəyə daxilolmaları artırıb. Bununla yanaşı, qeyri-neft sektorundan da gələn gəlirlərin artması büdcəyə yenidən baxılmasına, müəyyən sahələrə ayrılan vəsaitlərin həcminin artırılmasına imkan verib.

→ 6

# İradəsizlər, araqatanlar və qızışdıranlar

İnsana həyatı yalnız uca Tanrı bəxş edir!

Tanrıdan başqa kimsə də insanı həyatdan məhrum edə bilməz!

Edərsə, bu, böyük günah sayılır.

Ən böyük günahlardan biri isə insanın özünə qəsd etməsidir!

Bütün müqəddəs kitablarda, o cümlədən "Qurani-Kərim"də bu, qadağan edilir, böyük qəbahət hesab olunur.

Məhz bu məntiqlə dünya, xüsusən dünyanın sivil dövlətləri güllələnmə cəzasını ləğv edir, insanlara ölüm cəzasını ömürlük həbslə əvəzləyirlər!

Təəssüflər olsun ki, həyatda insanların qətlə yetirilməsi hallarına, xüsusən özünüöldürmə faktlarına son zamanlar tez-tez təsadüf edirik.

Hər dəfə bu mövzuda eşitdiyimiz bəd xəbərlər bizi sarsıdır, ürəyimizi parçalayır, qəlbimizə qara qanlar axıdır.

Son dövrlərin ən ağır və sarsıdıcı xəbərləri isə müharibə qazilərinin özlərinə qəsd etmələri, hətta üstlərinə neft tökərək yandırmalarıdır!

Bəzi qazilərimizdə "müharibə sindromlu" psixoloji problemin mövcudluğu kimsəyə sirr deyil!

Belə vəziyyətdən təkcə tibbi yardımlarla çıxmaq mümkün olmur...

Buna zaman, mühit, doğmaların və yaxınların dəstəyi də tələb olunur...

Bəs cəmiyyət necə, kritik məqamda zəruri dəstəyi göstərməyə hazırdırmı?

→ 6

# "Bu dəfə Murovdan qalib kimi keçdik"

Bütün faciələrimiz bu aşırımda başlamışdı, elə bu aşırımda da bitdi...

Murovun sərt üzlü Ömər aşırımında...

Onilliklər boyu Kəlbəcərlə bağlı gözlərimiz önündəki, xatirələrimizdəki son mənzərə, son pərdəydi Ömər aşırımı...

1993-cü ilin 2 aprelində bir ucu Kəlbəcərdə, bir ucu Gəncədə olan köç karvanı ilə məhz bu aşırımdan məğlub ölkənin vətəndaşları kimi məcbur olaraq qaçmışdıq...

Hərçənd ki, illərlə "qaçdıq" ifadəsini dilimizə gətirməyə utanmışdıq, amma düz 29 ildən sonra bu aşırımla Azərbaycanın qalib vətəndaşı kimi Kəlbəcərə dönən gün, bu acı reallığı da dilimə almaqdan çəkinmədim.

Bəli, nə qədər əzablı olsa da deməliyəm ki, 1993-cü ilin o məşum aprel günündə canımızı götürüb Kəlbəcərdən qaçmışdıq...

Neçə saat idi ki, yolda idik, asan deyildi, bu dik aşırımlı dar yolla bir el köçürdü...

Addım-addım irəliləyirdik. Vahid əmimgil, biz, kəndimizdən daha bir neçə ailə Ənvər əminin yük maşınına yığışmışdıq. Elə quruca canımızı götürüb çıxmışdıq, heç tələsdiyimizdən yeməyə yavan çörək də götürməmişdik. Aclıqdan qıvrılan qarnımı qucaqlayaraq, zülüm-zülüm ağladığım yadımdadır...

→ 5

# Avropa alov içindədir

## Anomal istilər 6 ölkədə genişmiqyaslı meşə yanğınlarına səbəb olub

Avropanın bir neçə ölkəsində sinoptiklər tərəfindən qeydə alınan Selsi üzrə 44 dərəcəyədək istilər böyük yanğınlara səbəb olub. Fransa, İspaniya, İtaliya, Portuqaliya, Xorvatiya və Yunanıstan alov içindədir. Yanğın böyük meşə sahələrini, evləri məhv edib, insanlar həyatlarını itiriblər.

Yanğınların tüğyan etdiyi ölkələrdə havanın temperaturu müsbət 40 dərəcəni keçib. Bu isə xilasedicilərin işini ciddi şəkildə çətinləşdirir.

→ 12

# Tibbi maskadan istifadə təkidlə tövsiyə edilir



→ 12

# Ermənistan yeni reallıqlarla barışmalıdır

Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, bir-birlərinin ərazi bütövlüyünü tanımaqla tərəflər arasında yekun sülh müqaviləsinin imzalanması hazırda Cənubi Qafqazda sabitlik və regional inkişaf üçün əsas şərtlərdən biridir.

Elə bu səbəbdən də Azərbaycanın yürütdüyü siyasətin mərkəzində sərhədlərin delimitasiya və demarkasiyası, kommunikasiyaların açılması, yekun sülh müqaviləsinin imzalanması ilə qarşılıqlı əməkdaşlığa başlanılması dayanır.

→ 12

# Azərbaycanın layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir

## Avropa İttifaqı İlham Əliyevin timsalında Azərbaycanı artıq ən etibarlı tərəfdaşlar sırasında qəbul edir

## Prezident İlham Əliyevin Avropa Komissiyasının prezidenti ilə geniş tərkibdə görüşü keçirilib





**İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen ilə geniş tərkibdə görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı Avropa Komissiyasının prezidentini qarşıladı.**

Sonra birgə foto çəkdirildi.

Görüşdə çıxış edən Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, xanım prezident. Sizi görməyimə çox şadam. Səfərinizə görə minnətdaram. Səfəriniz həqiqətən ikitərəfli əməkdaşlığımızın vacibliyini nümayiş etdirir. Çox şadıq ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr ikitərəfli əməkdaşlıq, eləcə də Şərq Tərəfdaşlığı çərçivəsində çox uğurla inkişaf edir. Bizim siyasi münasibətlərin inkişafı baxımından, sözün əsl mənasında, çox yaxşı nailiyyətlərimiz var. Çox fəal siyasi təmaslar mövcuddur. Bilirsiniz ki, Avropa İttifaqı bizim əsas ticari tərəfdaşımızdır. Əminəm ki, gələn illərdə icrasını planlaşdırdığımız layihələr ticari əməkdaşlığımızı genişləndirəcək. Əlbəttə ki, enerji sahəsində əməkdaşlıq hər zaman gündəliyimizdə üstün yer tutub. Bu gün xüsusən də belədir. Hesab edirəm ki, çox yaxşı nəticələrimiz, nailiyyətlərimiz var. Bu ilin əvvəlində, xanım komissarın səfərindən sonra, biz enerji dialoqunu başlamışıq. Fikrimcə, bu, həmçinin qarşılıqlı marağın çox yaxşı əlamətidir.

Enerji təhlükəsizliyinə aid məsələlər birmənalı olaraq bu gün qlobal gündəlikdə ən üstün məsələlərdən biridir. Lakin bundan başqa, biz təhsil, daşımalar və bütün digər sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlıyıq. Azərbaycan ilə Avropa İttifaqı arasında yeni sazişə aid hazırda müzakirə etdiyimiz məsələlər potensial əməkdaşlığımızın bütün sahələrini əhatə edir. Əminəm ki, səfəriniz zamanı biz bu və digər məsələləri müzakirə edəcəyik. Həmçinin bizi bu gün çox mühüm mərasim gözləyir və o, enerji sahəsində yeni geniş əməkdaşlığın başlanmasından xəbər verəcək.

Xoş gəlmisiniz. Sizə uğurlu səfər arzulayıram.

❖ ❖ ❖

Avropa Komissiyasının prezidenti xanım **Ursula Fon der LYAYEN** dedi:

- Çox sağ olun. Səmimi qəbula görə çox sağ olun, cənab Prezident. Həqiqətən söylədiyiniz kimi, bizim aramızda uzunmüddətli tərəfdaşlıq var. Şərq Tərəfdaşlığı xüsusi olaraq Azərbaycanı əhatə edir. Əla münasibətləri daha da dərinləşdirmək istəyirik. Bu gün imzalayacağımız Anlaşma Memorandumuna nəzər salsaq, qeyd etməliyəm ki, ilk növbədə həmin sənəd nümayəndələrimizin apardığı əla işin nəticələrinə əsaslanır. Orada enerji sektorunda etibarlı tərəfdaşlıq, eləcə də orta və uzun perspektivdə bərpaolunan enerji məsələləri xüsusi qeyd edilir. Bir sözlə, sənəd bu gün təfərrüatla müzakirə etdiyimiz bütün məsələləri əhatə edir. Əlbəttə ki, Sizin də söylədiyiniz kimi, Anlaşma Memorandumundan başqa, Avropa İttifaqı ilə Azərbaycan arasında saziş də nəzərdə tutulur. Bunu elə indicə xarici işlər naziri ilə müzakirə etdik - həmin sazişə yeni təkan verək, daha irəliyə gedək və qalan məsələləri müzakirə edək.

## Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb





İyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar.

## Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının prezidenti mətbuata bəyanatlarla çıxış ediblər

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen mətbuata bəyanatlarla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlət başçısı bəyanatla çıxış edib.



### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli xanım prezident.

Hörmətli xanımlar və cənablar.

Əvvəlcə mən Avropa Komissiyasının xanım prezidentini və Avropa İttifaqının nümayəndə heyətini Azərbaycanda salamlamaq istərdim. Bu gün bizim geniş əhatəli və qarşılıqlı maraq doğuran məsələlərə aid çox yaxşı müzakirəmiz baş tutdu. Biz bu gün gündəliyimizdə dayanan bütün məsələləri əhatə etdik. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması mərasimi oldu. Enerji sahəsində apardığımız fəal əməkdaşlığın on beş ildən artıq tarixi var. Bugünkü memorandum aramızda imzalanmış birinci sənəd deyil. Biz 2006-cı ildə Anlaşma Memorandumunu və 2011-ci ildə "Cənub qaz dəhlizi" ilə bağlı Birgə Bəyannaməni imzalamışıq. Bir sözlə, yaxşı tarixçəmiz və nailiyyətlərimiz var.

Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir. Biz neft hasilatı ilə başladıq. Sonra qaz hasilatına keçdik. Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərini çəkdik. Əlbəttə ki, 3500 kilometr uzunluğu olan "Cənub qaz dəhlizi" boru kəməri sistemlərini inteqrasiya etdi və bununla təbii qazımız Avropa qitəsinə çatdırılır. İki ildən az müddətdə "Cənub qaz dəhlizi" tam gücü ilə işləyir. Bütün seqmentlər istismar olunur. Biz bu əməkdaşlığın müsbət faydasını artıq görürük. Enerji təhlükəsizliyi məsələləri bu gün heç zaman olmadığı qədər vacibdir. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq təbii ki, böyük nailiyyətdir.



Bu il biz Azərbaycan ilə Avropa İttifaqı arasında bir çox sahələri əhatə edən, o cümlədən neft, qaz və bərpaolunan enerji mənbələrini, hidrogeni, enerji səmərəliliyini və digər məsələləri nəzərdə tutan enerji dialoquna başlamışıq. Azərbaycanda bərpaolunan enerjinin istehsalı sahəsində böyük potensial Avropa İttifaqı tərəfindən artıq yüksək dəyərləndirilir. Biz külək və günəş enerjisinə artıq sərmayə qoyuluşu prosesinə başlamışıq. Potensialımızla bağlı artıq ilkin qiymətləndirməni aparmışıq. Deyə bilərəm ki, Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində Günəş və külək enerjisinin potensialı 9200 meqavatdır. Xəzər dənizində külək enerjisinin potensialı isə 157 qeqavata bərabərdir. Bir sözlə, bizim nəhəng resurs ehtiyatlarımız var. Bundan əlavə, əlbəttə ki, gələn illər ərzində istifadə edəcəyimiz yeni qaz yataqlarımız var. Bununla qazın hasilatını artıracağıq.

*Ardı 3-cü səh.*

# Azərbaycanın layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir

## Avropa İttifaqı İlham Əliyevin timsalında Azərbaycanı artıq ən etibarlı tərəfdaşlar sırasında qəbul edir

## Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının prezidenti mətbuata bəyanatlarla çıxış ediblər

*Əvvəli 2-ci səh.*

Biz bərpaolunan enerjidən istifadə edərək ixrac üçün daha çox qazı təmin edəcəyik. Bu, səylərimiz sayəsində yaradılmış və Avropa İttifaqının dəstəklədiyi çox üstün vəziyyətdir.

Bu gün imzalanan memorandum gələcək üçün bir növ yol xəritəsidir. Nəzərə alsaq ki, əvvəlcə planlaşdırdığımız bütün məsələlər tərəfimizdən icra olunub, əminəm, bundan sonra da böyük uğurlara imza atacağıq. Bu gün müzakirə etdiyimiz digər məsələlər sırasında şəbəkələrin qurulması məsələsi oldu. Azərbaycanın coğrafi mövqeyini və müasir daşımalar infrastrukturunu nəzərə alaraq, biz potensialımız arasında şəbəkənin qurulması üzərində daha fəal çalışmalıyıq. Burada, Xəzərin qərb sahilində Azərbaycanın Xəzərdə ən iri ticarət donanması, müasir infrastruktur, gəmiqayırma imkanları, yeni dəniz limanı, bütün qonşularımızla bizi birləşdirən dəmir yolları var. Buna görə də münasibətlərimizdə şəbəkənin enerji qədər vacib olmasına yönələn birgə səylərə böyük ehtiyac duyulur. Əlbəttə ki, gündəliyimiz çox genişdir. Biz Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzərində işləyirik. Bunu elə indicə xanım prezidentlə müzakirə etdik və ümidvarıq ki, gələn ay bunu başa çatdıra bilərik. Bu, ikitərəfli əməkdaşlığımıza mühüm töhfə olacaqdır. Biz Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində ikitərəfli qaydada işləyirik. Avropa İttifaqı Azərbaycan üçün əsas ticari tərəfdaşdır. Planlarımızın icrası, əlbəttə ki, ticari dövriyyəni xalqlarımızın rifahı naminə artıracaq. Əminəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin böyük gələcəyi var və planlaşdırdığımız bütün məsələlərin həllinə nail olacağıq.

Xanım prezident, bizimlə olduğunuza görə bir daha təşəkkür edirik və Sizə Bakıda xoş səfər arzulayıram.

❖ ❖ ❖

Sonra Avropa Komissiyasının prezidenti bəyanatla çıxış edib.

### Xanım prezident Ursula Fon der Lyayenin bəyanatı

- Burada, Bakıda çox səmimi qəbula görə çox sağ olun, cənab Prezident. Qətiyyət göstərərək Avropa İttifaqını dəstəklədiyinizə görə minnətdarıq. Çünki Rusiyanın Ukraynaya kobud şəkildə müdaxiləsindən hətta əvvəl, Rusiyanın Avropaya qaz təchizatı artıq etibarlı deyildi. Buna görə Avropa İttifaqı Rusiyadan yan keçərək, daha etibarlı və etimad doğuran tərəfdaşlara üz tutmaq qərarına gəldi və mən Azərbaycanı onların sırasında hesab etməkdən məmnunam. Həqiqətən siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz. İndicə imzaladığımız Anlaşma Memorandumu bizim enerji tərəfdaşlığımızı daha da gücləndirir.







Bizim Anlaşma Memorandumumuzun üç məqamını vurğulamaq istəyirəm. Birincisi, biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu memorandum vasitəsilə biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq, beləliklə Rusiyadan qaz təchizatının həcmini azaldacağıq və Avropanın təchizat təhlükəsizliyinə ciddi töhfə verəcəyik.

Memorandumdakı ikinci mühüm məqam bərpaolunan enerji ilə bağlıdır. Azərbaycan bərpaolunan enerji sahəsində nəhəng potensiala malikdir. Cənab prezident, Siz artıq bununla bağlı fikirlərinizi bildirdiniz. Xüsusilə də dənizin külək enerjisini və "yaşıl" hidrogeni qeyd etmək istəyirəm. Biz ikitərəfli görüşümüzdə bu mövzunu geniş müzakirə etdik. Bu gün imzalanan Anlaşma Memorandumu vasitəsilə biz həmin sahədə əməkdaşlığımızın möhkəm təməlini qoyuruq. Azərbaycan yanacaq növlərinin təchizatçısı olmaqla yanaşı, tədricən Avropa İttifaqı üçün bərpaolunan enerji növlərini təchiz edən mühüm və etibarlı tərəfdaşa çevriləcək.

Nəhayət, bizim qaz sahəsindəki əməkdaşlığımız iqlimlə bağlı məsuliyyətimizlə uzlaşmalıdır. Məsələn, buraya metan qazının tullantıları da daxildir. Bizim memorandum bütün qaz təchizatı zənciri boyu metan qazının tullantılarının azaldılması ilə bağlı öhdəlik nəzərdə tutur. Cənab Prezident, bunu Sizinlə də müzakirə etdik - mən Azərbaycanı qlobal metan öhdəliyinə qoşulmağa dəvət edirəm. Bu günə qədər bu öhdəlik 119 ölkə tərəfindən dəstəklənib. Azərbaycan böyük tərəqqiyə nail olub, nümayiş və təqdim etməyə bir çox nailiyyəti var.

Prezident Əliyev və mən enerjidən əlavə, əlaqələrimizin və əməkdaşlığımızın bütün aspektlərini müzakirə etdik. Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Şurasının sabah Brüsseldə iclası baş tutacaq və orada ikitərəfli əməkdaşlığımızın inkişafı müzakirə ediləcək. Biz hazırda yeni ikitərəfli saziş üzərində çalışırıq və ümid edirik ki, iş tezliklə yekunlaşacaq. Onun məqsədi iqtisadi sahədə mövcud olan güclü tərəfdaşlığı genişləndirməkdir. Avropa İttifaqı Azərbaycanın ən iri ticarət tərəfdaşı və əsas ixrac bazarıdır. Həmçinin sərmayə qoyuluşu baxımından da Azərbaycan üçün ən vacib mənbələrdən biridir. Biz bunu genişləndirmək istəyirik. Biz 2024-cü ilə qədər 60 milyon avro həcmində Avropa İttifaqı sərmayəsini Azərbaycana yatıracağıq, iqtisadi və sərmayə planı 2 milyard avroya qədər əlavə sərmayənin səfərbər edilməsi potensialına malikdir. Həmin plan artıq icra olunur və Azərbaycanda təqribən 25 min kiçik və orta şirkətə dəstək verir. Həmçinin Bakı limanının dayanıqlı nəqliyyat qovşağına çevrilməsinə töhfə verilir. Bu, bizim üçün Sizin də qeyd etdiyiniz bağlılıq mövzusu baxımından da olduqca vacibdir. Biz bunu da müzakirə etdik. Bu mənada xalqlarımızın və cəmiyyətlərimizin daha da yaxınlaşdırılması da xüsusi əhəmiyyət kəsb edir.

Bu, bizim qlobal qapı strategiyamızın başlıca missiyasıdır və həmçinin Şərq Tərəfdaşlığının mahiyyətidir. Avropa İttifaqı Azərbaycanla birgə çalışaraq Mərkəzi Asiya və onun hüdudlarından kənarda da əlaqələr qurmaq arzusundadır. Biz mühüm Trans-Xəzər əlaqələrinə dair ideya və müzakirələri böyük maraqla izləyirik və müzakirələrin dərinləşdirilməsinə töhfə verəcəyik. Nəhayət, biz vahid hava məkanı haqqında sazişi yekunlaşdırmaq istəyirik. Çünki bu, biznes, ticarət və turizm imkanlarına böyük təkan verəcəkdir.

Azərbaycan tam potensialına nail olmaq üçün investor əminliyini təmin etməlidir. Buraya vətəndaş cəmiyyətinin daha da cəlb edilməsi, azad və müstəqil medianın olması daxildir. Avropa İttifaqı Cənubi Qafqazın təhlükəsiz, sabit və firavan olmasına sadiqdir. Məsələn, biz bu ölkədə minalardan təmizləmə sahəsində ən böyük donoruq. Biz bu vacib mövzunu da müzakirə etdik. Biz bu məqsəd üçün 4.25 milyon avroluq yeni yardım paketini elan etdik. Bununla yanaşı, biz bu mühüm sahədə avadanlıq və təcrübə təklif edirik.

Cənab Prezident, ümumiyyətlə, Avropa İttifaqı Sizin regionla sıx bağlıdır. Biz tərəfdaşlığımıza dəyər veririk və bu tərəfdaşlıq zaman keçdikcə ardıcıl şəkildə daha da inkişaf edəcək və dərinləşəcək. Bir daha bizi burada qəbul etdiyinizə və birgə Anlaşma Memorandumunun imzalanmasına görə təşəkkür edirəm. Sağ olun.

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma və yolasalma



Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen iyulun 18-də Azərbaycana səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının və Avropa İttifaqının bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayeni hava limanında Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Peter Mixalko, ölkəmizin Belçika Krallığındakı səfiri Vaqif Sadıqov və digər rəsmi şəxslər qarşıladılar.

❖ ❖ ❖

Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin Azərbaycana səfəri iyulun 18-də başa çatıb.



# Ş.S.Bağırovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şahin Soltan oğlu Bağırov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini təyin edilsin.

2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini Şahin Soltan oğlu Bağırova həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyul 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 540; 2013, № 12, maddə 1552; 2014, № 1, maddə 14; 2015, № 6, maddə 699; 2016, № 9, maddə 1487, № 10, maddə 1626; 2017, № 12 (I kitab), maddə 2333; 2018, № 7 (I kitab), maddə 1487; 2019, № 6, maddə 1031; 2020, № 2, maddə 97; № 6, maddə 702) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.5-ci bəndinin birinci cümləsində "bir" sözü "iki" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyul 2022-ci il*

# Prezident Administrasiyasının rəhbəri Dövlət Gömrük Komitəsinin sədri vəzifəsinin icraçısını komitənin kollektivinə təqdim edib



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsinə təyin olunmuş, DGK-nin sədri vəzifəsi həvalə edilmiş Şahin Bağırovu komitənin kollektivinə təqdim edib.

AZƏRTAC xəbər verir ki, Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında dövlət idarəetməsinin bütün sahələrində köklü islahatların aparıldığını vurğulayıb. Qeyd edib ki, islahatların əsas məqsədi idarəetməni daha da təkmilləşdirmək, dövlət orqanlarının fəaliyyətində şəffaflığa nail olmaq və vətəndaş məmnunluğunu təmin etməkdən ibarətdir. Samir Nuriyev dövlət başçısının gömrük orqanlarının qarşısına qoyulmuş vəzifələrin icrası ilə bağlı tapşırıqlarını kollektivin diqqətinə çatdırıb.

Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, Dövlət Gömrük Komitəsi sədrinin vəzifələrini icra edən Şahin Bağırov göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını ifadə edib. Şahin Bağırov gömrük xidmətində çalışan həmkarları ilə birlikdə dövlət başçısının etimadını doğrultmaq üçün bütün imkanlarını səfərbər edəcəyini və gömrük orqanlarının fəaliyyətində keyfiyyət dəyişikliyinə nail olmaqdan ötrü səylə çalışacağını vurğulayıb.

# ABŞ Dövlət katibinin köməkçisi sülh müqaviləsi üzrə Azərbaycan tərəfindən atılan addımlar barədə məlumatlandırılıb



Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramovla Amerika Birləşmiş Ştatları (ABŞ) Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında telefon danışığı olub.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər cari regional proseslər ətrafında, o cümlədən Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesinin müxtəlif istiqamətləri üzrə fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov bölgədə sülh və tərəqqinin təmin edilməsi, o cümlədən kommunikasiyaların açılışı, iki dövlətin sərhədinin delimitasiyası, gələcək sülh müqaviləsi üzrə işə başlanılması üzrə Azərbaycanın məlum mövqeyini və bu istiqamətlərdə Azərbaycan tərəfindən atılan addımları qarşı tərəfin diqqətinə çatdırıb. Tərəflərin öhdəliklərinin tam icrasının vacibliyi vurğulanıb.

Karen Donfrid Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Tbilisi şəhərində baş tutan ilk birbaşa görüşünü yüksək qiymətləndirib və birbaşa təmasların davam etdirilməsinin vacibliyini vurğulayıb.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Almaniya Azərbaycanla ikitərəfli əlaqələrin inkişafında maraqlıdır





İyulun 18-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Almaniya Federal Parlamentinin (Bundestaq) vitse-prezidenti Katrin Görinq-Ekartın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisdən verilən məlumata görə, parlamentin Sədri qonaqları salamlayaraq bu səfərin ölkələrimiz arasında dostluq münasibətlərinin daha da dərinləşməsinə və genişləndirilməsinə töhfə verəcəyinə inamını bildirib. Spiker qeyd edib ki, bu il ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30-cu ildönümü tamam olub. Münasibətlərimizin inkişafında yüksəksəviyyəli səfərlər və bu səfərlər zamanı aparılan danışıqlar mühüm rol oynayır.

Dövlətlərarası münasibətlər sistemində parlamentlərin rolunu vurğulayan Sahibə Qafarova hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib, beynəlxalq təşkilatlarda əməkdaşlığın önəmini vurğulayıb.

Spiker bildirib ki, Azərbaycan 30 il Ermənistanın işğalı altında olmuş ərazilərini 2020-ci ildə Vətən müharibəsi nəticəsində azad etdi. Əgər ötən illər ərzində Azərbaycan torpaqlarının işğalı faktına dünya ictimaiyyəti tərəfindən lazımi diqqət göstərilsəydi, münaqişə daha tez və itkisiz həll oluna bilərdi.

Milli Məclisin Sədri qeyd edib ki, Ermənistan işğal dövründə bu ərazilərdəki bütün şəhər və kəndlərimizi biləraəkdən dağıtmış, mədəni, tarixi, dini obyektləri vandalizmə məruz qoymuşdur. Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 min azərbaycanlının taleyi barədə Ermənistan tərəfi hələ də məlumat vermir. Azərbaycan öz ərazilərini azad etdikdən sonra həmin bölgələrdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlayıb. Hazırda işğaldan azad olunmuş ərazilərdəki bütün infrastruktur bərpa edilir. Ancaq Ermənistan tərəfindən həmin ərazilərin minalanması bu işlərin həyata keçirilməsinə və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtmasına böyük maneçilik törədir.

Spiker diqqətə çatdırıb ki, Azərbaycan regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirir. Azərbaycan xalqı sülh tərəfdarıdır.

Sahibə Qafarova bildirib ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında üçtərəfli görüşlər keçirilib. Azərbaycan tərəfindən sülh sazişinin imzalanması üçün məqsədyönlü addımlar atılır və ümid edirik ki, Ermənistan konstruktiv mövqe nümayiş etdirərək öz öhdəliklərini yerinə yetirəcək və tezliklə sülh müqaviləsi üzrə danışıqlar imzalanacaq.

Söhbət zamanı Milli Məclisin Sədri diqqətə çatdırıb ki, 1918-ci ildə Şərqdə ilk demokratik respublika kimi təşəkkül tapmış Azərbaycan Demokratik Respublikası qadınlara Şərqdə seçki hüququ verən ilk ölkə olub. Bu, bir sıra Avropa ölkələrindən də əvvəl baş verib. Sahibə Qafarova qonağa Azərbaycanda qadın hüquqlarının qorunması sahəsində qanunvericilik və görülmüş digər işlər, qadınların təhsili, onların cəmiyyət həyatında yaxından iştirakı barədə ətraflı məlumat verib.

Göstərilən yüksək qonaqpərvərliyə və səmimi görüşə görə minnətdarlığını bildirən Almaniya Federal Parlamentinin (Bundestaq) vitse-prezidenti Katrin Görinq-Ekart görüşdən məmnunluğunu bildirib. O, ölkəsinin ikitərəfli əlaqələrin inkişafında maraqlı olduğunu və Azərbaycanın Almaniyanın iqtisadi, enerji sahəsində mühüm tərəfdaşı olduğunu diqqətə çatdırıb.

Katrin Görinq-Ekart qanunverici orqanlar arasında əlaqələrin gücləndirilməsi, o cümlədən parlamentlərarası dostluq qrupları arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti barədə fikirlərini açıqlayıb.

Söhbət zamanı qonaq Azərbaycandan Avropaya qaz ixracı, peşə təhsili, mədəniyyət sahələrində əməkdaşlıq barədə fikirlərini bölüşüb.

Görüşdə Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nurlan Həsənov, Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov, Almaniya səfirliyinin ölkəmizdəki müvəqqəti işlər vəkili Hayko Şvarts və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Yüksəliş" müsabiqəsinin final mərhələsi yekunlaşıb







"Bakı Ekspo Mərkəzi"ndə keçirilən "Yüksəliş" müsabiqəsinin üç gün davam edən final mərhələsi iyulun 17-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, iştirakçılar Təşkilat komitəsinin üzvləri və idarəçi rəhbərlərin müşahidəsi ilə fərqli keyslər üzrə tapşırıqları yerinə yetiriblər. İdarəçi rəhbərlərin suallarına cavab verən iştirakçılar keys üzrə təqdimatdan sonra idarəçi rəhbərlər tərəfindən qiymətləndiriliblər. Belə ki, hər masaya təyin edilmiş mentor komandada öz səriştəsi ilə seçilən bir finalçıya qiymətləndirmə balı təqdim edib. Təqdim edilən mentor balı iştirakçıların ümumi balına əlavə ediləcək.

İkinci "Yüksəliş" müsabiqəsinin qaliblərinin adları iki iş günü ərzində açıqlanacaq. Final mərhələsinin üçüncü günündə müsabiqənin Təşkilat komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, təhsil naziri Emin Əmrullayev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, kənd təsərrüfatı naziri İnam Kərimov, mədəniyyət naziri Anar Kərimov, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, ombudsman Səbinə Əliyeva, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Şahin Seyidzadə, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, "BP" şirkətinin Azərbaycan, Gürcüstan, Türkiyə regionunda xarici əlaqələr və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini Anar Novruzov, İctimai Televiziyanın baş direktoru Balakişi Qasımov və "Yüksəliş" İctimai Birliyinin sədri, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev iştirak ediblər.

Qeyd edək ki, finalda müsabiqənin əvvəlki dörd mərhələsini uğurla başa vuran 116 nəfər iştirakçı mübarizə aparırdı. İştirakçıların mübarizəsi keyslər üzərindən davam edir və onların 8 səriştəsi (strateji düşünmək bacarığı, nəticələrə yönəlmək bacarığı, komandada işləmək bacarığı, kommunikasiya bacarıqları, dəyişikliklərin və innovasiyaların idarə edilməsi, liderlik, sosial məsuliyyət və effektivliyin idarə edilməsi) ekspertlər tərəfindən qiymətləndirilir. Qalibləri 1 il ərzində idarəçi rəhbərlərdən - iri şirkətlərin topmenecerlərindən və dövlət qurumlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxil edilmə və 20.000 AZN dəyərində pul mükafatı gözləyir.

# Xarici işlər naziri Ceyhun Bayramov Brüsselə işgüzar səfərə yola düşüb

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının iclasında iştirak etmək məqsədilə Brüssel şəhərinə işgüzar səfərə yola düşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 18-ci iclasında iştirakı, həmçinin ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulub.

# Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub



İyulun 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federal Parlamentinin vitse-prezidenti Katrin Görinq-Ekart ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov bu il diplomatik münasibətlərin 30 illiyinin qeyd olunduğu Almaniya ilə ikitərəfli əlaqələrin, habelə parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdıraraq, cari ilin martında Almaniyaya səfərini və keçirilmiş görüşləri məmnunluqla xatırlayıb.

Görüş zamanı ikitərəfli və regional, habelə Ukrayna və onun ətrafında vəziyyət, enerji təhlükəsizliyi ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılıb. Azərbaycanın enerji təhlükəsizliyi, enerji resurslarının Avropaya ixracı və alternativ enerji resurslarının inkişaf etdirilməsi sahəsində həyata keçirdiyi işlər və perspektivlər müzakirə olunub.

Görüşdə həmçinin 44 günlük Vətən müharibəsində Azərbaycanın Qələbəsindən sonra regiondakı mövcud vəziyyət, sülh quruculuğu səyləri, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri, eləcə də həmin torpaqlarda həyata keçirilib "yaşıl enerji" layihələri barədə qarşı tərəfə məlumat verilib.

Daha sonra Azərbaycanla Almaniya arasında humanitar və mədəniyyət sahəsində əməkdaşlıq, habelə digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

# "Bu dəfə Murovdan qalib kimi keçdik"




## Biz qayıtdıq, Vətən!

**Bütün faciələrimiz bu aşırımda başlamışdı, elə bu aşırımda da bitdi...**

**Murovun sərtüzlü Ömər aşırımında...**

**Onilliklər boyu Kəlbəcərlə bağlı gözlərimiz önündəki, xatirələrimizdəki son mənzərə, son pərdəydi Ömər aşırımı...**

**1993-cü ilin 2 aprelində bir ucu Kəlbəcərdə, bir ucu Gəncədə olan köç karvanı ilə məhz bu aşırımdan məğlub ölkənin vətəndaşları kimi məcbur olaraq qaçmışdıq...**

**Hərçənd ki, illərlə "qaçdıq" ifadəsini dilimizə gətirməyə utanmışdıq, amma düz 29 ildən sonra bu aşırımla Azərbaycanın qalib vətəndaşı kimi Kəlbəcərə dönən gün, bu acı reallığı da dilimə almaqdan çəkinmədim.**

**Bəli, nə qədər əzablı olsa da deməliyəm ki, 1993-cü ilin o məşum aprel günündə canımızı götürüb Kəlbəcərdən qaçmışdıq...**

### Həyatımızdakı heç nə əvvəlkitək olmayacaqdı

Neçə saat idi ki, yolda idik, asan deyildi, bu dikaşırımlı dar yolla bir el köçürdü...

Addım-addım irəliləyirdik. Vahid əmimgil, biz, kəndimizdən daha bir neçə ailə Ənvər əminin yük maşınına yığışmışdıq. Elə quruca canımızı götürüb çıxmışdıq, heç tələsdiyimizdən yeməyə yavan çörək də götürməmişdik. Aclıqdan qıvrılan qarnımı qucaqlayaraq, zülüm-zülüm ağladığım yadımdadır...

Mənə toxtaqlıq vermək istəyən, fəqət çarəsizlikdən bunu da bacarmayan anam Gözəlin də mənə qoşulub hönkürməsi yadımdadır...

Amma yolda kimlərisə ucadan haraylaya-haraylaya piyada irəliləyən qonşu kəndlərin birindən olan biri gənc, digəri yaşlı qadınların da maşınımıza minməsi ilə anidən kirimişdim... Yolda bu qadınlar digər ailə üzvləri ilə bir-birilərini itirmişdilər. Həmin vaxt gənc qadın yaşlı anasını yanımızda qoyub piyada geriyə, azyaşlı bacı-qardaşlarını axtarmağa qayıtmışdı (sonradan eşitdik ki, həmin vaxt o, əsir düşüb...)

Köç maşınlarında əsasən yaşlılar, qadınlar və uşaqlar idi. Silahsız olsalar da, kişilər rayonu tərk etməmişdilər. Elə atamgil də bizdən üç gün sonra rayondan atla dağ yolları ilə birtəhər çıxa bilmişdilər. Buna görə də nənələrimizin, analarımızın, bacılarımızın ah-naləsi ərşə dirənmişdi...

Həmin vaxt yaşımın azlığından içində olduğumuz faciənin miqyasını tam dərk etməsəm də, ürəyimə dammışdı ki, daha bundan sonra həyatımızdakı heç nə əvvəlkitək olmayacaq...

### Sevinclə kədərin qoşalaşdığı möcüzəvi məkan

Biz illərlə Kəlbəcərlə aramıza keçilməz sədd çəkən Murovdan küsmüşdük, gah da Ömər aşırımına könül qoymuşduq...

Elə ki doğma torpağımız üçün burnumuzun ucu göynəyərdi, üz tutardıq Murovun Gəncə üzünə... Altdan yuxarı saatlarla şaqqıltı ilə Murovun gözyaşı misalı qıvrıl-qıvrıla axan çaya baxardıq, səsinə qulaq verərdik, Kəlbəcərdən bir soraq almağa çalışardıq...




Görünür, o zamanlar Murov da bizdən, Kəlbəcər elindən incimişdi ki, heç vaxt səsimizə hay verməz, harayımızı duymazdan gələrdi. Sadəcə, o anlarda əsən küləyini daha zərblə sıldırım qayalara çırpar, buludları baş-başa çataraq dəhşətlə guruldayar, şimşəkdən qılıncını itiləyərək qəzəb qığılcımlarını parıldadardı...

İndi Murovun belini üzük qaşı kimi dövrəyə almış dumanı yararaq yuxarı, ta "buludların üstü"nə, Günəşin bərq vurduğu aydınlığa çıxa-çıxa düşünürdüm ki, daha bu küskünlüyün, darqınlığın sonu çatıb. Biz Murovla barışmışıq, Murov bizi bağışlayıb...

İllər əvvəl kəlbəcərli el şairi Sücaətin qələmə aldığı o möhtəşəm məqamı yaşayırıq:

*"Bir gün gülə-gülə qayıdacaqdı,*
*Ağlaya-ağlaya köçən Kəlbəcər".*

Budur, 3260 metr hündürlükdə olan Ömər aşırımı arxada qalır, "Kəlbəcər" yazılmış lövhəni də geridə qoyuruq. Murovun Kəlbəcər üzündə axan yanaşı bulaqların yanına çatırıq. Tez əllərimi soyuğu qılınc kimi kəsən bulağın altına tuturam, bir andaca barmaqlarım "iflic" olur, amma əlimi geri çəkmirəm, bu ağrını duymağın özü belə xoş gəlir mənə... İlk dəfə 1992-ci ilin yayında atamla Şamaxıdan Kəlbəcərə qayıdanda bu bulaq barmaqlarımı beləcə sızlatmışdı...

İndi isə barmaqlarımı da, ürəyimi də göynədən Murovun buz kimi suyu deyildi, illərdən sonra yenidən bu suyla "salamlaşanda" atamın yanımda olmaması idi...

Gözlərimdən qoparaq bulaq suyuna qovuşub sürətlə axıb gedən iri yaş damlaları beynimdə Kəlbəcərlə bağlı oyanan saysız xatirələrimi də özü ilə bərabər sürükləyib aparır... Bəzən xoş, bəzən də qüssəli anlara köklənirəm...

Səbəbsiz ağlayıram, səbəbsiz gülürəm, bu yerlə göyün birləşdiyi, Tanrıya daha yaxın ucalıqda sevinci də, kədəri də eyni anda yaşayıram... Qarı da, dumanı da, günəşi də, yağışı da bir ahəng altında toplamış qocaman Murovun özü kimi...

### 29 ilin o üzündən boylanan xatirələr

Düz 29 ilin o üzündən danışıram, həyatımın 10 ilini əhatə edən Kəlbəcərli günlərimdən. Kəlbəcər, İstisu, Çaykənd, kəndimiz Sınıqkilsə (1992-ci ildə adı dəyişdirilərək Hacıkənd adlandırılıb), Qoç daş yaylağı, Murov dağı ilə bağlı o qədər hadisələr, yaşantılarım yaddaşımda baş qaldırır ki, hansından başlayıb, hansında bitirəcəyimi bilmirəm...

Doğma kəndim Sınıqkilsə saf bulaqlardan süzülən suların birləşərək yaratdığı zümzüməli çayın kənarında, dağların yamacında salınmışdı. Yunis dədəmgilin, Fərrux əmimgilin və bizim evimiz kəndin güneyindəki yamacda idi. Dəniz səviyyəsindən iki min metrə qədər hündürlükdə yerləşən kəndimiz başdan-başa meşəlik idi, amma yüksəkliyə, yaylaqlara qalxdıqca, sıx meşələr yerini tədricən uc-bucaqsız, gül-çiçəkli çəmənliklərə verirdi. Kəndi ortadan bölən çay, axarı boyu ona qoşulan kiçik çaylarla, şəlalələrlə birlikdə üzüaşağı sürür, yağış yağanda isə köpürüb metrlərlə qalxaraq yarğanlarda çırpına-çırpına özünü kəndin ətəyində açdığı uçuruma daha zərblə yuvarlayırdı...

Adətən, Kəlbəcərin yazını, yayını çox tərifləyirlər, amma bu məkanın zimistanı da bir başqa gözəl olur. Bu fəsildə ətrafda başqa rəng görə bilməzsən, yer də, göy də ağappaq bərq vuran örpəyə bürünür. Sıldırımlar üzərindən özünü aşağı atan şəlalələr bir andaca qıvrım heykəllərə, buzların ağzında yan-yana sıralanan mağaralar isə qəzəbli əjdahaya çevrilirlər...

Bu şaxtalı, sazaqlı fəslin mənim üçün isti mənzərəsi isə səhər tezdən ailəvi şəkildə məktəbə doğru yola düşməyimiz idi. Anam, atam müəllim, biz yeddi uşaq isə şagird kimi...

Atam qabaqda gedər, qarda yol açar, biz də - Dilarə, Natəvan, Hamlet, mən, Əfsanə, Jalə, Xəyyam onun izini addımbaaddım təqib edərdik...

Elə ki bu izdən bir addım kənara çıxardıq, bax əsl "macəra" onda olardı. Elə mən özüm də bu qar "macəra"sını az yaşamamış, boyumu aşan qarda kənardakılar məni dartıb çıxarana qədər batıb qalmışam...



4-cü sinfin yarısına qədər orta məktəbi kəndimizdə oxumuşam. Kənd məktəbi olsa da, əminliklə deyirəm ki, hərtərəfli təhsil verilirdi bizə... Məcburi köçkün olan zaman təhsil aldığımız məktəblərdə bilik səviyyəmiz heç də oradakı şagirdlərin bilik səviyyəsindən fərqlənmirdi. Lakin məktəbimizin binası çox köhnə idi. Buna görə də bizə yeni, daha böyük məktəb binası inşa edilirdi, divarları, arakəsmələri tamamilə tikilib qurtarılmışdı, hazırlaşılırdı ki, çardağı vurulsun... Bir sözlə, növbəti dərs illərində yeni məktəbə gedəcəkdik, lakin təəssüf ki, bunu görmək bizə nəsib olmadı...

Yalnız illərdən sonra kəndimizə qayıdanda həm köhnə, həm də yeni tikilən məktəbimizin erməni vəhşiliyi ilə üz-üzə qalaraq dağıdıldığını görmək kimi acı qismətim oldu. Təkcə bumu...

### Bura yenidən həyat qayıdır

...Artıq Ömər aşırımı xeyli geridə qalıb, yolun gah sağ, gah da sol tərəfində olan sıldırım qayaların altında oxuya-oxuya axan iti çayların müşayiəti ilə Kəlbəcərə yaxınlaşırıq... Qamışlı, Nadirxanlı, Qılınclı kəndləri bir-bir arxada qalır.

Yolboyu keçdiyimiz yaşayış məntəqələrinin hamısı erməni vəhşiliyinin, talanının izlərini daşıyır. Tənha kəndlərdəki qapısı, pəncərəsi, tavanı, çardağı olmayan yarıuçuq evlər adamın ürəyini ağrıdır. Elə bil ki, erməni vandallarının dağıtdığı, yalnız quruca divarlarına tutunub ayaqda qalmağa çalışan bu evlərin də səbri tükənib, daha dözümləri qalmayıb. Yamyaşıl mamır basmış divarları "ağlayır", hər gün daşlarının üstündən bir daş da qopub düşür. Küçələr, həyətlər, bağ-bağçalar hamısı bir-birinə qarışıb, bu yerlərdə insan ayağının açdığı bütün izlərin üstünü kol-kos, ot-ələf örtüb. İstər-istəməz ürəyindən üzünü həmin tənha kəndlərə tutub səsin, avazın gəldikcə o uçuq evlərin sakinlərini haraylamaq keçir...

Amma elə Kəlbəcər ərazisinə ilk qədəm qoyduğumuz andan etibarən bu sərt təbiətli yerlərdə Azərbaycan dövlətinin dünya miqyasında görünməmiş nəhəngликdə həyata keçirdiyi quruculuq işlərinin şahidi olduqda ürəyin dağa dönür. Təkcə Murovdağın altı ilə çəkilən 12 kilometrə yaxın uzunluğa malik tunel, bu bölgədə gerçəkləşdirilən şah əsər, möcüzənin özüdür desəm, heç bir pafosa, mübaliğəyə yer vermiş olmaram... Bu tunelin misilsiz mahiyyəti Ömər aşırımından keçən çətin yollarla Kəlbəcərə səfər edərkən daha aydın gözlər önünə sərilir. Kəlbəcərin digər bölgələrlə bağlantı quracağı daha asan, rahat gediş-gəlişə malik yolları olmalıdır ki, hazırda da bu istiqamətdə böyük işlər görülür.



Ümumiyyətlə, rayon ərazisi başdan-başa quruculuq meydanına çevrilib, yollar çəkilir, tunellər salınır, elektrik stansiyaları quraşdırılır... İşğal dövründə erməni vandallarının üstünü betonlayaraq qurutmağa çalışdığı Kəlbəcərin rəmzi olan İstisu yenidən pıqqapıqla çağlayır, dostlara sevinc, düşmənə qəhr verir...

Müzəffər Ali Baş Komandan İlham Əliyev mükəmməl hərbi taktikası ilə Kəlbəcəri bir güllə belə atılmadan, bir itki belə verilmədən azad etdiyi kimi, indi də bu qocaman yurda gözəl həyatı qaytarır. Bu gün Kəlbəcərin dağlarından qoyun sürülərini otaran çobanların tütək səsi gəlir, arıçılar öz ala-bəzək arı yeşiklərini onun ətirli çəmənlərində sıra ilə düzüblər, bu yurdun hər nöqtəsində tikinti-quruculuq işləri gedir. Ən ümdəsi, igid Azərbaycan əsgəri gecə-gündüz əldə silah Kəlbəcərin keşiyində ayıq-sayıq dayanır.

Bütün bu sadalananlar isə Kəlbəcər elinin öz yurd-yuvasına qovuşmasına və abad evlərində çıraqlarını yandırmasına çox az zaman qaldığının, Böyük qayıdışın ayaq səslərinin lap yaxından eşidildiyinin müjdəsini verir...

### Bu da ayrılığın sonuncu döngəsi...

...Kəlbəcər şəhərinə gedən yolun soluna, çayın üzərindəki körpünün üstü ilə Çaykənd kəndinə yönəlirik. Burada atamın yaxın dostu İmamverdi müəllimgilin, Maral mamamgilin (biz tərəfdə atanın bacısına "mama" deyə müraciət olunur) bir vaxtlar qonaq-qaralı olan evlərinə, daha doğrusu, dağıdılmış yurdlarına acı təəssüflə baxıram...

Daha sonra kəndin içi ilə üzü yoxuşa qalxan Sınıqkilsənin yoluna düşürük... Bir qərinəyə yaxındır ki, həyəcanla, səbirsizliklə gözlədiyim, yuxularımı ərşə çəkən məqama çatmağıma, doğma kəndimə qovuşmağıma, sadəcə, anlar qalıb. Bu da sonuncu döngə...

Xudavəndi-aləm sanki cənnətin qapısını açıb içəri daxil olursan. Kəndin girişindəcə Vətən torpaqlarımızın azadlığı uğrunda canlarını qurban verərək şəhidlik zirvəsinə ucalan Sınıqkilsənin mərd oğulları Mürşüd Məmmədov və Şəhriyar Həmzəyevin xatirə lövhəsinin yanında dayanıb matdım-matdım kəndə sarı baxıram...

Şükür sənə, Tanrım, illərlə çəkdiyimiz zülmə, zillətə, həsrətə, nisgilə bilmərrə son qoydun...

Mənim də taleyimə müqəddəs Qurban bayramı ərəfəsində Vətən qibləmi, Kəlbəcəri ziyarət etmək kimi ilahi bir lütf bəxş etdin...

Düzdür, çoxlarımızın nənə-babası, ata-anası doğma yurd həsrəti ilə bu dünyadan köçüb, amma biz övladlar Vətənə əbədi dönə, "Biz qayıtdıq, Vətən" - deyə bildik...



Bu müqəddəs qayıdışı bizə yaşatdığı üçün Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusunun hər bir əsgərinə, Vətən yolunda canından keçən qəhrəman şəhidlərimizə ömür boyu minnətdar olacağıq...

### Əzablarla, məhrumiyyətlərlə dolu ömür sınağımız

...Dizboyu qalxmış yamyaşıl otların arası ilə addımlayaraq kəndin idarə, klub, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi, dükan yerləşən hissəsinə çatıram. Kənddəki bütün yaşayış binaları kimi, sadaladığım tikililəri də erməni vəhşiləri dağıdıb virana qoyublar. Bağlarımızı qırıblar, yaşı əsrlərlə, hətta min illərlə ölçülən nəhəng ağaclarımızı kəsiblər...

Çayın kənarında, nisbətən alçaqda yerləşən ərazidə dayanıb qarşı yamaca, dünyaya göz açdığım evə tərəf baxıram...

Daha buradan o yana getməyə cəsarət etmirəm, çünki özümü bu görüşə hələ tam hazır hiss etmirəm, bir az toxtamalıyam...

Vaxt qazanmaq üçün çayın həzin səsinə qulaq verirəm, uşaq vaxtı qarış-qarış gəzdiyim, hər daşına, qayasına, yoluna, cığırına bələd olduğum kəndə yenidən göz gəzdirirəm, minlərlə gül-çiçəyin ətrini bu yamacdan o yamaca daşıyan ılıq meh üzümə vurur, yenə də məni ötənlərə qaytarır...

Evimizi tərk etdiyim o sonuncu gün gözlərimin qarşısında yenidən canlanır...

1993-cü ilin mart ayının axırları idi. Biz Novruz tətilindən sonra məktəbə getməyə hazırlaşırdıq. Atam Qənaət müəllim və böyük bacım Kəlbəcər şəhərinə məktəb bazarlığına getmişdilər və mən həvəslə yeni çantamı, ayaqqabımı gözləyirdim. Amma onlar bazarlıqdan çox təşvişlə qayıtmışdılar. Danışırdılar ki, ermənilər Kəlbəcəri raket atəşinə tutublar.



Üzərindən heç bir neçə gün keçməmiş, səhərə yaxın bayırdan gələn təlaşlı səs-küyə oyandım. Xəbər gəlmişdi ki, artıq ermənilər Kəlbəcərə yaxınlaşır, tez yığışıb kəndi tərk etmək lazımdır, yoxsa... Beləcə, bizim ailə də Kəlbəcəri tərk etməyə hazırlaşan kədərli köç karvanına qoşulmuşdu...

İşğal ərəfəsində düşmənin əsir götürdüyü kəlbəcərlilər arasında atamın 74 yaşlı əmisi Kazım Məmmədov da var idi. Üzərindən bir qədər vaxt keçəndən sonra Kazım əmi əsirlikdən qurtarılmışdı. Erməni əsirliyində ona elə işgəncə vermişdilər ki, ağlını itirmişdi. Çox qısa müddətə ağlı üstünə gələndə isə bizə deyirdi ki, onu əsirlikdən buraxmazdan az əvvəl qanına dizel yanacağı vurublar. Çox keçmədən bu günahsız qoca əzabla canını tapşırdı...

Köçkünlüyün taleyimizə yazıldığı 1993-cü ilin 2 aprel günündən sonra ömrümüzün ən ağır dönəminə qədəm qoyduq. Həyata sıfırdan başlamalı olan valideynlərimizin çəkdikləri əzab-əziyyəti sözlə ifadə etməkdə çətinlik çəkirəm. Bircə onu deyim ki, qaçqınlığımızın ilk illərində balalarının aclığı ilə də sınanmışdılar...

Biz məcburi köçkün uşaqlarının da öz sınağı var idi...

Hamımız bir-birimizə oxşayırdıq - talelərimizlə, nisgillərimizlə, gözlərimizdəki qəhər anı, aclıq, yoxluq, məskunlaşdığımız əşyasız vaqon, çadır, yataqxana evləri, geyindiyimiz yardım ayaqqabıları ilə...

Bir andaca ağırlıq çökmüşdü körpə çiyinlərimizə, biz heç uşaqlığımızı yaşamamışdıq, o yarıda qırılmışdı...

Eh, nə isə...

Daha bütün bunlar olub keçib. İndi gələcəyə baxmaq lazımdır. Qarabağda qazandığımız parlaq Zəfər torpaqlarımızın bütövlüyü ilə yanaşı, uşaqlığı yarımçıq qırılmış, taleyi ikiyə bölünmüş biz məcburi köçkünlərin də itirilmiş ümidlərinin yenidən qazanılmasına, həyatımızın bütövləşməsinə, mənəvi, ruhi dirilişimizə rəvac verib...

### Sinədəftər şairlərin, haqq aşıqlarının diyarı

...Dağ yollarında yeriməyi yadırğadığını düşündüyüm ayaqlarım ildırım sürəti ilə evimizə tərəf götürülür. Əmimgilin çəpərini keçərək qapılarına çatıram. Yadıma hardansa əmim oğlu Əjdərin toyu düşür, yəqin Kəlbəcərdə iştirak etdiyim son toy olduğu üçün...

Burnuma Bağdagül nənəmlə, Bulud mamamın həmin gün dəmlədiyi qaralı aşın, altında odundan gur ocaq çatılmış iri qazanlardan qalxan digər ləzzətli yeməklərin qoxusu gəlir... Qara zurnanın səsi kəndi başına götürmüşdü, üç gün sürən toy ərəfəsində bəzəkli maşınlarda kəndin yuxarısından gəlin gətirməyə getmişdik, oğlan evi qız evindən xoruz oğurlamışdı (bu, bir toy adəti idi), gəlinin başının üzərindən xırda pul, konfet tökmüşdülər, mən də o konfetlərdən, pullardan ətəyimə yığmışdım...

Toy mağarında "Ruhani" çalınmışdı, Duman mamam qollarını qaldıraraq bu mahnıya süzə-süzə oynamışdı, Yunis dədəm onun hər əlinə bir şax yüzlük basmışdı... Nüsrət əmim yeni yazdığı şeirlərini söyləmişdi, bəy təriflənmiş, saz aşıqları səhərə qədər dastan danışmış, deyişmişdilər...

Gül-çiçəyin arası ilə evimizə tərəf irəlilədikcə Qoç daş yaylağında keçirdiyimiz günlər canlanır hafizəmdə... Yaylaqda çoban tütəyinin səsi ilə ala-qaranlıqda oyanıb qoşulurduq təbiətin ahənginə... Sıldırım qayalara dırmaşır, Günəşin qürub çağı dağların başını al-qırmızı boyamasına tamaşa edirdik. Gecələr alaçıqların yanında məxmər kimi yumşaq otun üzərində uzanıb saatlarla zülmət qaranlığın bağrında bərq vuran ulduzlara baxır, elə bilirdik ki, əlimizi uzatsaq, ayı da, ulduzları da dərə biləcəyik. Kəlbəcərdə, bu yerlə göyün birləşdiyi möcüzəvi məkanda yaşam sürdürmək insanın ruhunu da saflaşdırırdı.

Ümumiyyətlə, Tanrının qüdrətdən var etdiyi Kəlbəcərdəki nəhəng dağların əzəmətinə, şiş qayalı sıldırımların heybətinə, Günəş şüalarına göz verib, işıq verməyən sıx meşələrin qüdrətinə, xalıdan əlvan çəmənlərin füsunkarlığına, yer altından qaynayan büllur bulaqların şəfasına, dumandan hörülmüş ağ örpəyinin əsrarəngizliyinə Yer üzünün heç bir yerində rast gəlmək namümkündür...

Bəlkə də ona görədir ki, bu əsrarəngiz diyarda dünyaya göz açanların hamısı heyrətdən dil açıb şair olurdu, sözlər yandırırdı dillərini, ağızlarını...

Sazı basırdılar sinələrinə, Dədə Şəmşir, Məmməd Aslan, Bəhmən Vətənoğlu, Sücaət olurdular...

Vəsf eyləyirdilər bu sıldırım qayalar üzərində səltənət quran məğrur qartallar diyarını...

### "Dilqəmi" susmaq bilmədi, elə hey yanıqlı-yanıqlı inlədi...

...Saz-söz demişkən, haradansa qulağıma sazda yanıqlı-yanıqlı çalınan "Dilqəmi" sədası, atamın ən çox sevdiyi saz havası gəlir. Ruhuma məlhəm kimi yayılan sazın səsinə, bu avazın məni doğrultduğu ünvana - dünyaya göz açıb, sadəcə, on il yaşaya bildiyim doğma evimizə yönəlirəm.

Öz-özümə danışıram, deyirəm ki, yox ey tox tutacam özümü, qəhərdən hönkür-hönkür ağlamayacam, qətiyyən ağlamaq olmaz, bu gün ancaq sevinmək lazımdır.



Düşünürəm ki, İlahi, görəsən, indi bu dünyada özünü məndən daha xoşbəxt hesab edən başqa bir kimsə varmı?!.

Axı bu gün itirdiyim bütün doğmalarımla qovuşma günümdür. Bu gün düz 29 illik ayrılıqdan sonra Kəlbəcərə gəldim, Sınıqkilsəni gördüm. İndi də növbə evimizdə məni gözləyən atamın boynuna sarılmaq, "gözün aydın ata, Kəlbəcərin azaddır" deməyindir...

Düz iki ildir ki, Kəlbəcərdəki evimizdə məni gözləyən atama bu müjdəni vermək üçün günləri iplə çəkirdim... Bəs atamla görüşə bildimmi? Yox...

Qapıda durub nə qədər çağırsam da, haraylasam da "hardasan, ay ata, çıx qapıya, qarşıla məni, gəlmişəm" - desəm də, səsimə səs verən olmadı...

Sonra isə... Kürəyimi evimizin yarıuçuq divarına söykəyib, elə mən də bu dağılmış divarın qoynunda qolu-qanadı sınmış daş heykələ çevrilərək sükuta qərq oldum... Bayaqdan bəri qulaqlarımda səslənən "Dilqəmi" isə susmaq bilmədi, elə hey yanıqlı-yanıqlı inlədi...

Mən Kəlbəcərə atamın gözləri ilə bələd, sözləri ilə aşina olmuş, onun aşıladığı məhəbbətlə sevmişdim. O, çox ümidlə, intizarla gözlədi Kəlbəcərə dönəcəyi günü, amma doğma yurdunun azadlığına cəmi bir neçə ay qalmış bu dünyayla vidalaşdı. Atamın yoxluğu ilə ötən bu müddət ərzində hər zaman düşünürdüm ki, o, Kəlbəcərdə, Sınıqkilsədəki evimizdədir.

Və bir gün ora gedəndə mütləq görüşəcəyik...

*Yanılmamışdım, elə də oldu və mən Kəlbəcərə gedəndə atamın özü ilə olmasa da, bizi orada səbirsizliklə gözləyən ruhu ilə görüşdüm. Yenə də birlikdə gəzdiyimiz dağlara qalxdıq, ləpirlərimizin qoşa iz saldığı cığırlarda birgə yürüdük, başımızın üstünə çətir tutmuş qocaman palıd ağacının altındakı Yunis dədəmin baldırğan ətirli bulağının kənarında oturduq. Kəlbəcər, atam və mənim ötüb keçən bu nisgilli həyat hekayəmizi isə gözlərindən qüssə yaşı süzülən bulaq pıçıldadı çiçəklərə, ağaclara, sulara, quşlara...*



*Gəldim şəlalənin gur saçın görüm,*
*Dağların başında gül tacın görüm.*
*Ömürdən,bahardan söz açın görüm,*
*Dərələr xoş gördük,düzən xoş gördük.*

**Yasəmən QƏNAƏTQIZI,**
**"Azərbaycan"**

*Bakı-Kəlbəcər-Bakı*

Bu barədə düşünək

# İradəsizlər, araqatanlar və qızışdıranlar

*İnsana həyatı yalnız uca Tanrı bəxş edir!*
*Tanrıdan başqa kimsə də insanı həyatdan məhrum edə bilməz!*
*Edərsə, bu, böyük günah sayılır.*

**Ən böyük günahlardan biri isə insanın özünə qəsd etməsidir!**

**Bütün müqəddəs kitablarda, o cümlədən "Qurani-Kərim"də bu, qadağan edilir, böyük qəbahət hesab olunur.**

Məhz bu məntiqlə dünya, xüsusən dünyanın sivil dövlətləri güllələnmə cəzasını ləğv edir, insanlara ölüm cəzasını ömürlük həbslə əvəzləyirlər!

*Təəssüflər olsun ki, həyatda insanların qətlə yetirilməsi hallarına, xüsusən özünüöldürmə faktlarına son zamanlar tez-tez təsadüf edirik.*

*Hər dəfə bu mövzuda eşitdiyimiz bəd xəbərlər bizi sarsıdır, ürəyimizi parçalayır, qəlbimizə qara qanlar axıdır.*

**Son dövrlərin ən ağır və sarsıdıcı xəbərləri isə müharibə qazilərinin özlərinə qəsd etmələri, hətta üstlərinə neft tökərək yandırmalarıdır!**

Bəzi qazilərimizdə "müharibə sindromlu" psixoloji problemin mövcudluğu kimsəyə sirr deyil!

Belə vəziyyətdən təkcə tibbi yardımlarla çıxmaq mümkün olmur...

Buna zaman, mühit, doğmaların və yaxınların dəstəyi də tələb olunur...

*Bəs cəmiyyət necə, kritik məqamda zəruri dəstəyi göstərməyə hazırdırmı?*

*Sosial şəbəkələrdəki yazışmalar bunun əksini, bəzilərinin hətta kömək əvəzinə, qəzəblənmiş insanı başqa səmtə yönləndirdiyini göstərir.*

Nəticədə özünəqəsd faciəsi baş verir!

Belə xəbər alanda bilmirsən nə edəsən, hadisəyə necə yanaşıb, necə qiymət verəsən, təqsiri kimdə görəsən, kimi günahlandırıb, kimi qınayasan...

ÇÜNKİ...

- Hər belə bir hadisədə bir vətənpərvər Azərbaycan gənci dünyadan köçür!
- Hər belə bir hadisədə bir qəhrəman əsgər, yaxud zabit itirmiş oluruq!
- Hər belə bir hadisədə torpaq uğrunda qan tökmüş igidimiz özünə qıyaraq ömrünü yarıda qırmış olur!
- Hər belə bir hadisədə mənfur düşmənimizi sevindirmiş oluruq!

*Hələ belə faciələrin başqa bir tərəfi də olur:*

- Müharibənin od-alovundan yaralı çıxsa da, geriyə qayıdan oğul yenicə sevinc hissi yaşayan anasının ürəyinə çalın-çarpaz, sağalmaz dağ çəkmiş olur;
- Həyatdan nakam köçərək yurdunu boş qoyur;
- Körpə balalarına əbədi yetimlik nəsib edir;
- Ömür-gün yoldaşını çətinliklər, ehtiyac burulğanında tək qoyaraq bəxtinə qara yazdırır;
- Doğmalarını, dostlarını, onu sevənlərini düşünmədən, nəzərə almadan əbədi tərk edir;
- Ən nəhayət, heç kəsin bəyənmədiyi, arzulamadığı qərar qəbul etməklə onu sevənlərə və istəyənlərə bir etinasızlıq göstərmiş olur...

**Axı insan dünyada tək yaşamır!**

**Axı insan gözünü ona dikənlərin həyatı, taleyi və gələcəyi üçün məsuliyyət daşıdığını da nəzərə almalıdır!**

**Axı insan son qərarını verəndə bu qərarın kimə hansı zərbə, ömürlük yara vuracağını da düşünməli, göz önünə gətirməlidir!**

*Əsgər, veteran, qazi sonacan, son nəfəsinəcən, son damla qanınacan çarpışmağı, məqsədə çatmaq uğrunda qətiyyətli mübarizə aparmağı bacarmalıdır!*

*Həm də onu sevənlərdən, ona dayaq durmağa daim hazır olanlardan kömək istəməli, dəstək almalıdır!*

Azərbaycan əsgəri, Azərbaycan zabiti heç zaman meydanı tərk etməli deyil, meydanda vuruşaraq qalib gəlməlidir!

Özünü doğmalardan, dostlardan, canı yananlardan təcrid etməli deyil, onlarla birlikdə olmalı, mənəvi dəstəklərindən istifadə etməli, haqqına çatmaqda kimdənsə kömək gözləməkdən və almaqdan çəkinməməlidir!

Bu, onun haqqıdır!

Bu köməyi onlara göstərmək hamımızın borcudur!

❖ ❖ ❖

**Daha bir təəssüf doğuran hal isə odur ki, ömrünün ən kritik məqamını yaşayan, həyatla ölüm arasında tərəddüd edən insanlara münasibətdə sosial şəbəkə iştirakçıları və bəzi internet saytları özləri də bilmədən və anlamadan təhrikçi mövqedə dayanırlar, onlara mənəvi dəstək, mənəvi güc vermək əvəzinə, daha çox araqatan, qızışdıran mövqe nümayiş etdirirlər!**

Daha doğrusu, çibana məlhəm olmaq əvəzinə, yaranın üstündən basırlar!

*Qəsdən, ya naşılıqdan - bunu söyləmək çətindir!*

Kimin hansı məmurdan, deputatdan xoşu gəlmirsə, qəzəb və nifrəti ona yönəltməyə çalışır!

Kimin hansı qurumdan narazılığı varsa, yaranan gərginlikdə onun adını hallandırmağa çalışır!

Əsas tənə, qınaq mənbəyi kimi isə rayonların icra hakimiyyəti başçıları götürülür.

*Bir QHT öz köməyini təklif edərək məsələnin həlli üçün qabağa düşmür!*

*Bir sayt özünə qəsd edəcəyini söyləyən qazini tapıb söhbət aparmır, incikliyinin səbəbini araşdıraraq həllində yardımçı olmur!*

*Sosial şəbəkədə isə kimin ağlı necə kəsir, məsələni necə qavrayırsa, leksikonuna uyğun şəkildə elə də "şərh" edir.*

*Nəticədə araqarışdıranlar, insanı qızışdıranlar qazinin alovlanmış qəzəbinə su yox, neft tökmüş olurlar!*

Kiminsə səhvi ucbatından yaranmış narazılığı və anlaşılmazlıqdan doğan qınağı dövlətə yönəltmiş olurlar!

*Qəsdən, ya bilməzlikdən - söyləmək çətindir!*

**Dövlət şəhid balasını, qazi övladını, əsgər və zabitlərini həmişə hörmətli tutub, qayğısına qalıb, problemlərini həll etməyə çalışıb və edib!**

**Dövlət başçısı cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva dəfələrlə şəhid ailələrində, hospitallarda olub, şəhid ailələri və qazilərin qayğıları ilə maraqlanıb, dəstək və kömək göstəriblər!**

**Azərbaycanda müalicəsi çətin olan yaralı əsgər və zabitlər qardaş Türkiyəyə göndərilərək sağlamlıqları bərpa olunub, ehtiyac duyulanlar ən müasir protezlərlə təmin edilib, adaptasiya prosesindən keçiblər.**

**Şəhid ailələrinə, qazilərə yeni mənzillər verilib, evlər tikilib, yaxud evləri təmir edilib, pulsuz minik maşınları ilə təmin olunub.**

**Xeyli müharibə iştirakçısı, qazi işlə təmin olunub, onlara müvafiq qaydada pensiya kəsilib.**

Sözün həqiqi mənasında, nə şəhid ailəsi, nə qazi, nə də köməyə ehtiyac duyan müharibə iştirakçısı yalqız qalıb, dövlətin hansısa qayğısından bəhrələnib.

Təbiidir ki, iş olan yerdə nöqsan da ola bilər.

Lakin dövlətin bu qədər qayğısı olduğu bir zamanda kiminsə diqqətsizliyini, yaxud edilən tələbin mümkünsüzlüyünü faciəyə çevirmək, kəmhövsələlik edərək özünə əl qaldırmaq, sağlamlığına və həyatına qıymaq nə dərəcədə doğrudur və ədalətlidir?!

Axı biz həyatda tək yaşamırıq!

Axı biz həyatda təkcə özümüz üçün yaşamırıq!

Axı həyata bir dəfə gəlirik və onu tərk edəndən sonra bir də geri dönə bilmirik!

*Mətbuat, sayt öz məsuliyyətini dərk etməlidir.*

*Sosial şəbəkə istifadəçiləri qızışdırıcı mövqedən, ara qarışdırmaqdan çəkinməlidir!*

*Çünki ortada insan həyatı var!*

*Çünki Azərbaycan xalqı və dövləti qarşısında müəyyən xidməti olan insan arzuedilməz addım ata bilər!*

**Gəlin, alışan qəzəblərə su səpək!**

**Gəlin, insanlara çətin anlarında dayaq durmağı bacaraq!**

**Gəlin, ədalətli və məsuliyyətli davranaq, dediklərimizin və etdiklərimizin nəticəsini əvvəlcədən görək!**

**Bəxtiyar SADIQOV**

# İqtisadi artım tempi proqnozlaşdırılandan yüksəkdir



**"İqtisadi müstəqillik əsas amillərdən biridir və burada da böyük nailiyyətlər var. Biz büdcəni təkcə neftin qiymətinin artırılması nəticəsində böyütməmişik. Yəni dürüstləşmə, eyni zamanda aparılan islahatlar nəticəsində mümkün olmuşdur. Çünki bəli, dünyada neftin qiyməti qalxıb, amma eyni zamanda dünyanın kapital bazarları çöküb, bunu da hər kəs bilməlidir".**

Bunu Prezident İlham Əliyev ilin altı ayının yekunlarına həsr olunan müşavirədə çıxışı zamanı deyib. Dövlət başçısı iqtisadi sahədə aparılan islahatların 6 ayda vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığılmasına imkan verdiyini açıqlayıb. Çünki şəffaflıq var, dürüstlük var, hesabatlılıq var.

İqtisadi inkişafdan söz açan Prezident bildirib ki, həm iqtisadi artım, həm də qeyri-neft iqtisadiyyatı üzrə yaxşı nəticələr var. İqtisadiyyat 6,2 faiz, qeyri-neft iqtisadiyyatı 9,6 faiz, ümumi sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi 11,5 faiz artıb.

Ekspertlər də belə mürəkkəb dövrdə Azərbaycanın iqtisadi artıma nail olduğunu və 2022-ci ilin 6 ayında bunu qoruyub saxladığını qeyd edirlər. Eyni zamanda ilin sonuna qədər artımların olacağı proqnozlaşdırılır. Qeyd edək ki, dünyada gedən siyasi proseslər fonunda neftin qiymətinin qalxması Azərbaycanın 2022-ci il dövlət büdcəsində nəzərdə tutulandan yüksək qiymətə satılması büdcəyə daxilolmaları artırıb. Bununla yanaşı, qeyri-neft sektorundan da gələn gəlirlərin artması büdcəyə yenidən baxılmasına, müəyyən sahələrə ayrılan vəsaitlərin həcminin artırılmasına imkan verib.

## İqtisadi artımda qeyri-neft sektorunun payı çoxalır

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin deputatı Vüqar Bayramov qəzetimizə açıqlamasında deyib ki, 2022-ci ilin birinci yarısının yekunları Azərbaycanın iqtisadi inkişafla bağlı hədəflərə nail olduğunu göstərir. Deputatın sözlərinə görə, Azərbaycanda iqtisadi artım tempi proznozlaşdırılandan daha yüksəkdir. Həm regionda, həm də qlobal olaraq iqtisadi inkişafla bağlı çətinliklər var. Dünya iqtisadiyyatında artım proqnozu 4,1 faizdən 2,9 faizə qədər enib. Avropa İttifaqında 2022-ci il üçün artım proqnozuna baxılaraq 4 faizdən 2,8 faizə qədər azaldılıb. Bütün bunların kontekstində Azərbaycan 2022-ci ilin birinci yarısında iqtisadi artım tempini qoruyub saxlamaqla yanaşı, həm də sürətli iqtisadi artıma nail olub.

Vüqar Bayramov deyir ki, Azərbaycan iqtisadiyyatındakı artımda qeyri-neft sektorunun payı kifayət qədər cəlbedicidir. Ümumi iqtisadiyyatda 6,2 faiz, qeyri-neft sektorunda isə 9,6 faiz artım müşahidə olunub. Eləcə də qeyri-neft sənayesində 11 faizdən çox artım var. Bu da nəticə etibarilə qeyri-neft sektorunun həm sənaye, həm də ümumi sektor baxımından iqtisadi artımda payının artması anlamına gəlir. Bu, Azərbaycanın fiskal gəlirlərində də öz əksini tapıb.

İqtisadçı bildirir ki, qeyri-neft sektorundan proznozlaşdırılandan 2 milyard manat daha çox vəsaitin dövlət büdcəsinə cəlb edilməsi mümkün olub. Həm iqtisadi, həm maliyyə, həm fiskal, həm də digər sektorlar üzrə proqnozlar yerinə yetirilib.

## İqtisadi islahatların dərinləşməsi hədəf olaraq qalır

Deputat hədəflərin proznozlaşdırılandan yüksək faizlə reallaşdığını vurğulayır ki, bu da ilin ikinci yarısı üçün iqtisadi artım baxımından yeni imkanlar deməkdir. Onun sözlərinə görə, 2022-ci il üçün əsas hədəf iqtisadi artım tempinin qorunub saxlanması idi. Bütün bunların fonunda Azərbaycan sürətli iqtisadi artıma malik olan ölkələrdəndir. Əməkhaqqı və pensiya artımları növbəti ilin əvvəllərində indeksasiya faizinin yüksəlməsinə gətirib çıxaracaq. İqtisadiyyatda əldə edilən hədəflər və uğurlar sosial təminatla bağlı daha çox layihələrin reallaşdırılmasına, bu istiqamətə daha çox vəsaitin ayrılmasına imkan yaradır. Çünki dürüstləşmədən sonra dövlət büdcəsinin xərclərində 3 milyard manata yaxın artım qeydə alındı. Həmin artımın strukturunda həm sosial məsələlər, həm də işğaldan azad olunmuş ərazilərin bərpasına ayrılan vəsaitin həcminə yenidən baxılmasına xüsusi diqqət çəkdi.

Vüqar Bayramov deyir ki, sosial xərclər 2022-ci il dövlət büdcəsi xərclərinin 46,5 faizini təşkil edəcək. Bu istiqamətə 14 milyard manatdan artıq vəsaitin ayrılması mümkün olacaq. Bütün bunlar isə növbəti 6 ayda iqtisadi artım tempinin qorunub saxlanması ilə yanaşı, sosial təminatın gücləndirilməsi ilə bağlı fəaliyyətlərin daha da genişləndirilməsinin müşahidə olunacağından xəbər verir. Növbəti dövr üçün də iqtisadi islahatların dərinləşməsi hədəf olaraq qalmaqdadır.

## 6 aylıq makroiqtisadi göstəricilər qənaətbəxşdir

İqtisadçı ekspert Eldəniz Əmirovun sözlərinə görə, yarım ildə ümumi daxili məhsul (ÜDM) təxminən 7 faizə qədər artıb. Eyni zamanda qeyri-neft sektorunda 10 faizdən artıq artım qeydə alınıb. Bu artımın sənaye üzrə göstəricisi 4 faiz, qeyri-neft sənayesi istehsalında isə 18 faizdir.

Ekspert vurğulayır ki, hazırda bu göstəricilər qənaətbəxşdir: "Cənab Prezidentin söylədiyi statistikada, həmçinin Beynəlxalq Valyuta Fondunun (BVF) nəinki bu il, hətta 2027-ci ilə qədərki dövrü əhatə edən proqnozlarında Azərbaycanda ÜDM-in səviyyəsinin hər il artacağı göstərilib. Sadəcə olaraq, burada mənfi situasiya xarici investisiya həcmlərinin azalması ilə bağlı məqamdır".

Eldəniz Əmirov deyir ki, BVF xarici investisiyanın bu il 3,4 faiz, 2027-ci ilə qədər isə 2,2 faizə qədər enməsini proqnozlaşdırır. Digər bir məsələ xarici dövlət borcumuzla bağlıdır. Bundan əvvəlki müşavirədə Prezident xarici dövlət borcunun ÜDM-ə nisbətdə təxminən 10 faizə qədər salınması ilə bağlı göstəriş vermişdi. Həmin vaxt bu göstərici 13,9 faizlik həcmdə idi. Hazırda 10 faizə qədər enmə müşahidə edilir. Bu, kifayət qədər uğurlu göstəricidir və bunu müəyyən qədər də aşağı salmaq ehtimalı var. Ekspert hesab edir ki, hazırkı göstərici yaxşıdır, bunun daha aşağı salınması isə yaxşı dividend verər. Onun sözlərinə görə, iqtisadi cəhətdən kiməsə borclu olmaq siyasi müstəqilliyə təsir edən amildir. Buna görə də iqtisadi müstəqillik siyasi müstəqilliyin əsasını təşkil edir. Bu baxımdan xarici dövlət borcunun azalması müsbət haldır.

Dünyanın ən inkişaf etmiş dövlətlərinin belə kifayət qədər xarici dövlət borcları var. Xarici dövlət borcunun olması və ölkə iqtisadiyyatının vəziyyəti birbaşa əlaqəli deyil. Məsələn, ABŞ, Yaponiyanın xarici borcu ÜDM-ə nisbətdə daha yuxarı səviyyədədir, amma göründüyü kimi, bu, ölkələrin iqtisadiyyatından asılı deyil. Sadəcə olaraq, xarici borcun olduğu təşkilat, ölkə, maliyyə qurumu borcdan dolayı müəyyən siyasi təsir manevrləri etməyə çalışırsa, onda bu istiqamətdə olan borcların bağlanması zəruridir.

## İqtisadi müstəqillik siyasi müstəqilliyin təməl daşıdır

Deyilənlər bir daha göstərir ki, Azərbaycan belə çətin dövrdə iqtisadi inkişafını təmin edə bilib. Bununla yanaşı, Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərin bərpasını heç bir xarici ölkədən dəstək almadan təkbaşına həyata keçirir. Bu istiqamətdə işlərini sürətlə davam etdirir.

Beynəlxalq qurumlar dünya iqtisadiyyatında böhranların qaçılmaz olduğunu bildirirlər. Bu vəziyyətə isə bütün dövlətlər kimi biz də hazır olmalıyıq. Prezidentin də qeyd etdiyi kimi, Azərbaycanda iqtisadi inkişaf, sosial məsələlərin həlli, ordu quruculuğu, Qarabağın bərpası, nəhəng infrastruktur layihələri, nəqliyyat, energetika layihələri, sabitlik, əmin-amanlıq var. Biz öz hesabımıza yaşayırıq. Görülən bütün işləri özümüz edirik. Bu da bizim iqtisadi asılılığımızı azaldır. Çünki iqtisadi müstəqillik siyasi müstəqilliyin təməl daşıdır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Sosial müdafiəyə ehtiyacı olan bir nəfər də dövlətin himayəsindən kənarda qalmır

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev iyulun 15-də, cari ilin 6 ayının yekunlarına həsr olunmuş müşavirədə siyasi, iqtisadi, hərbi sahələrdə olan vəziyyəti ətraflı təhlil etmiş, müvafiq dövlət qurumlarına lazımi tapşırıqlarını vermişdir. Müşavirədə xüsusi diqqət ayrılan məsələlərdən biri də sosial sahə olmuşdur.



Ümumiyyətlə, sosial sahədə aparılan islahatlar davamlı xarakter alıb. Əhalinin sosial müdafiəsini gücləndirməyi hədəfləyən üçüncü sosial islahat paketinin qəbul olunması bunun növbəti təsdiqidir. Həmin sənədin icrasından 3 milyon 400 min vətəndaş faydalanıb. O cümlədən 1 milyon 200 min şəxsin əməkhaqqına 1 milyard 100 milyon manat əlavə vəsait ayrılıb. Bununla minimum əməkhaqqı 20 faiz artırılaraq 300 manata çatdırılıb. Eyni zamanda bir çox sektorda çalışanların əməkhaqları ciddi şəkildə artıb. Sosial ödənişlər seqmenti isə 2 milyon 300 min vətəndaşı əhatə edib və minimum pensiya 240 manata yüksəlib. Görülən tədbirlər sayəsində orta pensiya 364, yaşa görə pensiya 395 manata çatıb. Paralel olaraq sosial müavinətlər 34, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri isə 26 faiz artırılıb.

Məlum olduğu kimi, bundan əvvəl də iki sosial islahat paketi çərçivəsində ciddi addımlar atılmışdır. Ümumiyyətlə, son 4 il ərzində icra olunan 3 sosial paketdən 4 milyon vətəndaş yararlanmışdır. Azərbaycan vətəndaşının minimum əməkhaqqı 3-4 il ərzində 300 manata çatmış, əməkhaqqı fondu 2,2 dəfə, əhali arasında gəlirlərin bölgüsündə ədalətlilik göstəricisi olan median əməkhaqqı 86 faiz artmışdır.

44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən sonra şəhid ailələrinə və müharibə əlillərinə göstərilən qayğıkeşlik və verilən maddi dəstək də Azərbaycan dövlətinin sosial siyasətinin göstəricisidir. Prezident İlham Əliyev bu barədə demişdir: "Müharibədən sonra bir çox şəhid ailələrinə və müharibə əlillərinə dövlət tərəfindən mənzillər verildi və hesab edirəm ki, bu il Bakı şəhərində bu məsələ artıq tam həll olunacaq. Keçən il 3 min mənzil və fərdi ev verilmişdir, bu il 1500 mənzil və ev verilir. Bütövlükdə Birinci və İkinci Qarabağ müharibələrinin şəhid ailələrinə və müharibə əlillərinə 12 min 500 mənzil verilib. Ermənistanda nə qədər verilib? Sıfır! Bir koma da verilməyib, bir daxma da verilməyib. Yəni, əlbəttə, biz Ermənistanla özümüzü heç cür müqayisə etmək istəmirik. Amma bu reallıqdır. İndi dünyada o qədər müharibələr olub - bizim bölgəmizdə, bizim coğrafiyaya yaxın olan yerlərdə, başqa yerlərdə. Hansı ölkə bunu edir? Mənə desinlər, mən eşitməmişəm. Ona görə etmirik ki, bununla öyünək, ona görə edirik ki, bunu mənəvi borc bilirik, edirik və edəcəyik. Bütün şəhid ailələri, hansılar ki, hələ növbədədir, yaxın gələcəkdə evlərlə təmin ediləcək".

Sitata əlavə edək ki, cari ildə bu kateqoriyadan olan 600 şəxsə mənzil təqdim olunub, planda isə 1500 mənzilin verilməsi nəzərdə tutulub. Növbəti iki ayda da 500 mənzil və fərdi evin verilməsi proqnozlaşdırılıb. Bununla cari ildə dövlət başçısının tapşırığına uyğun olaraq Bakı, Sumqayıt və Abşeron ərazisində yaşayan şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı yekunlaşacaq.

Bunlardan əlavə, postmüharibə dövründə sözügedən kateqoriyadan olan 100 min unikal fərdə 193 min xidmət göstərilib. Həmin xidmətlərin əsas istiqaməti müxtəlif sosial ödənişlərin verilməsidir. Yeri gəlmişkən, qeyd edək ki, ötən il sosial müavinət məbləği 60, cari ildə isə təqaüdlər 60 faiz artırılıb.

Müharibə əlillərinin normal həyata qayıdışı da diqqət mərkəzindədir. Bu məqsədlə 11 min müharibə əlili və müharibə veteranı sosial-psixoloji dəstək və reabilitasiya proqramlarına cəlb olunub. Onlara bu dövrdə 21 min reabilitasiya vasitəsi təqdim edilib. Ümumiyyətlə, indiyədək 200 nəfər Vətən müharibəsi əlili ən yüksək texnologiyalı dördüncü nəsil müasir protezlərlə təchiz olunub. Bundan əvvəl isə həmin kareqoriyadan olan 130 nəfər belə protezlərlə təmin edilmişdir.

Şəhid ailələrinin və qazilərin məşğulluğunun təmin edilməsinə də diqqət çoxdur. İndiyəcən həmin kateqoriyadan olan 8 min nəfər özünüməşğulluq proqramına cəlb olunub. Həmin şəxslər kiçik ailə təsərrüfatları quraraq özlərinə gəlir mənbəyi əldə ediblər. Bununla yanaşı, 4500 müharibə əlili və veteranı münasib işlə təmin olunub.

***Rüstəm KAMAL, "Azərbaycan"***



QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR
dirçəliş yolundadır



# QAYIDIRIQ!..



## Bu gündən Qarabağ və Şərqi Zəngəzura böyük Zəfərdən sonra ilk qayıdış başlayır

*Əvvəli 1-ci səh.*

Cocuq Mərcanlı erməni əsarətində qalan Qarabağ torpaqlarına aparan yolun başlanğıcı, Şuşaya, Ağdama, Zəngilana, Füzuliyə, Qubadlıya, Laçına, Kəlbəcərə və digər əsir torpaqlarımıza açılan ümid qapısı oldu. Elə kəndin girişindəki lövhələrdə əksini tapan "Cocuq Mərcanlıdan Şuşaya" lövhəsi də hər kəsi duyğulandırmaqla yanaşı, içimizdəki inam hissini getdikcə artırdı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Aprel döyüşlərindəki uğuru Vətən savaşında qələbəni təmin etdi, böyük Zəfərin təməl daşı oldu. 44 günlük Vətən müharibəsindəki qələbədən sonra Azərbaycan yalnız öz iqtisadi imkanları hesabına işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzuru yenidən qurmağa başladı. Çünki düşmən 30 il ərzində bu torpaqlarda daşı-daş üstündə qoymamış, əsl barbarlıq xislətlərini ortaya qoymuşdu. Bunu təkcə biz deyil, bütün dünya gördü.

İlham Əliyevin işğaldan azad edilən torpaqlarımızda reallaşdırdığı layihələr isə onu deməyə əsas yaratdı ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur dünyanın ecazkar məkanlarından birinə çevriləcək, oradan məcburi köçkün düşən soydaşlarımız da yurd-yuvalarına qayıdacaqlar. Böyükdən-kiçiyə hər kəs inanırdı ki, Qarabağı 44 günə düşməndən azad edən Ali Baş Komandan qısa zamanda bu torpaqlarda möcüzələr yaradacaq, Qarabağ, Şərqi Zəngəzur cənnətməkana çevriləcək və "Böyük qayıdış" konsepsiyasının icrasına başlanılacaq.

### İyulun 19-da 40-dan çox ailə Zəngilana qayıdacaq

Elə bu xoş müjdəni də xalqımıza Prezident İlham Əliyev verdi. Aprelin 12-də ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə Qarabağ və Şərqi Zəngəzurda görülən işləri dəyərləndirərkən Prezident bildirdi ki, Azərbaycanın heç kimdən maddi yardım almadan yalnız öz gücünə reallaşdırdığı möhtəşəm layihələr işğaldan azad edilən torpaqlarımızda tezliklə Böyük qayıdışı reallaşdıracaq. İlk olaraq isə Zəngilanın Ağalı kəndinin sakinləri bu sevinci yaşayacaqlar. Çünki ilk pilot layihə Ağalı kəndində həyata keçirilib. "Ağıllı kənd" layihəsinin ilk nümunəsi tezliklə yekunlaşacaq və bu il Ağalı kəndinin açılışı olacaq.

Qarabağı 44 günə "dəmir yumruq" əməliyyatı ilə azad edən Müzəffər Komandan İlham Əliyev 45 gün sonra, mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsinin açılışını etdi və bir daha xalqa xoş xəbər çatdırdı: "Bu gün Böyük qayıdış dediyimiz prosesə start verildi. Böyük qayıdışın birinci kiçik addımı, bax, bu gün atılır".

Bu, həqiqətən də, Azərbaycan xalqının şanlı Zəfərdən sonra gözlədiyi ən xoş xəbər idi. Çünki bu, soydaşlarımızın uzun illərdən bəri xəyal etdikləri günlərin reallığa çevrilməsidir. Bu gün hamıdan çox illərdən bəri əzablar içində köçkünlük həyatı yaşayanların üzü gülür, ürəyi açılır, sevincdən gözləri yaşarır. Artıq köçkünlər doğma ocaqlarına qayıdırlar. 29 ildən sonra ömürlərinin yeni mərhələsinə, ən gözəl çağlarına qədəm qoyacaqlar.

Bu gündən Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə başlanılır. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Beynəlxalq əməkdaşlıq, ictimaiyyət və mətbuat xidməti departamentinin direktoru İbrahim Mirzəyev bildirib ki, əhalinin ilk qrupunun Ağalıya köçürülməsi iyulun 19-u həyata keçiriləcək. Köçürmə prosesi 4 mərhələdə reallaşacaq. Birinci mərhələdə 40-dan çox ailənin Ağalıya köçürülməsi planlaşdırılıb. Onların yaş kateqoriyasına gəlincə, ortayaşlı sakinlər üstünlük təşkil edir. Sakinlərin məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən təmin ediləcək.

Ağalı kəndində reallaşdırılan layihənin icrası - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri - yəni 5 komponent üzrə aparılıb. İnşa edilən 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq. Bu il kənddə DOST Agentliyinin "Şərqi Zəngəzur və Qarabağ" proqramı çərçivəsində "Smart DOST" xidmət məntəqəsi də fəaliyyətə başlayacaq. Kənddə "Dost Aqropark" fəaliyyət göstərəcək. Ötən il Prezident layihənin təməlini qoyarkən məlumat verilmişdir ki, türk və azərbaycanlı sərmayədarlar tərəfindən həyata keçiriləcək "Dost Aqropark" layihəsi üç mərhələdə icra olunur. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Göründüyü kimi, artıq intizarla gözlədiyimiz "Böyük qayıdış" konsepsiyası gerçəkləşir. Tezliklə Zəngilanda həyat yenidən bərpa olunacaq, infrastruktur qurulacaq, iş yerləri açılacaq.

Müharibədən çıxmış ölkələrin təcrübəsinə nəzər saldıqda deyə bilərik ki, İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurda reallaşdırdığı layihələr, doğrudan da, ən genişmiqyaslı layihələrdir. Bu proqramın özəlliyi ondadır ki, bütün layihələr dövlət büdcəsindən ayrılmış vəsait əsasında və heç kimdən yardım alınmadan reallaşır.

### Misli görünməmiş quruculuq işləri

Bu gün böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri sürətlə davam etdirilir. Yeni avtomobil və dəmir yolları, hava limanları, körpülər, tunellər, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su-elektrik stansiyaları tikilir.

Artıq azad edilmiş elə bir ərazi yoxdur ki, orada bu və ya digər formada abadlıq-quruculuq işəri həyata keçirilməsin. İşğaldan azad edilmiş ərazilərdə 15 yol-nəqliyyat infrastrukturunun, digər kommunikasiya xətlərinin salınması, Füzuli Beynəlxalq aeroportunun qısa müddətdə tikilib istifadəyə verilməsi, digər iki - Zəngilan (bu il istifadəyə veriləcək) və Laçında (2024-cü ildə hazır olacaq) aeroportun tikintisinin davam etdirilməsi, elektrik yarımstansiyalarının istifadəyə verilməsi, su xətlərinin çəkilməsi, yaşayış məntəqələrinin yenidən qurulması və digər işlərin başlanılması, Zəngəzur dəhlizinin açılması istiqamətində reallaşan layihələr misli görünməmiş quruculuq işləridir desək, yanılmarıq.

Onu da əlavə edək ki, işlərin həyata keçirilməsi üçün bu il dövlət büdcəsindən ayrılan vəsaitin həcmi də artırılıb. İşğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən layihələrin icrası üçün büdcədən 5 milyard manata yaxın vəsaitin ayrılması Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir.

İyulun 15-də keçirilən müşavirədə Prezident bildirdi ki, növbəti ildə də Qarabağ və Şərqi Zəngəzurda reallaşacaq layihələr büdcədə əksini tapacaq: "Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı gələn ilin təklifləri yəqin ki, yaxın aylarda mənə təqdim ediləcək. İnfrastruktur, yaşayış binaları, kəndlərin qurulması - bütün bu layihələr gələn ilin büdcəsində olmalıdır. Çünki biz bu il infrastruktur layihələri ilə daha çox məşğul idik. Buna baxmayaraq, biz Şuşa şəhərində dövlət vəsaiti xətti ilə yaşayış kompleksinin tikintisinə də artıq başlamışıq. Ağdam şəhərində isə özəl sektor xətti ilə yaşayış binalarının tikintisinə başlamışıq. Ona görə dövlət büdcəsində bu məsələlər nəzərə alınmalıdır".

Göründüyü kimi, Qarabağ və Şərqi Zəngəzuru quruculuğun əsas meydanına çevirən İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə ən yüksək şəraitin yaradılması üçün bütün addımları atır. Tezliklə işlər sona çatacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar, Azərbaycanın həyatında, sözün əsl mənasında, yeni mərhələ başlayacaq.

**_Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"_**

# Qalib Azərbaycandır!

**Kəlbəcər zirvədir, ucalıqdır... Minillik, milyon illik qədim tarixə gedən yoldur... Babalarımız at belində keçib, igidlərimiz qılınclarının ucu ilə salıblar bu yolu. Kəlbəcər babalarımızın qədim tariximizin daş kitabələrinin yaddaşa yazdıqları saxlanc yeridir. Hər qarışı tarixdir bu yurdun.**

Qədim abidələr diyarıdır. Təəssüflər olsun ki, erməni vandalları 1993-cü ildə Kəlbəcəri işğal etdikdən sonra buradakı mədəni abidələrimizin əksəriyyətini dağıdıb izini silməyə çalışmışlar. Vəng kəndi ərazisində Alban məbədi, Çərəkdar kəndində Alban kilsəsi (Həsən Camal kilsəsi), Qanlıkənd ərazisində Lök qalası, Qaraçanlı kəndində Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Soyuqbulaq kəndində Tərtər çayı üzərindəki Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Aşıq Şəmşir adına Mədəniyyət Evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı...

Ermənilər Qarabağda işğal etdikləri ərazilərdə təkcə tarixi abidələri deyil, gözlərinə görünən nə varsa dağıdıb məhv edib, xarabazarlığa çeviriblər. Bircə istisna var idi. Düşmən Ermənistanı Qarabağla birləşdirmək, Kəlbəcər və digər ərazilərimizdə məskunlaşmaq üçün qədim Göyçə mahalının Basarkeçər (ermənilər "Vardanes" adlandırırlar) rayonundan Kəlbəcərə yol çəkmişdilər. Ermənilər bu yolla həm təbii sərvətlərimizi, oğurladıqları, söküb dağıtdıqları evlərin əşyalarını daşıyırdılar, həm də bir gün qaçacaqlarını bildikləri üçün Laçın dəhlizindən başqa, alternativ yola sahib olmaq idi niyyətləri.

### Ömər aşırımından keçən yol

Ordumuz 2020-ci il sentyabrın 27-də ermənilərin namərd hücumlarının qarşısını almaq məqsədi ilə əks-hücum əməliyyatına Kəlbəcərdə - Murovdağdan, Ömər aşırımından başladı. Müharibənin ilk günlərindən əsgərlərimiz düşmənə sarsıdıcı zərbə vurub Murovdağ zirvəsində illərlə məskən salıb istehkamlar tikdikləri strateji əhəmiyyətli yüksəklikləri işğaldan azad edib Basarkeçərdən çəkilən yolu nəzarətə götürdülər.

Təsadüfü deyil ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarına 2021-ci il avqustun 16-da ilk səfərləri zamanı yollarını rəşadətli Ordumuzun, qəhrəman əsgərlərimizin iz salıb qan tökdükləri Ömər aşırımından salıb Kəlbəcərin füsunkar mənzərəsini seyr etdilər.

Prezident İlham Əliyev bu zaman demişdi: "Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq. Amma hələlik biz bu yoldan istifadə edirik və bu gözəl mənzərələr də göz oxşayır. Kəlbəcərin mənzərələri indi daha da gözəldir. İndi yolumuza davam edirik. Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm.

Müharibədən sonra Kəlbəcərə ilk səfərimdir. Bir neçə tədbir nəzərdə tutulur. Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəkdir.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!"

### Kəlbəcərə ilk səfər yol salmaqla başladı

Yol salmaq, su çəkmək həmişə xeyirxahlıq sayılıb. İnsanlar bir yola çıxanda "Yolun uğurlu olsun", "Çıxdığın yol uğur gətirsin" kimi dualar edib ağsaqqallarımız, ağbirçəklərimiz. Ulu əcdadlarımızın at belində keçib getdikləri, iz saldıqları o sıldırım, keçilməz qayalıqlardan o torpaqlara müasir standartlara uyğun mühüm strateji əhəmiyyətə malik yol salınmaqla başlandı ilk səfər. Dövlət başçısı və birinci xanım səfərləri zamanı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq 11,6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etdilər.

Xatırladaq ki, Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Prezidentin tapşırığına əsasən, avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11,6 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilib.

### Qaranlıqdan aydınlığa

Artıq Qarabağda quruculuq-bərpa işləri sürətlə gedir. İnfrastruktur yenidən bərpa edilir. Ermənilər Qarabağa, Kəlbəcərə gələndən o yerlər qaranlığa qərq olmuşdu. Niyyəti, məqsədi, əməli qara olan ermənilər Qarabağın işığını da kəsmişdilər. Öncə işğaldan azad olunmuş torpaqlara işıq çəkildi... Ermənilər o yerlərin sahibi olmadıqlarını yaxşı bilirdilər. Əgər belə olmasaydı, ən azından Ermənistana rəhbərlik edən şəxslər bircə dəfə də olsun Kəlbəcərə, Cəbrayıla, Füzuliyə, Zəngilana səfər edərdilər. Bir plan qurub hər hansı bir layihəni gerçəkləşdirməyə çalışardılar. Etmədilər! Sahiblik hissi olmadığı üçün etmirdilər. Amma bu gün işğaldan azad olunmuş torpaqlarda bütün işlər Prezident İlham Əliyevin nəzarəti altında sürətlə aparılır. Torpağın əsl sahibi olduğunu qurmaqla, yaratmaqla, o torpaqlara həyat verməklə sübut edir. Ermənlərin qaranlığa qərq etdikləri Qarabağın ağ günləri başlayıb.

### Cənnətə dönən Qarabağ

Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edən dövlət başçısı Göygöl rayonunda, Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olub. Eyni zamanda Kəlbəcər rayonunda yeni tikilmiş "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışlarında iştirak edib, Kəlbəcər-Laçın avtomobil yolunun inşası və Laçın rayonunda 110 kV-luq "Qorçu" Elektrik Yarımstansiyasında aparılan işlərlə maraqlanıb.

Görülən işlər, planlaşdırılan layihələr deməyə əsas verir ki, yaxın zamanda Qarabağ cənnətin əsl ünvanı olacaq. Bu torpaqların təbii gözəllikləri, göz oxşayan mənzərəsi, təmiz havası, minbir dərdin dərmanı olan suları turistləri daha çox özünə çəkən məkan olacaq.

Səfər zamanı Kəbəcər şəhərinin baş planı ilə tanış olan dövlət başçısı Kəlbəcər İşğal və Zəfər Muzeyləri Kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, Kəlbəcər rayonunda su istehsalı zavodunun və ermənilərin dağıdaraq məhv etdikləri İstisu sanatoriyasının təməlini qoyub. Tikilməkdə olan "Çıraq-1" Kiçik Su-Elektrik Stansiyasına baş çəkərək görülən işlərlə tanış olub.

Xatırladaq ki, daha 5 yerdə də kiçik su-elektirik stansiyları inşa edilməkdədir. Bu da təbii ki, su ehtiyatlarından səmərəli istifadə etməklə yanaşı, işğaldan azad olunmuş ərazilərin enerjiyə olan tələbatlarının yerli təbii resurslar hesabına ödənilməsi deməkdir.

### Laçın yuvası

Dağların zirvəsində məskən salıb, təbii mənzərəsi, qəhrəman oğulları ilə ad çıxarmış Laçın rayonu bundan sonra dünyada beynəlxalq hava limanı ilə də tanınacaq.

Təməli 2021-ci il avqustun 17-də Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva tərəfindən qoyulan Laçın Beynəlxalq Hava Limanı azad edilən torpaqlarda inşa olunan sayca üçüncü limandır. Laçın rayonunun Ovçu kəndinin ərazisində tikilən hava limanı Laçın şəhərindən 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərindən isə 60 kilometrdən bir qədər artıq məsafədə yerləşir. Eyni zamanda buradan Şuşaya getmək üçün 70 kilometrdən çox məsafə qət etmək lazım olmayacaq. Gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq.

Bu hava limanının uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni 60 metr, perron sahəsi 50 min kvadratmetr olacaq. Terminalın sahəsi isə 5 min kvadratmetrdir. Hazırda aeroport ərazisinin hamarlaşdırılması işləri görülür. Dəniz səviyyəsindən ən hündürlükdə yerləşən hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Burada saatda 200 sərnişinə beynəlxalq standartlara uyğun xidmət göstərmək mümkün olacaq. Mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək.

Abadlıq-quruculuq işləri ilə yanaşı, Qarabağda müdafiə qüdrətimizi artırmaq sahəsində də təxirəsalınmaz tədbirlər görülür, yeni komando hərbi hissələri yaradılır. Ordumuzun texniki təchizatı daha da möhkəmləndirilir.

Biz ermənilərin 30 il gəldikləri yolu cəmi 44 günə qət etdik. Ermənilərin 30 il dağıdıb viran qoyduqları Qarabağı da çox qısa zamanda bərpa edib normal həyatına döndərəcəyimiz gün də uzaqda deyil. Qurduğu zəfər ordusu ilə Qarabağı düşmən işğalından azad edən Müzəffər Ali Baş Komandanın eyni inam və qətiyyətlə azad etdiyi torpaqlarda həyatı yenidən bərpa edəcəyinə zərrə qədər də şübhə yoxdur.

**_Elşən QƏNİYEV, "Azərbaycan"_**

# İşğaldan azad edilmiş ərazilərdə yeni məktəb binaları tikilir

"Vətən müharibəsində qazanılan Zəfərdən sonra erməni işğalından azad edilən ərazilərdə aparılan böyük quruculuq və bərpa işləri sırasında yeni məktəb binalarının tikintisinə də xüsusi önəm verilir".

Bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi Emin Hüseynov Şuşada IX Qlobal Bakı Forumu çərçivəsində keçirilən panel iclasda çıxışı zamanı deyib.

Hazırda Ağdam şəhərində 1 nömrəli məktəb üçün 960 şagird yerlik binanın tikintisi sürətlə davam etdirilir. Tikintinin sahə rəisi Samir Pirmətov deyir ki, məktəbin inşasına ötən ilin dekabrında başlanılıb. İki hektar ərazidə inşa edilən üçmərtəbəli məktəb binası üç blokdan ibarət olacaq. Məktəb binasında 40 sinif otağı, laboratoriya və fənn kabinetləri, akt və idman zalları, kitabxana, yeməkxana, muzey və xidməti otaqlar yaradılacaq. Bina istilik, elektrik, havalandırma və müşahidə sistemləri ilə təmin ediləcək. Məktəbin həyətində futbol və basketbol meydançaları, nasosxana, qazanxana, transformator binası, içməli və yanğından mühafizə su hovuzları inşa ediləcək. İşlər yüksək keyfiyyətlə və tikinti normalarına uyğun aparılır. Hazırda binanın zirzəmi hissəsində dəmir-konstruksiya, qəlib işləri görülür. Binanın inşasının bu ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev işğaldan azad olunmuş "Cəbrayıl şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən Cəbrayıl şəhərində 960 şagird yerlik akademik Mehdi Mehdizadə adına tam orta məktəbin layihələndirilməsi və inşası üçün Təhsil Nazirliyinə ilkin olaraq 500 min manat vəsait ayrılıb.

Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində 288 şagird yerlik tam orta məktəbin tikintisi başa çatmış və yeni dərs ilində istifadəyə veriləcəkdir.

Füzulidə 960 şagird yerlik tam orta məktəbin tikintisinin, Suqovuşan qəsəbəsində isə 144 şagird yerlik məktəbin əsaslı təmirinin layihə-smeta sənədləri hazırlanmışdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşanda olarkən qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binasındakı vəziyyətlə də maraqlanıblar. Məktəbin binası yüksək səviyyədə təmir olunacaqdır.

Bu barədə mətbuata açıqlama verən Tərtər Rayon Təhsil Şöbəsinin müdiri Nuranə Abdullazadə bildirib ki, Suqovuşan su anbarı vaxtilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilib. Torpaqlarımız işğaldan azad edildikdən sonra burada da tikinti-quruculuq işləri aparılır. Məktəbin əsaslı təmir ediləcəyi xəbəri rayonun təhsil işçilərini, ictimaiyyət nümayəndələrini və oradan məcburi köçkün düşmüş əhalini məmnun etdi. Ərazisi bir hektar olan məktəb 12 sinif otağından, 60 nəfərlik akt zalından və kitabxanadan ibarətdir. Məktəb özü dördmərtəbəlidir. Əsaslı təmir başa çatdıqdan sonra burada təhsil daha yüksək səviyyədə davam etdiriləcək.

**_Rəhman SALMANLI, "Azərbaycan"_**

# REGİONLAR



## Gəncədə II Milli Yaylaq Festivalına geniş hazırlıq işləri görülür

Məlum olduğu kimi, Gədəbəydən sonra II Milli Yaylaq Festivalı Gəncədə keçiriləcək. Bununla bağlı Gəncədən 22 kilometr məsafədə, Hacıkənd qəsəbəsinə yaxın ərazidə yerləşən əsrarəngiz Xan yaylağında geniş hazırlıq işlərinə başlanılmışdır.



Bu günlər şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov festivala hazırlığın vəziyyəti ilə tanış olmaq üçün əraziyə baş çəkmişdir. "Cavadxan" Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Həsənov görülən işlər barədə bildirmişdir ki, hazırda II Milli Yaylaq Festivalının keçiriləcəyi etno-qəsəbənin ərazisində yaşayış yurdları (alaçıqlar), Cıdır meydanı, "Yaylaq (k/t) bazarı", "Sənətkarlıq guşəsi", "Dədə Qorqud ocağı" (tamaşalar üçün səhnə), "Yaylaq yatağı" (k/t heyvanları üçün yerlər), "Pəhləvan meydanı" (yarış sahəsi), "Aşıq Ələsgər ocağı", "Yaylaq süfrəsi" (yaylaq kulinariyası) və digər tematik sahələr qurulur.

Qeyd edək ki, Gəncə Şəhər İcra Hakimiyyəti II Milli Yaylaq Festivalının rəsmi tərəfdaşlarından biridir. II Milli Yaylaq Festivalının iyulun 29-31-də keçirilməsi nəzərdə tutulur. Festivala yerli iştirakçılarla yanaşı, 22 xarici ölkədən 300-ə yaxın iştirakçının və fəxri qonaqların dəvəti planlaşdırılır.

*"Azərbaycan"*

## Babəkdə keçirilən əmək yarmarkasında 37 nəfər işlə təmin olunub

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası Babək rayonunda təşkil olunub.

AZƏRTAC xəbər verir ki, hərbi xidmətdən yeni tərxis olunmuş gənclərin də iştirak etdiyi əmək yarmarkasında işaxtaranlara ümumilikdə 62 müəssisədən 244 boş iş yeri təqdim edilib. Nəticədə 37 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 11 nəfərin özünüməşğulluq proqramına, 7 nəfərin isə peşə hazırlığı kurslarına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

Növbəti əmək yarmarkası Naxçıvan şəhərində keçiriləcək.

## Naftalan təkcə sanatoriyalar şəhəri deyil

Naftalanda fəaliyyət göstərən kurort-sanatoriya müəssisələri eyni vaxtda 3000-ə yaxın turist qəbul etmək imkanına malikdir. Son illər şəhərdə müasir tələblərə cavab verən 10-dan çox sağlamlıq mərkəzi istifadəyə verilmişdir.

Qeyd edək ki, müalicə müəssisələrinə gələn turistlərin sayında ən yüksək göstərici pandemiyadan əvvəl - 2019-cu ildə qeydə alınmışdır. Həmin il Naftalana 60 ölkədən 12 mindən çox, ümumilikdə isə 40 minə yaxın turist gəlmişdir. Təəssüf ki, pandemiya dövründə müalicə üçün şəhərə gələn turistlərin sayında azalma müşahidə olundu. Amma şəhər sakinləri ruhdan düşmədilər. Bilirdilər ki, bu çətinlik müvəqqətidir. Odur ki, şəhər infrastrukturunun yenilənməsi, yeni sağlamlıq-istirahət mərkəzlərinin yaradılması davam etdirildi.

Həyata keçirilən yenidənqurma və abadlıq işləri cari ildə daha geniş vüsət almışdır.







Turistlərin maraq dairəsinə cavab verən çoxsaylı işlər görülmüş, o cümlədən tikinti-quruculuq işləri geniş vüsət almış, infrastrukturun inkişafı, əhalini narahat edən problemlərin həllinə diqqət artırılmışdır. Bu sırada "Park Naftalan" və "Nur Naftalan" müalicə mərkəzlərinin tikintisinin başa çatdırılmasını, yeni idman zalının istifadəyə verilməsini, eləcə də şəhərin memarlıq görünüşünə xələl gətirən obyektlərin müasir memarlıq üslubunda yenidən qurulmasını və s. göstərmək olar.

Bunlarla yanaşı, əhalinin kommunal xidmətlərlə təmin olunmasına və sosial problemlərin həllinə də xüsusi diqqət yetirilmişdir. Şəhərin bütün parklarında limitsiz və sürətli optik Wi-Fi ötürücülər quraşdırılmış, bütün şəhər ərazisindəki yaşayış binalarına və massivlərinə optik internet xətti çəkilmişdir.

Dövlətimizin daim diqqət mərkəzində saxladığı şəhid ailələri və qazilər Naftalanda da qayğıkeşliklə əhatə olunmuşlar. Şəhər rəhbərliyi onlarla daim görüşlər keçirir, bu görüşlərdə qaldırılan məsələlərin həlli üçün tədbirlər görür. Təkcə son iki ildə bu kateqoriyadan olan vətəndaşlar üçün 12 yaşayış evi tikilmişdir. Cari il isə daha 20 yaşayış evinin tikilməsi nəzərdə tutulmuşdur.

Bütün bunların fonunda Naftalana gələn turistlərin sayı da artır. Yalnız ilin əvvəlindən ötən 6 ay ərzində şəhərə 7,5 mindən çox turist gəlmişdir ki, onlardan da 1700-ə yaxını xarici qonaqlardır. İlin sonunacan bu rəqəmin 20 mindən çox olacağı gözlənilir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Sabirabad kəndlisinin yay qayğıları

### Taxılın biçini yekunlaşır, pambığın becərilməsi davam edir, meyvə və bostanın tədarükü sürətlənir

Kürlə Arazın qovuşduğu ərazidə - Sabirabadda əkinçilik və heyvandarlıq əhalinin əsas məşğuliyyət sahəsidir və bu, təsadüfi deyil. Rayonda əhalinin 83 faizi, yaxud 151,2 min nəfəri kənd yerlərində yaşayır. Rayonun inzibati ərazisində 100 min hektardan artıq kənd təsərrüfatına yararlı torpaq sahəsi var ki, onun da 67 min hektarı suvarılandır. Elə bu səbəbdən torpaq sabirabadlıların əsas gəlir yeridir.



Cari il rayonda 67 min hektardan artıq, o cümlədən 21742 hektar sahədə buğda və arpa, 11559 hektarda pambıq, 7658 hektarda bostan-tərəvəz, 23672 hektarda yem bitkiləri və s. əkilmişdir. Hazırda taxıl biçini başa çatmaq üzrədir. Fermerlər cari ildə də yüksək məhsul əldə etməyə çalışırlar. Taxılın orta məhsuldarlığının 42 sentnerdən yuxarı olacağı proqnozlaşdırılıb. Biçinin optimal müddətdə başa çatdırılması üçün Sabirabad Dövlət Aqrar İnkişaf Mərkəzində qərargah yaradılmışdır. Aparılmış çoxsaylı maarifləndirmə tədbirləri hesabına taxılı biçilmiş sahələrdə yanğın hadisələri demək olar ki, qeydə alınmamışdır. Onu da qeyd edək ki, bu gün taxılçı fermerlərin qarşısında mühüm vəzifələr durur. Onlar dünyada baş verən ərzaq qıtlığı, xüsusilə ərzaq buğdasının çatışmazlığı ilə bağlı əkin sahəsinin həcmini və məhsuldarlığı artırmağa çalışırlar.

Son illər rayonda pambıqçılığın inkişafı istiqamətində də xeyli işlər görülmüşdür. Xatırladaq ki, Prezident İlham Əliyev pambıqçılığın inkişafı ilə bağlı ilk respublika müşavirəsini 2016-cı ilin aprelin 16-da Sabirabadda keçirmiş, ölkədə, o cümlədən Sabirabadda pambıqçılığın inkişafı üçün müvafiq tapşırıqlar vermiş və mühüm qərarlar qəbul etmişdir. Onlardan biri "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"dır.

Proqramda qarşıya qoyulan hədəflərə çatmaq üçün Sabirabadda da xeyli işlər görülmüşdür. Rayon ötən müddətdə xeyli sayda texnika, maşın və avadanlıqlar almış, texniki təminat məsələlərini dövlətin köməyi ilə yaxşılaşdırmış, pambıqçılığa münasibəti kökündən dəyişdirmişdir. Əgər 2015-ci ildə rayon üzrə 1633 hektarda pambıq əkilmiş və hər hektardan 11,3 sentner məhsul götürülmüşdüsə, 2022-ci ildə əkin sahələrinin həcmi 7 dəfə artaraq 11559 hektara çatmışdır. Ötən il hektardan məhsuldarlıq 30 sentner olmuşdur ki, bu da 2015-ci ildəkindən 2,6 dəfə çoxdur. Başqa misal: Sabirabadda bu gün 2755 kəndli-fermer ailəsi pambıqçılıqla məşğuldur. Əvvəlki illər isə onların sayı az qala barmaqla sayılası qədər idi. Bundan başqa, 2015-2016-cı illərdə rayonda pambıqçılıqla iki pambıq qəbulu müəssisəsi məşğul olurdu. Hazırda isə rayonda 7 pambıq qəbulu müəssisəsi var. Son illər rayonda "P-Aqro" MMC-nin Sabirabad fililaı yaradılmış, Qaratəpə kəndində "MKT İK" MMC-nin Sabirabad filialında ikinci pambıq qəbulu məntəqəsi fəaliyyətə başlamışdır. Üstəlik, Sarxanbəyli kəndində də yeni pambıq qəbulu məntəqəsi tikilir. Yeri gəlmişkən, xatırladaq ki, 2021-ci ildə rayon üzrə 27,4 min ton pambıq tədarük edilmiş və fermerlərin cəmi pul gəliri 20 milyon manatdan çox olmuşdur.

Sabirabadda hələ keçmiş SSRİ dövründə qabaqcıl pambıqçılar çox olmuşdur. Adlı-sanlı pambıq ustaları Fatma Hüseynova, Zəminə Aslanova, Narınc Kərimova, Çervon Azayeva, Mətanət Məmmədova və Zahid Bağırovun əldə etdikləri uğurlu nəticələr yüksək qiymətləndirilmişdir. Bu gün də ənənə davam edir. Pambıqçılıqda əldə etdikləri yüksək göstəricilərə görə birinci dərəcəli "Əmək" ordeni almış Əfras Əsgərov və Vaqif Abbasov əsl örnəyə çevrilmişlər. Ötən il 686 fermer hər hektardan 30-40, 305 fermer 40-50, 195 fermer 50 sentnerdən artıq məhsul götürmüşdür. Bunun bir səbəbi də pambığın 80 faizindən çoxunun maşınla toplanmasıdır.

Rayonun bütün kəndlərində bostan-tərəvəz də əkilir. Hazırda bostan məhsullarının tədarükü davam edir. Toplanan qarpız Bakı və digər şəhərlərə, eləcə də ölkə xaricinə göndərilir. Meyvəçiliyə gəldikdə, bu sahədə intensiv bağçılıq təsərrüfatlarına üstünlük verilir. Örtülü tərəvəz əkinçiliyi ildən-ilə artır. Paralel olaraq üzüm bağlarının həcmi genişləndirilir.

Sabirabad həm də böyük heyvandarlıq rayonudur. Təsərrüfatlarda 360 min başdan artıq davar və qaramal bəslənilir. Mal-qara arasında süni yolla buzov alınması ilə bağlı ən yaxşı göstərici də məhz Sabirabad rayonunda əldə edilir. Ötən il rayon üzrə 6920 baş, cari ilin altı ayında 3352 başdan artıq buzov süni yolla alınmışdır. Ümumiyyətlə, bu tədbirə başlanıldığı 2007-ci ildən indiyədək Sabirabadda 51 min başdan artıq buzov süni yolla doğulmuşdur. Səmərəsi isə statistikada görünür: cari təsərrüfat ilinin 6 ayında ilkin məlumatlara əsasən, 9285 ton ət, 60563 ton süd, 605 ton yun, 62,8 milyon ədəd yumurta istehsal olumuşdur ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə xeyli çoxdur.

Sonda onu da bildirək ki, rayonun ərazisində aqroparkların yaradılması istiqamətində işlər davam edir. Bu məqsədlə 11300 hektarda qış otlaq sahələrinin təyinatı dəyişdirilmiş və əkin kateqoriyasına keçirilmişdir. Ərazidə artıq əkinçilik istiqamətli bir neçə təsərrüfat formalaşmış və təsərrüfat işlərinə başlanılmışdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Sumqayıt Dövlət Universiteti ilə ÇXR-in Heksi Universiteti arasında müqavilə imzalanıb

Sumqayıt Dövlət Universiteti ilə Çin Xalq Respublikasının Heksi Universiteti arasında onlayn formatda əməkdaşlıq müqaviləsi imzalanıb.

Heksi Universitetinin rektoru Zanq Hani bildirib ki, rəhbərlik etdiyi təhsil müəssisəsi dünyanın sayılıb-seçilən universitetlərindəndir. Universitetin nüfuzlu təhsil ocaqları ilə geniş əlaqələri var.

Sumqayıt Dövlət Universitetinin rektoru Elxan Hüseynov çinli həmkarına onların təhsil ocağını seçdikləri üçün minnətdarlığını bildirib. Qeyd edilib ki, SDU beynəlxalq əlaqələrini günü-gündən genişləndirir, müəllim-tələbə mobilliyi istiqamətində mühüm uğurlu addımlar atır. E.Hüseynov bildirib ki, bu gün imzalanacaq müqavilə Çin ilə Azərbaycan arasındakı diplomatik əlaqələrin 30 illik tarixinə layiqli hədiyyədir.

Rektorların imzaladıqları əməkdaşlıq müqaviləsi çərçivəsində SDU-da "Konfutsi İnstitutu"nun (məktəbin) yaradılması da müzakirə edilib.

Konfutsi çinli filosof, müəllim və siyasətçi olub. O, həm də təkcə xronoloji baxımdan deyil, təhsilin və pedaqoji fikrin inkişafına verdiyi töhfələrin əhəmiyyətinə görə də Çinin ilk böyük pedaqoqudur. Məhz Konfutsinin sayəsində Çin müasir bəşər sivilizasiyasında qədim mədəniyyəti qoruyub saxlayan unikal ölkə kimi tanınır. Çinşünas alimlərin qənaətincə, Konfutsi təlimi Çinə tarixi və mədəni şüur bəxş edib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Ölkə üzrə 331,7 min hektardan çox sahədə yay şumu aparılıb

Bölgələrdə taxıl biçini başa çatmış sahələrdə yay şumunun aparılması davam edir. Son məlumata görə, ölkə üzrə 331719 hektar sahədə yay şumu aparılıb.

Yay şumu aparılan sahələr növbəti il üçün proqnozlaşdırılan taxıl əkini sahələrinin 35,2, biçin başa çatmış ərazilərin isə 41 faizini təşkil edir. Biçilmiş sahələrdə ən şox yay şumu Neftçala, Kürdəmir, Ucar, İsmayıllı, Bərdə və Şabran rayonlarında aparılıb.

Yay şumu davam edir.

## 50 sentner buğda, 39 sentnerdən çox arpa

### Tovuz taxılçıları bununla da kifayətlənmirlər

Tovuz taxılçıları bu il bol məhsul yetişdirmişlər. Hazırda taxıl biçininin uğurla başa çatdırılması üçün bütün qüvvələr səfərbərliyə alınmışdır.

Rayon icra hakimiyyətindən verilən məlumata görə, biçinin mütəşəkkil aparılması üçün yığım kampaniyası başlamamışdan əvvəl qərargah təşkil olunmuş, yanğın təhlükəsizliyi qaydalarına əməl edilməsi məqsədilə tövsiyələr paylanmışdır. Bundan başqa, biçin kampaniyası dövründə yarana biləcək hər hansı problemin vaxtında aradan qaldırılması üçün "qaynar xətt" yaradılmışdır. Həyata keçirilən bütün bu tədbirlərin nəticəsidir ki, Tovuz taxılçılarının biçin zamanı heç bir çətinliyi olmamışdır.

Bu il rayonda əkin sahələrinin həcmi xeyli artırılmışdır. Belə ki, keçən il 14000 hektarda taxıl əkilmişdisə, cari il bu rəqəm 16776 hektara çatdırılmışdır. Onun 13762 hektarı buğda, 3015 hektarı isə arpadır. Bu mövsüm rayon taxılçıları həm də ən yüksək məhsuldarlığa nail olmuşlar: buğda sahələrinin hər hektarından 50, arpa sahələrinin hər hektarından isə 39,1 sentner məhsul götürülmüşdür.

Rayonda taxıl istehsalında fərqlənən çoxlu sayda təsərrüfat var. Onlardan biri də "Tovuz AGRO" MMC-dir. Təsərrüfat bu il 5706 hektarda buğda, 1236 hektarda arpa əkmişdir. Hazırda zəmilərdə biçin yekunlaşmaq üzrədir. İndidən demək olar ki, məhsuldarlıq yüksəkdir.

Rayon rəhbərliyi, eləcə də biçinə aid olan qurumların nümayəndələri tez-tez zəmilərdə fermerlərlə görüşür, onların problem və təkliflərini dinləyib operativ tədbirlər görürlər. Təcrübə biçinə belə bir münasibətin ümumi işin xeyrinə olduğunu göstərir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Salyanın bostan sahələrində bol məhsul yetişib

Salyanda kənd təsərrüfatının əsas sahələrindən olan bostançılıqda bu il uğurlu nəticələr əldə olunub. Dövlət tərəfindən kənd təsərrüfatı sahəsinə göstərilən diqqət və qayğı, o cümlədən subsidiya və güzəştlərdən yararlanan fermerlər bol məhsul tədarük ediblər və hazırda yığım davam edir.

Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, Salyanda 2022-ci ilin məhsulu üçün 991 hektar sahədə bostan bitkiləri becərilib. Hazırda məhsul yığımı davam edir və sahələrdən 1898,2 ton məhsul toplanılıb. Bu da keçən ilin eyni dövrü ilə müqayisədə 232,7 ton və ya 14 faiz çoxdur.

# Bakı Yay Enerji Məktəbinin açılışı olub




ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun (IDD), Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR), "BP Azerbaijan", "Kolin", "Masdar" və "TotalEnergies" şirkətlərinin birgə təşkilatçılığı ilə 16-cı Bakı Yay Enerji Məktəbinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev Bakı Yay Enerji Məktəbinin 2007-ci ildən etibarən hər il keçirildiyini xatırladıb. Rektor bildirib ki, builki yay məktəbi çərçivəsində əsas diqqət bərpaolunan enerji mənbələrinə yönəldiləcək. Bu tədbir xarici iştirakçıların Azərbaycanın enerji siyasəti barədə daha çox məlumat əldə etməsi üçün bir imkandır.

Qeyd edək ki, Bakı Yay Enerji Məktəbi Xəzər bölgəsinə xüsusi diqqət yetirməklə enerji və ekologiya məsələlərinin araşdırılması və daha dəqiq tədqiq edilməsi üçün dünyanın tanınmış alimlərini, siyasətçi və mütəxəssislərini bir araya gətirən və ənənəvi olaraq keçirilən ikihəftəlik sertifikat proqramıdır.

Proqram çərçivəsində iştirakçılara həm enerji, həm də ətraf mühitlə bağlı geniş məlumat təqdim olunub. Bunlar enerji iqtisadiyyatı, enerji hüququ, təbii sərvət gəlirlərinin idarə edilməsi, bərpaolunan mənbələr, davamlılıq, iqlim dəyişikliyi və enerji geosiyasəti daxil olmaqla geniş mövzuları əhatə edir. Bakı Yay Enerji Məktəbinin müəllim və məruzəçiləri akademiya, dövlət və özəl sektorun aparıcı yerli və beynəlxalq ekspertləridir.

Builki Bakı Yay Enerji Məktəbinə 13 ölkəni təmsil edən 43 iştirakçı seçilib. Proqramda enerji şirkətlərinin kiçik və orta mütəxəssisləri, müxtəlif dövlət qurumlarının, səfirliklərin və beynəlxalq təşkilatların nümayəndələri və dövlət qulluqçuları, habelə enerji və ətraf mühit məsələlərini araşdıran alim, jurnalist və aspirantlar iştirak edirlər.

Proqramı bitirən iştirakçılara ADA Universitetinin rektoru və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti tərəfindən imzalanmış sertifikatlar təqdim olunacaq.

# "Ceyranları qoruyaq!" adlı növbəti ekoloji yay düşərgəsi keçirilib

İyulun 13-15-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilən "Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə reintroduksiyası" proqramının gənclərin maarifləndirilməsi və inkişafı istiqaməti üzrə "Ceyranları qoruyaq!" adlı növbəti ekoloji yay düşərgəsi keçirilib.










AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və Ümumdünya Təbiəti Mühafizəsi Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı, Qax Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən düşərgəyə Qax rayonundan 60-a yaxın məktəbli qoşulub.

"Ceyranları qoruyaq!" adlı ekoloji yay düşərgəsinin əsas məqsədi ceyranların reintroduksiya edildiyi ərazilərdə, o cümlədən onların məskunlaşdığı təbii areallara yaxın yerlərdə yaşayan gənc nəsli maarifləndirməkdir.

Düşərgə zamanı məktəblilər ceyranların həyat tərzi, ölkəmizdə məskunlaşma tarixi, yayıldığı ərazilər və təbiətdəki rolu, nadir canlı növünün populyasiyasının bərpası üzrə görülən işlər və uğurlar haqda təqdimat, təlim və ekskursiyalarda iştirak edib, o cümlədən müxtəlif ekoloji müsabiqələrə və ətraf mühitlə bağlı əyləncəli bilik yarışmalarına qoşulublar. Uşaqlara təbiətdə komandalararası ekoloji oyunlar, fauna növlərimizin ayaq izləri əsasında təyin edilməsi üzrə çalışmalar keçirilib, təbiət ərazilərində təhlükəsizlik qaydaları izah edilib. Sonda iştirakçılara sertifikatlar və xatirə hədiyyələri təqdim edilib.

"Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə qaytarılması" proqramı 2010-cu ildə Heydər Əliyev Fondu tərəfindən başlanılıb və hazırda IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF Azərbaycan nümayəndəliyinin birgə əməkdaşlığı çərçivəsində uğurla icra olunmaqdadır. Bu illər ərzində 150 başdan artıq ceyran Şirvan Milli Parkından Azərbaycan və Gürcüstandakı tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya edilib, onların daimi monitorinqi və mühafizə işləri həyata keçirilməkdədir. Proqram ceyranların sayının artırılması və mühafizəsinə yönəlsə də, onun əsas istiqamətlərindən biri ictimaiyyət arasında maarifləndirmənin artırılmasıdır. Bu məqsədlə məktəblilər üçün təşkil edilən bu cür yay düşərgələri mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, uğurlu işlərin nəticəsi olaraq, hazırda Azərbaycan Respublikasında ceyran populyasiyasının sayının 7 min başa qədər olduğu müəyyən edilib.

# "Azərxalça" ASC-də ilk dəfə ipək xalçalar toxunur









Azərbaycan xalqının tarixi, milli-mənəvi yaddaşı həm də onun xalçalarında yaşayır. Hər xalçaçı öz duyğularını, düşüncələrini, arzularını, xəyallarını ilmə-ilmə toxuyur. Ancaq hər bir xalça yalnız onu toxuyanın daxili aləmini əks etdirmir, eyni zamanda ustalarından öyrənib mənimsədiyi, nəsildən-nəslə keçən ənənələri yaşadır və inkişaf etdirir. "Azərxalça" ASC-nin İsmayıllı filialında olarkən bir daha buna əmin olduq.

"Azərxalça" ASC-nin iyulun 16-da İsmayıllı filialına təşkil etdiyi mediaturda iştirakçılar yeniliklərlə tanış oldular, xalça istehsalı prosesini izlədilər. Yeniliklərdən biri budur ki, "Azərxalça" ASC ilk dəfə olaraq ipək xalçalar toxumağa başlayıb. "Azərxalça" ASC-nin mətbuat katibi Xatuna Abdullayeva ipək xalçaların boyanması və hazırlanması prosesinin bütövlükdə Azərbaycanda təşkil edildiyini diqqətə çatdırıb: "Biz ipək sapları "Azəripək"dən əldə edirik, onların təbii boyalarla boyanması isə "Azərxalça" ASC-nin müəssisələrində baş verir".

Qeyd edildi ki, ipək xalçalar hazırda 5 emalatxanada toxunulur və yaxın zamanlarda bu növ xalçaların digər filiallarda da toxunması təşkil ediləcək. Yerli və xarici alıcıların istəklərini nəzərə alaraq istehsalatın həcminin artırılması da nəzərdə tutulub.

Məlumat verilib ki, ipək xalçalar xarici turistlərin və yerli alıcıların istəyi nəzərə alınaraq İsmayıllı, Kürdəmir, Nardaran, Qəbələ və Bakıda toxunur. Bunun üçün xammal "Azərbaycan Sənaye Korporasiyası" ASC-yə məxsus "Azəripək" MMC-dən əldə olunur. İstehsal zamanı xüsusi üsullardan və təbii boyalardan istifadə edilir.

"Azərxalça" ASC-nin mətbuat katibi Azərbaycan xalçalarını beynəlxalq arenada tanıtmaq məqsədilə satış nöqtələrinin sayının artırıldığını açıqlayıb. Bu yaxınlarda Bruneydə məşhur ticarət mərkəzlərindən birində bir satış nöqtəsi açıldığını, Avstraliyada isə onlayn satışın fəaliyyətə başladığını qeyd edib. Ölkəmizdə isə İçərişəhərdə "Azərxalça" ASC-nin nümayiş və satış məntəqəsi var ki, alıcılar geniş çeşidlə tanış ola bilərlər.

Emalatxananın direktoru Dilşad Hüseynova hazırda müəssisədə ilk olaraq 55x55 və 55x60 ölçülərində iki xalça toxunduğunu nəzərə çatdırıb. Emalatxanada ən çox Şirvan bölgəsinin çeşniləri əsasında xalçalar toxunduğunu, lakin 44 günlük müharibədə qazandığımız qələbədən sonra Qarabağ xalçalarına da üstünlük verildiyini qeyd edib.

"Azərxalça" ASC-nin istehsalat direktoru Əlisəfa Nuriyev ipək xalçaların toxunma prosesindən söz açaraq, texnologiya eyni olsa da ipək xalçanın ərsəyə gəlməsinin fərqli olduğunu diqqətə çatdırıb. O, yun xalçadan fərqli olaraq ipək saplarla toxunan xalçalara sərf olunan əməyin zaman etibarilə daha çox olduğunu vurğulayıb. Bildirib ki, xammalın sürüşkən olması və kəsik sıxlığı böyükdür ki, bu da tez-tez alətlərin itilənməsini tələb edir. Xammalın maliyyə dəyərinin fərqli olması satış qiymətinə təsir edir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Ötən altı ay ərzində 3 ton 418 kiloqramdan çox narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb

## Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində 5 min 778 cinayət faktı aşkarlanıb

Bu ilin yanvar-iyun ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupundan AZƏRTAC-a bildiriblər ki, hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 5 min 778 cinayət faktı aşkarlanıb. Onlardan 2053-ü narkotik vasitələrin qanunsuz satışı, 3463-ü narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 206-sı qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 56-sı isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 3 ton 418 kiloqram 320,92 qram və 24 min 650 həb narkotik vasitələrin və psixotrop maddələrin 1 ton 497 kiloqram 266,592 qramını heroin, 1 ton 028 kiloqram 428 min 674 qramını marixuana, 198 kiloqram 89 min 61 qramını tiryək, 20 kiloqram 547 min 544 qramını həşiş, 199 qramını kokain, 115 kiloqram 821 min 557 qramını digər narkotik vasitələr və 557 kiloqram 968 min 492 qram psixotrop maddələr təşkil edib. Həmçinin göstərilən dövrdə 1 kiloqram 485,4 qram güclü təsir edən maddə, 10 kiloqram 37,6 qram zəhərli maddə, 56 min 958 ədəd narkotik xassəli çətənə bitkiləri qanunsuz dövriyyədən götürülüb.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 4091 nəfər cəlb edilib ki, onlardan 16-18 yaşadək 7 nəfər, 18-25 yaşadək 306 nəfər, 26-29 yaşadək 710 nəfər, 30 yaş və ondan yuxarı isə 3068 nəfər təşkil edir. Həmin şəxslərdən 3980-i kişi, 111-i qadın olub. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 54 nəfəri xarici ölkə vətəndaşıdır.

Məsuliyyətə cəlb edilmiş 54 xarici ölkə vətəndaşından 22-si İran, 7-si Gürcüstan, 8-i Türkiyə, 1-i Türkmənistan, 1-i Qırğızıstan, 1-i Pakistan, 1-i Ukrayna və 13-ü Rusiya vətəndaşı olub. Xarici ölkə vətəndaşlarından ümumilikdə 936 kiloqram 422 min 285 qram və 4078 həb müxtəlif növ narkotik vasitə və psixotrop maddələr, habelə 16 min 759 ədəd narkotik tərkibli çətənə bitkisi götürülüb.

Cari ilin altı ayında hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 134 fakt aşkar edilib. Həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 1 ton 704 kiloqram 776,032 qram və 2048 ədəd kapsul müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr çıxarılıb.

Ümumilikdə aşkarlanmış cinayətlərin 166-sı qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 1 ton 073 kiloqram 648,3 qram və 7558 həb narkotik vasitələr və psixotrop maddələr müsadirə edilib. 1461 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 365 kiloqram 983,5 qram müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr müsadirə edilib.

Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 486 min 707 hektar sahədən çəkisi 115 ton 570 kiloqram olan 244 min 445 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupunun təşkilatçılığı ilə bu il mayın 5-6-da məhkəmələrin qərarları ilə müsadirə olunmuş 2 ton 402 kiloqram müxtəlif növ narkotik vasitə, psixotrop maddə və onların prekursorlarının məhv edilməsi prosesi həyata keçirilib.

Təhlil göstərir ki, 2021-ci ilin birinci yarımilliyi ilə müqayisədə cari ilin müvafiq dövründə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkarlanan faktların ümumi sayı 1647, o cümlədən qanunsuz satış ilə bağlı faktların sayı 560, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 1072, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 15 fakt, qaçaqmalçılıq faktlarının sayı 27 fakt artıb, bu kateqoriyadan olan digər cinayətlərin sayı sabit qalıb.

Həmçinin qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 48 kiloqram 275 min 552 qram, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 1739 nəfər, qadınların sayı isə 43 nəfər artıb, qrup halında törədilmiş cinayətlərin sayı isə 15 fakt azalıb.

Daxili İşlər Nazirliyi tərəfindən cari ilin yanvar-iyun ayları ərzində bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 41 min 576 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 1694 nəfərindən 1224-nün istifadəçi olması müəyyən olunub və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

Hesabat dövründə 2947 nəfər stasionar müalicədə olub. Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə 942 xəstə müalicə alır.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, 2020-ci il dekabrın 31-nə respublika üzrə narkomanlıq diaqnozu ilə qeydiyyatda olanların sayı 34 min 602 nəfər təşkil edib. Həmin şəxslərdən 27 min 106 nəfəri dispanser, 7496 nəfəri profilaktik qeydiyyatında olanlardır. Onlardan 556 nəfəri qadındır. 24 min 850 nəfər opioid qrupuna aid narkotik istifadəçiləri, 9752 nəfər kannabinoid qrupuna aid narkotik istifadəçiləridir. 2021-ci ildə müvafiq diaqnozla 5603 nəfər qeydiyyata götürülüb, 4789 nəfər isə qeydiyyatdan çıxarılıb.

Hazırda cəzaçəkmə müəssisələrində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cəza çəkən məhkumların sayı 7056 nəfər təşkil edir. Eyni zamanda istintaq təcridxanalarında saxlanılan (istintaq altında olanlar) narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə həbs olunmuş şəxslərin sayı 2700 nəfər, narkomaniyadan məcburi müalicə təyin edilmiş məhkumların sayı 4662 nəfərdir.

Azərbaycanda 44 nəfər İnsan immun çatışmazlığı virusuna (İİV) yoluxub. Ümumilikdə 1988-ci ildən Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzində İİV diaqnozu təsdiq olunmuş 9485-i Azərbaycan vətəndaşı, 321-i əcnəbi olmaqla 9806 nəfər qeydiyyata götürülüb. İİV-ə yoluxanların 6998-i kişi, 2808-i qadındır. Onlardan 3531-i İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində baş verib. Həmin kateqoriyadan olan şəxslərin 2482 nəfəri hazırda dispanser qeydiyyatındadır.

2022-ci ilin altı ayı ərzində antiretrovirus terapiyasına (ART) cəlb olunan 339 pasiyentdən 31 nəfəri inyeksion narkotik istifadəçisi olub. 2021-ci ilin iyunun 31-nə isə ART-yə cəlb olunmuş İİV-li xəstələrin ümumi sayı 6755 nəfər təşkil edib ki, onların da 2301 nəfəri inyeksion narkotik istifadəçisidir.

Cari ilin yanvar-iyun aylarında 802 - qaynar xətt telefon zəng xidmətinə 1003 vətəndaş müraciəti daxil olub. Onların 122-ni narkotik vasitələrin qanunsuz dövriyyəsi, 414-nü narkotik asılılıqdan müalicə, 467-ni isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 536 məktub ünvanlanıb.

Belə ki, 802 - qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb. Qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 21 oktyabr (bazar ertəsi) tarixli XVIII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası


آذربایجان

# AZƏRBAYCAN

Düşənbə, 14 məhərrəmülhəram sənə 1337. 21 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Şəhərdəki mağaza və dükan və bilümum [ümumən] lövhə bulunan məhəllərdə qırmızı lövhə üzərinə bəyaz yazı ilə türkcə olaraq yazılacaqdır. (Lövhənin yuxarısında türkcə olmaq üzərə aşağısına da rusca yazıla bilər.) Bu xüsus bu on beş gün zərfində xitam bulmuş olacaqdır.

*Mərkəz Komandanlığı*

## ELAN

Edadi məktəblərin əlifba; birinci, ikinci şöbələri və sinifləri milliləşib ibtidai və ali-ibtidai məktəblərdən bu şöbə və siniflərə imtahan verərək mütəallimlər [şagirdlər] qəbul olunacaq. Binaileyh, Azərbaycanda yaşayan müsəlman əhalisinə ixtar olunur ki, edadi məktəblərin milli şöbə və siniflərinə imtahan vermək arzusunda olanlar, həmin oktyabr ayının iyirmisinədək edadi məktəblərin müdirləri namına [adına] şu barədə ərzihal versinlər.

*Maarif naziri:*
*Yusifbəyli Nəsib bəy*

## BAKI FÜQƏRASINA ELAN

Ucardan Bakıya bir min put, iki qism buğda unu gətirmişəm. Birinci qisminin putu füqəra camaatı üçün yüz iyirmi manat, ikinci qisminin putu yüz manatdır. Həmişə bu qərar üzrə Bakıya un gətirilməsinə çalışacağam. Xahiş edənlər Bazarnı küçədə Hacı İsrafil Aydəmirovun evinin yanında, Tağı bəy Səfərəliyevin evinin müqabilində, Hacıbaba Ağababayevin 111-ci nömrəli evində vaqe dükana müraciət eyləsinlər. Səhər saat 7-dən axşam saat 7-yədək.

Telefon nömrəsi: dükan üçün 68-24; kantor üçün: 23-35.

*Ticarət və neft "İşıq" cəmiyyətinin rəisi*
*Mustafa bəy Əlibəyli*
*212*

Türk dilində ərizə yazdırmaq xahişində olanlar hər gün axşam saat 4-dən 6-ya qədər Starı poçtovı küçədə Rzayevin 57 nömrəli mənzilinə müraciət edə bilərlər. Ərizələr artıq savada malik olan şəxs tərəfindən yazılır.

Müsəlman diş təbibəsi Ayna xanım Malakan bağının qarşısında Zeylidsonun kabinəsində hər gün xəstə qəbul və hər növ diş emal və tədavi [müalicə] edir. Zabitan və əfradın [zabitlərin və əsgərlərin] dişləri əhvən şəraitlə [münasib şərtlərlə] tədavi və emal edilir.

*213*

**Diş müalicəxanəsi**

S. M. İtkinin süni diş laboratoriyası

Süni dişlərin ağrısız çəkilməsi. Təzə üsul ilə farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Morskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

*208*

**Həkim S. L. Şklovskaya**

Mamalık və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər.

Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Morskoy və Krasnovodski küçələrin arasında. Telefon: 67-50.

*209*

**Diş həkimi Melçarski**

Torqovaya soqaqda Muxtarovun xanəsində nömrə 15. Dişlərə tədavi [müalicə] edir, doldurur, ağrısız ixrac edir. Gözəl altun və sairə dişlər emal edir. Xəstələri qəbul edir: sübh saat 9-2-yədək.

*210*

**Elan**

Bakıda olan böyük firmalardan birində buxqalter vəzifəsini ifa edən ukraynalı, müsəlman firmalarından birində kantora müdiri və ya buxqalter xidməti etmək arzusundadır. 48-45 nömrəli telefon ilə danışmaq və ya "Azərbaycan" idarəsində bir nömrə qəbzi nişan verənə məktub ilə müraciət etmək mümkündür.

*211*

## ƏMR

Daxiliyyə Nəzarətinə [Daxili İşlər Nazirliyinə] məlum edilmədən kəndi başlarına, sahiblərinin tərk etmiş olduqları mənzilləri (kvartiraları) işğal etmiş bulunan əşxas [şəxslər] bir həftə zərfində Daxiliyyə Nəzarəti idarəsinə gələrək işbu mənzillərin kimin əmri ilə işğal olunduğu və yaxud nə səlahiyyətlə bu mənzillərdən istifadə etməkdə olduqları haqqında məlumat verməlidirlər. Əks təqdirdə, yuxarıda göstərilən müddətin xitamında gəlib məlumat verməyən əşxas, işğal etdikləri mənzillərdən bilatəxir [dərhal] kənar ediləcək və məsuliyyət təhtinə [altına] alınaraq cəzalanacaqlardır.

Ev komitələrinə, mümkün olan qədər qısa bir zamanda, sahibləri Bakıda bulunmayan bütün mənzillərin (kvartiraların) bir cədvəlini təqdim etmələrinin olduğu kimi, böylə kvartiraları işğal etmiş bulunan əşxas[ı], bu xüsusda vəsiqələri olub olmadığından varəstə olaraq [vəsiqələri olub olmadığına baxmadan] dəxi göstərmələrini təklif edirəm.

Polis komissarlarına, ev komitələrinə balada məzkur [yuxarıda qeyd olunan] əmrin icrasında təshilat [yumşaqlıq] göstərməmələrini təklif eylərəm.

*Daxiliyyə naziri:*
*Behbud xan Cavanşir*

## AZƏRBAYCANDAKI TÜRK ORDUSU

Bəzi yerlərdən aldığım xəbərlərə nəzərən, Osmanlı əsgərinin gedəcəyi şayiəsi əhali arasında dolaşmaqda olduğunu duydum. Osmanlı Hökumətinin buraya göndərdiyi bir ovuc əsgərə ehtiyacı yoxdur.

Hər əsgərin bulunduğu yerdə gəlib-getmə olur. Bu isə əsgərin çəkilməsinə dəlalət etməz. Azərbaycana göz dikəcək hər düşməni, Allahın inayəti [köməyi] ilə əzməyə qüvvətimiz vardır və daima da bulunacaqdır.

*Qafqaz İslam Ordusu*
*komandanı: Nuri*
*Bakı, 19.10.34*

## ORDU QƏRARGAHINDAN

Təbliği-rəsmi.

1. Dərbənd cəbhəsində: 18/10/34-də sol cinahımıza soxulmaq istəyən qırx qədər düşmən süvarisi kəşf [kəşfiyyat] qolumuzun atəşi ilə beş məcruh [yaralı] verərək tərd olunmuş [uzaqlaşdırılmış], tək-tük topcu atəşi təati edilmişdir. Öylədən əvvəl bir düşmən təyyarəsi Dərbənd üzərində bir müddət uçduqdan sonra övdət etmişdir [qayıtmışdır].

2. Qarabağda sükunət vardır. Dağlara fərar edən erməni əhali peydər-pey [bir-birinin ardınca] köylərinə övdət etməkdə və təslimi-silah eyləməkdədirlər.

## TELEQRAF XƏBƏRLƏRİ

Tiflis Teleqraf Acentəliyindən alınan teleqramlar:

Berlin – Təşrini-əvvəlin [oktyabrın] 18-də qərb cəbhəsindən alınan əsgəri məlumat: Bu axır günlərdə biz şimali Fransada Flandriya xüttəsini [ərazisini] və bununla bərabər Ostende, Turku-en, Rube, Lill və Due şəhərlərini boşaldaraq, Brügge - Lis arasında olan səngərləri tutmuşuq. Dünən düşmən dəfələrlə güclü hücumlarda bulunmuşsa da, hər yerdə dəf edilmişdir. Kortreyk şimalında Lis tərəfinə soxulan ingilis dəstələri əks hücumumuzla təzədən geri atılmışdır. Lill-Due şərqində dişmənlə zəif vuruşmalar vaqe olmaqdadır. Le-Kato ilə Uaza arasında təzədən müharibə başlanmışdır. İngiltərə, Fransa və Amerika əsgərləri artıq dərəcədə mühimmati-hərbiyyə sərf edib cəbhəmizi yarmaq istəmişlərdir. Le-Katonun hər iki tərəfində düşmən məğlub olmuşdur. Qabaq xətlərimizə edilən hücumlar əks-hücumlarımızla dəf edilmişdir. Le-Kato arasında düşmən hücuma keçib bir neçə yerdə bizim xəttimizə soxulmuşdur. Le-Kato - Vassinyi boyunda olan şose yolunda təbəddülatlı müvəffəqiyyətlərlə vaqe olan müharibələrdən sonra düşmən bizim topxana xəttimiz qarşısında dayandırılmışdır. Orinyi şimalında Uaza cəbhəsinə çevrilmiş olan düşmən hücumları müvəffəqiyyətsiz qalmışdır. Olizi şərqində şiddətli vuruşmalardan sonra düşmən dəf edilmişdir. Prussiya və Brandenburq nişançı əsgərləri Maasın şərqi sahilində öz vəzifələrini müvəffəqiyyətlə ifa etmişlərdir.

– İstanbuldan xəbər verirlər ki, bütün cəbhələrdə əhval təbəddülatsızdır.

– "Leypsiq" qəzetəsinin xüsusi müxabiri teleqrafla xəbər verir ki, Kursk şəhərində təzədən Leninə sui-qəsd edilmişdir. Tapança gülləsi ilə Lenini çiynindən yaralayan həbsə alınmışdır.

– Berlindən xəbər verirlər ki, Qessenski Karl Finlandiya taxt-tacını qəbul etməyə razı olmuşdur.

## ƏSGƏRLƏRƏ

Dini, vətəni və ümum müsəlmanların sələməti üçün əsgər olacaqlar haqqında, istər sahibi-dövlət, istər kasıb olsun, yazılmış və müsəlmanların qabaqda keçmiş ataları, cədləri tərəfindən icra edilmiş nəsihəti-kübralar [ən böyük nəsihətlər] şunlardır:

Ey müsəlman, Allah zülcəlal həzrətləri cihadı üzərimizə fərz qıldı. Cihaddan hasil olacaq savab, indi-ilahidə [Allah qatında] pək böyükdür. Cihad ciddən əfzəldir [həqiqətən çox fəzilətlidir]. Cihadın nəticəsi iki eyiliyin biridir: ya mühafizeyi-mövcudiyyət və fəthi-zəfərə nail olmaq; ya mərtəbeyi-cəlileyi-şəhadəti ehraz etmək [şəhidliyin uca mövqeyini qazanmaq]. Bunun üçün əsgər ol; əsgərlik səni qorxutmasın, ancaq sevinə-sevinə get; sözündə dur; qədr [qəddarlıq] etmə, burun-qulaq kəsmə, göz oyma, pirifaniyi [qocaları] öldürmə, qadını öldürmə, çocuqları öldürmə, məvaşiyi [südlük, yaxud ətlik heyvanları] ifna [tələf] etmə, ancaq zərurət üçün kəs, əkl et [ye]; xurma ağacını yaxma, şəhər xarab etmə, mali-qənaimə [qənimət malına] xəyanət ətmə, əmri-hərbdə [müharibə əsnasında] müsəlmanlar düşmənlərin kötülük işləmələri üzündən mənsur [qalib] və müzəffər olarlar. Ey əsgər, sən də kötülükdən saqın, müttəqi [Allahdan qorxan] ol, kötülüyü işləmədə düşmənlə müsavi olar isən, düşmənlər bizə faiq [üstün] gələrlər. Biz ancaq fəzlimizlə onlara qələbə edəməz isək, qüvvətimizlə qələbə edəmməyiz. Sizin seyrüsəfərinizdə [yürüşünüzdə] müvəkkəl olan həfəzeyi-kiram sizinlə bərabərdir. İşlədiyiniz işləri bilirlər. Ey əsgər, siz Allah yolundasınız. Allahdan düşməninizə qalib gəlməyi istədiyiniz kimi, nəfsinizə qarşı da Allahdan imdad və inayət [kömək] diləyin. Sükun və səbr ilə bulunan kəndlər əhalisinə bir ziyan erişdirməyiniz. Onlar səbr və sükunda bulunduqca, haqlarında xeyirdən başqa müamilə etməyin. Nüsrət [qələbə] Allahdandır. Haqq və səbatdan [yolunda möhkəm olmaqdan] ayrılmamaq ilə hasildir. Düşmənlə qarşılaşdığınız zaman qorxmayın. Qüdrət və zəfər zamanında göz oymayın, təcavüzdə bulunmayın. Allah təcavüzdə bulunanları sevməz. Həzrəti-Əli kərrə-mallahu-vəchəhu həzrətləri buyurmuşdur ki, səflərinizi sıxı bir bina kimi yapın, bir-birinizdə sabit-qədəm olun. Düşmənə üz çevirməyin, ötəyə-bəriyə baxmayın ki, ürəyiniz bərk olsun. Sidq və səbirlə hərb edin. Nə dərəcə səbr edərsəniz, o dərəcə nüsrətə nail olarsınız. Din üçün öz canını fəda edən ey dilavər [cəsur], Allahdan qorx, vəzifəni bil, komandanına itaət ət, vəzifəni sui-ihanət etmə [alçaltma], əsgər arasına fəsad qarışdırma! Növbəti-vəzifədə [keşik çəkərkən] diqqət et, uyuma! Silah altına dəvət olunduqda qoş, cəsur ol, qaçma, qüvvətə güvənmə, Allaha güvən, ianeyi-hərbiyyədən qaçma, oğurluq və yalançılıq və dolandırıçılıqdan iraq ol, qarət və talandan qaç, yaxlaşma; irz və namusa əsla təcavüz etmə, üsəraya [əsirlərə] əza və cəfa etmə, arxadaşlarınla eyi keçin, kəndinə əmanət edilən mali-miriyi [dövlət malını] eyi mühafizə et. Doğru söylə, yalandan xəstə olma. Təharətlə [təmizliklə] səhhəti mühafizəyə riayət et. Mənsur və müzəffər olmaq üçün daima Allah-talaya dua və niyaz et ki, vəsayayi-məzkurəyə [qeyd edilən nəsihətlərə] riayət və tövfiq [ilə] hərəkət edən ordunun miqdarı (.....) məlum olan ayəti-cəlilə mövcibincə, az olsa belə baizni-xuda [Allahın izni ilə] çox miqdarda əsgərə qalib olar. Allahın rəhmət və şəhadətinə [şəhidliyinə], peyğəmbərimizin şəfaətinə, milləti-müəzzəmeyi-islamiyyənin [əzəmətli müsəlman millətinin] hörmət və məhəbbətinə məzhər olar. Dünya və axirətdə məsud olar. Məmləkəti mühafizəyə əzm etmiş ey qəhrəman! İştə bu kəlamları sən bilirsən, fəqət təkrar edirəm. Qulağında, başında və gözünün önündə daima bulunsun. Əsgər ol, doğru, cəsur və sabitqədəm ol. Səni heç bir top düşürəmməz və səni həç bir düşmən qorxudammaz, vəssəlam.

*18 təşrin, sənə 34.*

* * *

*"Azərbaycan"ın təfriqəsi 4*
*Zəfər yolunda*
*Ənvər paşa həzrətlərinə!*

### Məhməd Əmin bəy
### Ordunun dastanı

*Çanaqqala qəhrəmanlarına*

Buraxınız, hər bir şeyi gözlərinə aldırsınlar,
Təyyarələr havalardan,
Drednotlar dənizlərdən, mitralyozlar qaralardan
Quduraraq, böyürərək üstümüzə saldırsınlar.
O zəhərli bombaları, qundaqları, obusları
Xəstəxana, məbəd kimi çatılara yağdırsınlar.
Hər gün səkkiz cəhənnəmlə bu mübarək Bolayırı,
Bir Süleyman türbəsini torpaqlara batırsınlar.
Bu vəhşətlər əlverməzsə, Çad önündən ilanları,
Qaf dağından qartalları, Qanq boyundan qaplanları,
Həp yırtıcı məxluqları
O əsgərsiz sahillərə sürü-sürü gətirsinlər,
Qadınları, çocuqları bu qan içən heyvanlara parçaladıb yedirsinlər.
Türk torpağı şu iyirminci əsrdəki Neronların
Ən sonuncu zülmüylə də xarab olsun, qana batsın!
İnsaniyyət – bu bir xəyal! O dilləri yaldızlayan
Mədəniyyət davaları…
O düzənçi kürsülərin haqq-ədalət sədaları –
Həpsi dəssas Judaların sözü kimi birər yalan!
Burda hər şey – şu çivilər, şu boğucu qumbaralar
Artıq Qərbin insanlıqdan çıxdığını göstərmədə.
Şu pusular, şu xainlik dolu olan mağaralar
Ən çox sevən insanların qəlblərinə kin vermədə.

Əgər ki, biz İskəndərin, Hannibalın o çürüyən,
Bir atəşsiz, qığılcımsız külə dönən qəlblərindən
Birər ovuc torpaq alsaq,
"Bir zamanlar sizin röya və eşqiniz nəydi?" desək,
Bu zərrələr toplanaraq
Bir üxrəvi səda ilə bizə şöylə söyləyəcək:
"Sizlərin də həyatınız beş min illik əski gediş,
Yalnız bu gün qəhrəmanlıq kahpəliklə yer dəyişmiş!"
Lakin zalım düşmənlərin bəslədiyi qanlı sevda
Dallarında heç bir çiçək
Bir ufacıq qaynağında heç bir pınar gülməyəcək,
Yarın sərab olduğunu göstərəcək bir boş xülya.
Zira bizlər o bozulmuş Bizansların, Babillərin
Qəlbi, ruhu alçaqladan şeylərindən uzaq qaldıq.
Atəş, dəmir yurdlarından gələn fateh nəsillərin
Qəhrəmanlıq vicdanından, həyatından qüvvət aldıq.
Millətləri öldürməyən fəzilətlər yenə bizdə,
Sözdə səbat, işdə əzim, səbir bizim qövmümüzdə.
O cahangir Oğuzları
Fateh yapan cəsarətlər bizim erkək ruhumuzda,
O qəhrəman Yavuzları
Qalib edən itaətlər bizim igid ordumuzda.
Bu ordunun qabalaqlı arslan-çöhrə hər nəfəri
Özdəmirlər dövründəki sərdənkeçdi yeniçəri.
Gerçək, o son xain Balkan qovğasında Türk Ordusu
Cəbxanasız, ac qalaraq,
Dişləriylə boğuşaraq, ot yeyərək, bunalaraq
Bir çobansız sürü kimi zor-zoruna bozulmuşdu.
Şu qədər ki, o bu günü can evinə saplanılan
Bir ağulu xəncər kimi xatirindən çıxarmadı.
Qurtarıcı başbuğlarla kəndisini o zamandan
Ləkəsini qanlar ilə silmək üçün hazırladı.
Bilsinlər ki Tomrislərin böyük İran fatehinə,
Səlcuqların məğrur Şərqi Romaların tarixinə
Göstərdiyi aqibətlər
Şu bugünkü düşmənlərə eyni şeyi qazmaqdadır,
Bunlara da fəlakətlər
Keyxosrovun, Romanosun bəxtlərini yazmaqdadır.
Türk yurduna yaxlaşanlar burda iki şey bulurlar –
Öldürücü bir dəmir əl, bir də qanlı dərin məzar!

* * *

Ey Oğuzun saf qanını daşıyanlar!
Ey gözləri qığılcımlı qəhrəmanlar!
Ey Turanın arslanları!
Hər qüvvətə qaya kimi qarşı durun,
Sınırları aşanları
Qəhr edici ildırımlar kimi vurun.
O silahı parladın ki, ulu əcdad
Bu dəmirlə yüz dövlətə təməl atmış.
Hər iqlimdə uca, şanlı bir səltənət,
Hür və məsud bir türk ömrü parıldatmış.

Bizim böyük irqimizin fateh adı,
Dünya qədər əski olan şanlı yadı
Hər hasarın bürclərində
Qan və atəş hərflər ilə yazılıdır.
Hər sarayın divarında
Altun qaxma tunc qalxanı asılıdır.
Yenə bu gün qılınc, qalxan məbudunun
Bu millətdən istədiyi xain leşi,
Neçə illər sönük duran türk yurdunun
Bu ordudan bəklədiyi şan günəşi.

İrəliyə! Türkün alnı
Yalnız rəbbə səcdə edər.
Onun əsil, hürr vicdanı
Taxtda xaqan görmək istər.

Şu canavar ingilislər, fransızlar,
Bu hürriyyət düşmənləri vicdansızlar
Ali-Osman dövlətini
Hindistana, Cəzairə çevirsinmi?
Məhəmmədin ümmətini
Əsarətin zəncirləri gəmirsinmi?
Layiqmi ki, bizim uca taxtımızda
Kralların sədaları eşidilsin?
Bir yabançı səs duymayan çatımızda
Candan əziz namusumuz çeynədilsin?
Bu gün Şərqin bütün əziz qübbələri,
Altay, Atlas, Himalaya təpələri,
Hərəmeynlər, İstanbullar
Bizə böyük ümidlərlə güvənməkdə.
Milyonlarca məzlum dullar
Məsum canlar "Zəfər!" deyə səslənməkdə.
Ah, vətənin varsın hər bir bucağında
Dağlar yansın, nurlar sönsün, can qalmasın.
Lakin Qazi Osmanların otağında
Taxt qurulsun, xaqan dursun, tac parlasın!

İrəliyə! Türkün alnı
Yalnız rəbbə səcdə edər.
Onun əsil, hürr vicdanı
Taxtda xaqan görmək istər.

İrəliyə! Göy, yer, dəniz
Basqınlarla inildəsin.
Bizim erkək səslərimiz
Hər siperdə "Vur, kəs!" desin.

Türklər daha dünə qədər üç qitənin,
Şu xəraca kəsdikləri Avropanın
Göz qaraldan, baş döndürən
Yerlərinə qartalqanad gedənlərdi.
Qaflar, Alplar üstlərindən
Şərqin, Qərbin bəxtinə hökm edənlərdi.

Fransua deyimliydi Süleymandan
Dövlətinin həyatını dilənmişdi.
Padişahlar padişahı adı alan
Bu xaqandan böyüklüyü öyrənmişdi.
Biz gənclər də ürəkləri qollarından
Və qolları qılıclardan güclü olan
Bu cahangir ataların
Yetişdiyi bir toprağın ərləriyiz.
Turqutların, Samsaların
O dalqılıc ordusunun əsgəriyiz.

*Sonu var*

## HACI ƏHMƏD PAŞANIN BAKIYA VÜRUDU [GƏLİŞİ]

Bir qaç gün bundan müqəddəm Qafqaziya İslam Ordusu Baş komandanı fəriq Nuri paşa və Ənvər paşa həzrətlərinin pədəri Hacı Əhməd paşa həzrətləri xüsusi qatarla Bakı şəhərinə varid olmuşdur. Hacı Əhməd Paşa həzrətlərini istiqbal üçün Azərbaycan Hökumətinin Daxiliyyə naziri Behbud bəy Cavanşir və Hökumət Kontrolu Əbdüləli bəy Əmircanov, "Ələt" mövqifinə [stansiyasına] getmişdilər. Şəhər mövqifində Hacı Əhməd paşa həzrətlərini şəhər əhalisi tərəfindən Bələdiyyə İdarə[si] nümayəndələri pişvaz etmişlərdir. Bələdiyyə İdarəsi rəisi əvəzində M. Y. Mehdiyev və islam əhalisi nümayəndələri möhtərəm müsafirə təbrik nitqlərilə müraciətdə bulunub, əsgəri qitəat [hərbi hissələr] isə bu möhtərəm müsafiri musiqi ilə qarşılamışlardır.

Hacı Əhməd paşa həzrətləri şəhər mövqifindən Nuri paşa həzrətlərinin nəzdi-alilərinə təşrif buyurmuşlardır.

İdarədən: Bu xüsusda qəzetəmizin keçən nömrəsində məlumat verilmişsə də, fəqət xəta olaraq "Bakı xəbərləri" içərisində qonulmuşdur ki, burası pək namünasib olduğunu etirafla bəyani-etizar edəriz [üzrxahlıq edirik].

## BAKI XƏBƏRLƏRİ

– Gəncə Kazyonnı [Xəzinə] palatası müdirinin məruzəsinə görə, Maliyyə naziri qərar vermişdir ki, təşrini-əvvəlin [oktyabrın] 5-dən Şamaxı xəzinəsi Şamaxı şəhərində layiqli mülk olmadığından, Çuxuryurda köçürülsün.

– Bakıda asayiş bərpa olduğuna binaən, Bakı poçta kantorunda adəti üzrə axşam saat 5-dən 7-yə qədər məşğuliyyət başlanmışdır.

**Mərkəzi Ev Komitəsində**

– Mərkəzi Ev Komitəsi tərəfindən bütün dairə komitələrinə bir böylə məlumat göndərilmişdir:

Daxiliyyə nazirinin əmri mövcibincə, Mərkəzi Ev Komitəsi sizə elan edir ki, üç gün müddətində məhəllənizin evlərindən aparılan əşya

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 21 oktyabr (bazar ertəsi) tarixli XVIII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

barəsində ev sahiblərinin adlarını, mümkün olarsa əşya aparanların dəxi adlarını bizə məlum edəsiniz. Bu vaxtadək təslim edilməmiş silah barəsində dəxi məlumat verməlisiniz. Bununla Mərkəzi Ev Komitəsi məlum edir ki, ovçu cəmiyyətlərində üzv olanların ovçu tüfəngləri üçün xüsusi icazənamə lazım deyil.

– Mərkəzi Ev Komitəsinin Ərzaq şöbəsi, məhəllə komitələrinə yazır:

Şəhər İdarəsinin Ərzaq şöbəsinin qərardadı ilə kooperativ dükanlarında qalan mallar camaat arasında paylanacaqdır.

Mərkəzi Ev Komitəsinin Ərzaq şöbəsi, Şəhər İdarəsinin təklifini qəbul ilə əhali arasında qənd paylamağı öhdəsinə götürmüşdür. Bu şərtlə ki, qənd camaata 3 manatdan satılıb, məxarici isə Şəhər İdarəsinin öhdəsində qalsın. Bu günlərdə camaata qənd və çay veriləcəkdir.

**3-cü Ali-ibtidai məktəbində**

3-cü Ali-ibtidai məktəbi təşrini-əvvəlin [oktyabrın] 26-dan etibarən açılacaqdır. Təşrini-əvvəlin 20-dən etibarən yeni mütəallimlər [şagirdlər] qəbul ediləcəkdir. Məktəbə daxil olmaq arzusunda bulunanlar işbu ünvana müraciət etməlidirlər: Şamaxı caddəsi, Kələntərovun mülkü, 3-cü Ali-ibtidai məktəb. Ərizələr hər gün saat 9-dan 1-ədək qəbul olunur.

**Neft ticarəti haqqında**

Azərbaycan Hökuməti, Neftçilər İttifaqından neftə təyin ediləcək müəyyən qiymət haqqında onların fikrini sormuşdur. Neftçilər İttifaqının ümumi iclasında bu qiyməti təyin etmək üçün xüsusi heyət seçilib, bu barədə hökumətə məruzə pişnihad [təqdim] etməli idi. Keçən gün bu heyət fəaliyyətini itmama yetirib [tamamlayıb], bu qiymətləri təyin etmişdir:

Neft (mədənlərdə) – 5 manat;
Cövhər [kerosin] (zavodda) – 8 manat;
1-ci dərəcə benzin – 40 manat;
2-ci dərəcə benzin – 30 manat;
3-cü dərəcə benzin – 12 manat;
Qudron yağı – 7 manat.

Bu günlərdə heyət bu qiymətləri hökumətə pişnihad [təqdim] edəcəkdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Təşrini-əvvəlin [oktyabrın] 18-də vüqu bulmuş olan Hökumət iclasında hökumət qulluqçularının məvaciblərinin artırılması qanunu qəbul edilmişdir.

Həmin tarixdə vaqe olan iclasda Azərbaycanın Hökumət teatrosu olmadığı nəzərə alınıb, ədalətli bir qiymətlə Mailov qardaşlarının teatrosunun hökumət ixtiyarına keçirilməsi qərara alınmışdır. Mailov qardaşları teatrosu "Hökumət teatrosu" adlanacaqdır.

Hökumət idarələrinin ehtiyacatından ötrü Nikolayevski küçədə vaqe Mirzəbekyanın böyük mülkünün yuxarıdakı şərait üzrə hökumətə məxsus edilməsi qərara alınmışdır. Bu qərarı əmələ gətirməkdən ötrü bir komissiya təşkil edilməsi Maarif nazirinə həvalə olunmuşdur.

Maliyyə Nəzarəti Sərhəd Mühafizəsi Təşkilatı üçün layihə hazırlamaqdadır.

Taxıl və qənd almaqdan ötrü Kubana və Ukraynaya göndərilmək üçün Ərzaq Nəzarəti tərəfindən iki komissiya təşkil edilməkdədir.

Bakı Şəhər Ərzaq şöbəsinin Ərzaq Nəzarəti dəftərxanasına əvəz edilməsi təsəvvür olunur. Taxıl almaqdan ötrü Ərzaq naziri ilə Mühimmati-Əsgəriyyə İdarəsi [Hərbi Ləvazimat İdarəsi] arasında saziş hüsula gəlmişdir. Taxıl alınacaq yerlər məntəqələrə təqsim edilmişdir [ayrılmışdır].

Ərzaq Nəzarəti Gəncə, Qazax və Quba məhəlləri ilə Zaqatal nahiyəsində taxıl almaq təsəvvüründədir. Qalan yerlərdə isə ancaq Mühümmat və Ləvazimati-Əsgəriyyə [Hərbi Təchizat və Ləvazimat] İdarəsi taxıl alacaqdır.

**Post [Poçt] və Teleqraf Nəzarətindən**

Məlum olduğu üzrə, Qafqaziyada ixtilal baş qaldırdığı gündən bu ana kimi post və şose yolları gündən-günə təxrib [xarab] edilir, əvəzində isə bir şey təmir edilməsi hələ yox idi. Şimdi Post və Teleqraf Nəzarəti, Daxiliyyə Nəzarəti müavinəti [köməyi] ilə bu yolları yavaş-yavaş nizama salmaq və yaxın bir zamanda bütün Azərbaycanda bir çox simsiz teleqraf məntəqələri (radio stasiyonlar) təsisinə şüru edəcəkdir [başlayacaqdır]. Sənaye nöqteyi-nəzərindən hazırlığı olan zəvatı [şəxsləri] Nəzarət bu işdə çalışmağa cəlb və dəvət edir. Stasyonları idarə üçün ali mənsəbləri qəbul etməkdən maəda [başqa], bir çox aşağı siniflərdə çalışacaq adamlar lazımdır.

**Ticarət və Sənaət Nəzarətindən [Ticarət və Sənaye Nazirliyindən]**

Bakıda mövcud "Savet Syezd" adlı neft mədənçilərinin təşkilatı 16 təşrini-əvvəldə [oktyabrda] Ticarət və Sənaət Nəzarətinə verdiyi istidasında [ərizəsində] əvvəla bu təşkilata sədr intixabı [seçilməsi], dəvətlə 4 yeni üzv daha qəbul edilməsi üçün icazə verilməsini istirham [xahiş] etmişdi. Nəzarət istidanı qəbul ilə icazə vermişdir.

## TÜRKİYƏDƏ

Azərbaycan Heyəti-fövqəladəsinin Sultan həzrətlərini ziyarəti

Eylülün [sentyabrın] 6-da "Ayasofiya" camesindəki mərasimi-səlamidən sonra Azərbaycan Heyəti-fövqəladəsi Zati-həzrəti-padişahi tərəfindən xüsusi surətdə hüzura qəbul edilmişdir.

Heyət, işbu zəvatdan [şəxslərdən] ibarət idi: Sədri-heyət: Məhəmməd Əmin Rəsulzadə; üzvlər: Xəlil bəy Xasməmmədov, Aslan bəy Səfikürdski. Hüzura qəbul əsnasında Ənvər paşa həzrətləri də isbati-vücud edirmişlər [orada imiş].

Məhəmməd Əmin Rəsulzadə cənabları, Zati-həzrəti-padişahinin cülusi-hümayunları [taxta çıxması] münasibətilə, əsrlərdən bəri əzilməkdə olduğu əcnəbilər boyunduruğundan qurtarmış və yenicə istiqlaliyyətə müvəffəq olmuş Azərbaycan namından [adından] Sultan həzrətlərini təbrik etmiş və Azərbaycanın Həzrəti-padişahi təhti-himayəsində [Padişah həzrətlərinin himayəsi altında] nəşvünüma tapacağına [tərəqqi edəcəyinə] ümidvarlığını izhar etmişdir. Heyət, Zati-həzrəti-padişahinin təşəkkürlərinə nail olmuşdur.

Zati-həzrəti-padişahi öz nitqlərində Cənabi-haqqın inayətilə ən yaxın zamanda müttəfiq Türkiyə-Azərbaycan qüvvəsi düşməni münhəzim [məğlub] etməyə müvəffəq olacağını bəyanla, Zati-həzrəti-padişahinin salamını Azərbaycan əhalisinə yetirməyi əmr buyurmuşlar. Mərasimi-vidada [vida mərasimində] Sultan həzrətləri keçirtdikləri dəqiqələri ömürlərinin ən xoşbəxt dəqiqələri ədd [hesab] etdiklərini Ənvər paşaya bəyan etmişlərdir.

**Türkiyə mətbuatı**

İstanbulda nəşr olunan "Tərcüman" qəzetəsi bolqar ordusunun sülhcuyanə [sülhdən yana olan] hərəkətlərindən bəhslə yazır:

Ola bilsin ki, Malinov ordunun pərişanlığından naşi [pərişanlığı səbəbindən] böylə iqdamatda [təşəbbüslərdə] bulunmuş, fəqət bunu da əlavə etməlidir ki, ordunun pərişanlığına səbəb Malinovun kəndisidir.

"Tənin" yazır:

Bolqariya kəndisi də sülhdən fənalıq aparacaqdır. Qəzetənin əqidəsincə, Avstriya-alman qitəatı [hərbi hissələri] cəbhəyi saxlamaq və yaxud Türkiyə ilə müttəfiqlər arasındakı dəmiryolunu əldən buraxmamağa müvəffəq olacaqlar.

**İttifaq haqqında Türkiyə kabinəsi**

"Fossişe zeytunq" qəzetəsinə Berlindən teleqrafən [teleqrafla] xəbər verilir ki, Türkiyə Şurayı-Vükəlası [Nazirlər Kabineti] siyasi və hərbi əhvaldan naşi iniqad etmişdir [yığışmışdır]. Şurayi-Vükəla, ittifaqı möhkəm saxlamağı qət etmişdir.

Ənvər paşa həzrətləri öz nitqlərində bəyan etmişlər ki, Bolqariyanın İttifaqdan çıxması hərbin əhvalını dəyişməyəcəkdir.

## DƏRBƏNDDƏ

Dağlılar İttifaqı Cümhuriyyətinin Hökuməti Sədri Çermoyev həzrətləri oktyabrın 14-də camaata xitabla belə bir əmrnamə nəşr etdirmişdir:

**Əmrnamə**

Dağlılar İttifaqı Cümhuriyyəti Hökuməti cənbində [nəzdində] olan Osmanlı İmperiyasının (səltənətinin) hərbi və diplomatik heyəti sədri Yusif İzzət paşa ilə Dərbəndə varid olaraq əmr verirəm:

Bütün hökumət qulluğunda olan qulluqçular öz qulluqlarında təsdiq, yaxud yerlərinə başqaları təyin olunana qədər, qulluqlarında baqi [yerində] qalmalıdırlar.

Və ümum əhaliyə təklif edirəm, xatircəm olsunlar. Zira Türkiyə əsgərləri bizim yerlərimizi almaq üçün gəlməyib, ancaq yerimizdə törəyəcək hərc-mərcliklə mübarizə və Qafqaz Dağlılar İttifaqı Cümhuriyyəti Hökumətinə kömək etməkdən ötrü gəlmişlərdir.

Bu köməklik Dağlılar İttifaqı ilə Osmanlı Hökuməti arasında bağlanmış olan dostanə əhdnamənin [dostluq müqaviləsinin] 2-ci maddəsində şərt edilib, 1918-ci il, iyun ayının 20-də çap edilən Zaqafqaziya qəzetələrində elan edilmişdir.

Millətlərin azad yaşaması əsası şüarı mövcibincə [şüarına uyğun olaraq] Türkiyənin Azərbaycan Hökumətinə, Almaniyanın Ukraynaya, Dona, qonşu gürcülərə və sair təzə dövlətlərə edilən köməkdən Türkiyənin bizə etdiyi bu köməyin heç fərqi yoxdur. Əgər Türkiyə və Dağlılar qüvvəsi Dərbəndə girdiyi zaman bəzi qəmli hadisələr üz vermişsə də, bunu da bilmək gərək ki, dava həmişə bu cür qəmli hadisələr törədir. Lakin Dağlılar İttifaqı Hökuməti hər cür tədbirlər ittixaz eyləmişdir [tədbirlər almışdır] ki, burada asudəlik bərpa edilsin və inanır ki, "qrajdanların" [yəni] həmvətənlərin öz köməklikləri sayəsində tezliklə nizam və asudəlik bərpa edilər.

Daxiliyyə Vəzirliyi [Daxili İşlər naziri] vəzifəsini ifa etməyə İbrahim bəy Heydərov təyin edilmişdir və ona tapşırılmışdır ki, bilatəxir [təxirə salmadan] şəhərə və ətrafına məmurlar təyin eyləsin.

Dağlılar İttifaqı yaşayışının əsası bunlardır:

1) Milli azadlıq və istiqlal xüsusunda çalışmaqda olan Dağlıların hüququna hörmət edən hər bir kimsə, nə millət və nə dindən olursa-olsun, onlara ədalət nəzəri ilə baxılacaqdır.

2) Qafqaziyada yaşayan millətlərlə dostanə bir surətdə rəftarda bulunmaq, xüsusən ruslara və Qafqaziyada qalıb da öz yerlərində yaşamaq istəyən ruslarla ən gözəl rəftar və dostanə əlaqədə bulunulacaqdır.

*Qafqaz Dağlılar İttifaqı Cümhuriyyətinin Sədri*
*Əbdülməcid Çermoyev*

## TƏHLÜKƏ QARŞISINDA

*Qarabağın son günləri*

(keçən nömrələrdən mabəd)

Keçən nömrəmizin birində Qarabağın halından bəhslə, ermənilərin təqib ettikləri məqsəd və ittixaz etdikləri tədabirdən [tədbirlərdən] yazmışdıq. Bu gün isə türk-islam əhalisinin fəaliyyətindən bəhs edəlim.

**Türklər nə yapırlardı?**

Hələ Şəhər komandanı Həsən Bəsri əfəndinin vürudundan müqəddəm [gəlişindən əvvəl], şəhər islamları [müsəlmanları] ermənilərin hərəkətini görərək, bu işlərin bir vaxt müsəlləh müsadiməyə müncər ola biləcəyini [silahlı toqquşmayla nəticələnə biləcəyini] dərklə, "sülh istər isən hərbə hazır ol" məsəlinin məfhumunca, müqavimətə hazırlaşmağa başlayılar.

Bu məqsədlə şəhərdə "Ənvəriyyə", "Şövkətiyyə", "Xəliliyyə" və mütəallimlərdən [tələbələrdən] mütəşəkkil "Vəhbiyyə" dəstələri adı ilə dörd könüllü əsgər dəstəsi təşkil edirlər. Hər dəstədə zabiti əvəz edəcək bir neçə dəstəbaşı zabit təyin olunur. Şəhərdə silah götürə bilən hər bir şəxs (on beş yaşından altmış yaşınadək) tamamilə siyahı edilir. Cavanlar "hərəkət ordusu" adı ilə həmən dəstələrə daxil olurlar. Qırx yaşından yuxarı olanlar isə ehtiyat əsgəri hesab olunaraq fövqəladə hallarda işə cəlb olunacaqları xəbər verilir. Təslihat [silahlanma] işlərinə baxmaq üçün şəhərdə on dörd məhəllə komitəsi təsis edilir. Məzkur komitələrin vəzifəsi hər kəs öz məhəlləsində siyahı tərtib verərək, qüvvəsi çatan hər şəxsə bəqədri-qüvvə [gücü yetdiyi qədər] silah aldırmaq və para toplayaraq maddətən zəif olanlar üçün camaat puluyla silah almaqdan ibarət idi. Bu surətlə şəhərdə dövlətli, fəqir hamı silahlanır və hər məhəllənin on minlərcə müştərək ehtiyat gülləsi və yüzlərcə tüfəngi olur.

Bundan əlavə, məhəlli [yerli] türklər müsəlman hissəsiylə Ermənistan [ermənilər] arasında xətti-hüdudu dava ehtimalına qarşı təhkim edərək [möhkəmləndirərək], şəhərin şimalından qərbinə doğru bir xətti-səngər qururlar. Xətti-hüdudda bulunan evləri dəxi səngər qərar verərək divarlarını deşir, pəncərələrini [h]örür, səngər qayırırlar. Hangi məhəllənin tüfəngçiləri hangi səngərə gedəcək, ehtiyatda kimlər duracaqlar, səngərə güllə, çörək və sairəni kimlər daşıyacaqlar, çörək nərədə bişəcək, kənardan kömək gələrsə, nərədə təvəqqüf edəcək [qalacaq], kimlər müqəyyəd olacaqlardır [muğayat olacaqlar, qeydinə qalacaqlar]? Xülasə bütün cüziyyatı [xırdalıqları] belə unutmamaq şərti ilə müqavimətə hazırlaşırlar.

Gecə-gündüz şəhər cavanları əldə silah olaraq, səngərlərdə "qarağol" [qarovul] çəkirlər. Şəhərin füqərası dəxi unudulmayaraq, hər məhəllədə varlılardan para toplanaraq, füqəra üçün taxıl alınır və girvənkəsi əlli qəpikdən çörək buraxılır. Əhali bu surətlə öz dərdini anlamış, dərmanını aramış, bulmuş hesab olunur. Fəqət, şübhəsizdir ki, əsgərlik görməmiş, qışlada [kazarmada] yaşamamış, zabitlik məktəbində təhsil etməmiş bir camaatın təşəbbüsləri nə qədər şayani-təqdir [təqdirəlayiq] olsa da, bir çox nöqsanı vardı. Daha sonra nöqsanın islahına şüru edildi [nöqsanların aradan qaldırılmasına başlandı]. İbtida [əvvəla] Şuşada ümumi səfərbərlik elan edilərək, bütün cavanlara əsgərlik məşqi verilməyə başladı. Şəhərdə olan bir neçə kiçik zabitin iştirakı ilə əsgəri idarə təşkil edildi. Bir müddət cavanlara məşq verildikdən sonra buraxıldılar.

Aradan bir qədər keçdikdən sonra şəhərdən bir qədər könüllü yığılaraq, daimi olmaq üzərə qışlada sakin edildi. Oxumuş cavanlardan isə əlli nəfərədək məktəbi-hərbiyyədə oxumaq üçün ərizə verərək namizəd yazıldı.

Bunlar süvari və piyada dəstələrə bölünərək, hər gün saat 9-12 və 4-6-ya qədər məşq edirlər. Eyni zamanda zabitlərin nəzarət və iştirakı ilə səngərlər dəxi islah edilirdi. Belə ki, şəhərin bu başından o başınadək xəndəklər, tunellər qazılıb, səngərlər arasında yeraltı yollar çəkilir, qanuni-hərbin tələb etdiyi qayda ilə üstü örtülü qazmalar yapılır. Şarapnel və bomba və sairəyə qarşı hər səngərdə sipərlər, quyular, çalalar qazılır.

Nəhayət, şəhərdə dava vüqu bularsa, kəndlərdən dəxi hücum ediləcəyi ehtimal daxilində olduğundan, müsəlman hissəsinin dörd tərəfində səngər qurulur. Bundan əlavə, şəhər üzərində hökmfərma [hakim mövqedə] olan "Üçmıx" ucalığında dəxi səngər qurmağa ehtiyac görülür. Bir gündə şəhərdən dağın başına xəndək vurularaq dağın təpəsində səngər qurulur. Burası erməniləri həyəcana gətirərək narazılığa və müsəlmanların həmən səngərləri tərk etmələri haqqında bir tələb süduruna [meydana gəlməsinə] bais olur. Fəqət bir növ ilə ixtilaf yatırılır.

Şəhərin şimalında iki buçuq çağırımlıqda "Dotələb" adlı bir təpə dəxi var. Hər kəs bu təpəyə malik olub iyirmi tüfəngçi bulundurarsa, tərəfi-müqabildən [qarşı tərəfdən] bir şəxsi belə Xəlfəli, Xankəndi, Malıbəyli və Qaryagin yollarına çıxmağa buraxmaya bilər. İştə, məzkur təpənin dəxi əhəmiyyətini etirafla, məhəlli türklər orada dəxi səngər quraraq daima iyirmi, otuz qarağol [keşikçi] bulundururlardı.

Ümum səngərlər bir neçə uçastoka təqsim [bölməyə ayrılmış] və hər uçastoka bir rəis təyin edilmişdi. Hər rəisin binagüzarlığına [sərəncamına] bir-iki məhəllə verilmişdi. Rəislər isə öz dairələrindən onbaşılar təyin etmişlərdi. Hər məhəllədən gündə bir onbaşı öz dəstəsi ilə qaraqola gedirdi. Qışlada yaşayan əsgərlər isə başqa vəzifələr ilə müvəzzəf idilər. Ancaq bunca hazırlaşmaqla bərabər müsəlmanlar heç vaxt dava istəmirlərdi. Unutmamalıdır ki, dava hazırlığı səngər qurmaq, silahlanmaq və sairə xüsusda müsəlmanlar nə yapmışlarsa, ermənilər daha ziyadə ciddiyyətlə çalışmış, hətta müsəlmanları hazırlaşmağa onlar vadar etmişlərdi.

(yenə var)

*Xəlil İbrahim*

## QƏZETƏLƏRDƏN

**Ukraynada**

"K.M." qəzetəsinin verdiyi xəbərlərə görə, təşrini-əvvəlin [oktyabrın] 9-da Ukrayna ilə Krım arasında müşavirə məclisi açılmışdır. Sədrəzəm [Baş nazir] Ukrayna ilə Krım miyanında [arasında] əmələ gəlmiş etilaf [uzlaşma] qətnaməsini oxumuşdur. Krım heyətinin sədri Vomatoviç demişdir ki, Ukrayna Sədrəzəmi tərəfindən təklif edilən şərait [şərtlər] Krımdan ötrü qeyri-məqbuldur. Başqa maddələrin cavabını isə 10 günə kimi öz hökuməti tərəfindən pişnihad [təqdim] edə biləcəkdir.

**Cəbhə haqqında general Foş nə deyir?**

"N.L.Z." qəzetəsi marşal Foşun "D.T." qəzetəsi müxbiri ilə müsahibəsini dərc edir. General müxbirə demişdir: "Düşmən mövzeindən [tutduğu mövqedən] çıxarılmış, fəqət yenə möhkəm durur. Öylə xəyal etməməlidir ki, biz yaxın zamanda məqsədimizə nail olacağız. Biz zirvənin kəlləsinə ermişiz. Hal-hazırda isə yamac boyu ilə aşağı enməliyiz. Biz qüvveyi-fövqəladə vasitəsi ilə birdən-birə aşağı hoppanarsaq, daha da eyi olacaqdır."

**Samarinin güllələnməsi**

Sinodun sabiq Baş müddəiyi-ümumisi [Ober prokuroru] Samarin, Moskvada güllələnmişdir.

**Sofiyanın müqəddəratı**

Rum və serb qoşunlarının Sofiyaya daxil olmamaqları barəsində bolqarlar tərəfindən verilmiş istidanı [xahişi] Müttəfiqlər qəbul etmişlərdir. Bolqariya paytaxtı müttəfiq İngiltərə-Fransa-İtaliya qitəatı [hərbi hissələri] tərəfindən işğal ediləcəkdir.

**Vilson, Rusiya əhvali-iqtisadiyyəsi haqqında**

Rəisi-cümhuri [Prezident] Vilson, Rusiyanın iqtisadi cəhətinin təmini müzakirəsindən ötrü bir xüsusi komisyon dəvət etmişdir. Vilsonun əqidəsincə, Amerikanın sənaət [sənaye] və maliyyatı [maliyyəsi] Rusiyanı iqtisadi cəhətdən təmin edə biləcəkmiş.

**Trotskinin yaralanması**

Trotskinin yaralanması təsdiq edilir. Trotski afiyət kəsb etdiyindən [sağaldığından] Moskvaya gətirilmişdir.

**Ukraynada: Yeni parə [pul]**

Kiyevə Almaniyada çap edilmiş iki qatar yeni parə gəlmişdir. Bu günlərdə yeni pullar işlənməyə başlayacaqdır.

**Krımda: Krım Hökuməti əzasına [üzvünə] sui-qəsd**

Hərbiyyə naziri Milkovskinin yanına bir nəfər şəxs gəlib, Petroqraddan xüsusi məmuriyyətlə gəldiyini söylər. Nazirin iznilə Ədliyyə naziri ziyarətinə müvəffəq olmuşdur. Ədliyyə Nəzarətinə gəldikdə, şübhəli göründüyü üçün dərdəst [həbs] edilir. İstintaqdan məlum olmuşdur ki, bu şəxs Sədrəzəm [Baş nazir] Sulkeviç, Ədliyyə naziri Əhmədoviçi[n] və başqa hökumət əzası[nın] qətli qəsdi ilə göndərilmişdir. Hangi firqə tərəfindən göndərildiyini cani söyləməmiş, fəqət Petroqraddan gəldiyi mühəqqəqdir [qətidir]. Cani, Cəfər İbrahimov namdır.

***

Berlin – Təşrini-əvvəl [oktyabr] 11. "Nyu-kurant" qəzetəsi mühərririnin dediyinə görə, Almaniya təklifinin rədd edilməsi müharibə məsələsini gərginləşdirir. Almaniya məcburən Belçika və Şimali Fransanın xaraba qalmasına səbəb olacaqdır. İmdiki Almaniya ricası cəbhənin yarılmamasını, Almaniya ordusunun məğlub olmamasını göstərir. Lazımi təqdirdə alman ordusu müqavimət göstərmək məcburiyyətində qalacaqdır.

**Xarici təbəələrinin Moskvada həbsi**

Moskvada Serbiya, İngiltərə, Fransa təbəələri həbs edilərək Nijni Novqoroda göndərilir.

**Bolşevik intibahnamələri**

Moskvada bolşeviklər 18 milyon intibahnamə [təbliğat vərəqəsi] tərtib vermişlər ki, Ukrayna əhalisi arasında nəşr etsinlər [yaysınlar].

Azərbaycan Dəmiryolu İdarəsi elan edir ki, bu ilin 4 təşrini-əvvəl[in]də Bakı ilə Tiflis şəhərləri arasında 3 və 4 nömrəli qatarlar bu qərarla hərəkət edəcəklər:

| Mövqiflərin [stansiyaların] adı | Qatar nömrə 3 | | | |
|---|---|---|---|---|
| | gəlir | | çıxır | |
| | saat | dəqiqə | saat | dəqiqə |
| Bakı | - | - | 7 | 7 |
| | | | | axşam |
| Hacıqabul | 11 | 22 | 11 | 57 |
| | | axşam | | axşam |
| Yevlax | 5 | 35 | 6 | |
| | | sabah | | sabah |
| Gəncə | 8 | 3 | 8 | 23 |
| | | sabah | | sabah |
| Ağstafa | 11 | 15 | 11 | 23 |
| | | günüz | | günüz |
| Tiflis | 3 | 56 | - | - |
| | | günüz | | |

| Mövqiflərin [stansiyaların] adı | Qatar nömrə 4 | | | |
|---|---|---|---|---|
| | gəlir | | çıxır | |
| | saat | dəqiqə | saat | dəqiqə |
| Tiflis | - | - | 11 | 10 |
| | | | | axşam |
| Ağstafa | 4 | 22 | 4 | 47 |
| | | günüz | | axşam |
| Gəncə | 7 | 34 | 7 | 59 |
| | | axşam | | axşam |
| Yevlax | 9 | 44 | 2 | 4 |
| | | sabah | | sabah |
| Hacıqabul | 3 | 24 | 3 | 39 |
| | | günüz | | günüz |
| Bakı | 7 | 36 | - | - |
| | | axşam | | |

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Elan***

*"Şəhərdəki mağaza və dükan və bilümum lövhə bulunan məhəllərdə qırmızı lövhə üzərinə bəyaz yazı ilə...": Eyni elan, qəzetin 17-ci nömrəsində belə getmişdir: "...bəyaz lövhə üzərinə qırmızı yazı ilə..."*

***Azərbaycandakı***
***Türk Ordusu***

*"19.10.34": Burada il, rumi təqvimlə göstərilmişdir (1334-cü il). Miladi təqvimlə 19 oktyabr 1918-ci ilə uyğundur.*

***Ordu qərargahından***

*"18/10/34" – Burada il, rumi təqvimlə verilmişdir; miladi təqvimlə 18 oktyabr 1918-ci ilə uyğundur. Qəzetdə "34" yerinə səhvən "23" getmişdir.*

***Teleqraf xəbərləri***

*"Leypsiq" qəzeti: "Leypsiqer abendzeytunq" qəzeti nəzərdə tutulur.*

*Qessenski Karl: Bu ad rusca yazılışına uyğun olaraq verilmişdir; xəbərdə Fridrix Karl fon Hessenden danışılır.*

***Əsgərlərə***

*"Sizin seyrüsəfərinizdə müvəkkəl olan həfəzeyi-kiram sizinlə bərabərdir. İşlədiyiniz işləri bilirlər." Mətnin bu hissəsində, əsgərlərə öz vəzifələrini layiqli surətdə yerinə yetirərkən, heç kimə haqsızlıq etməmək tövsiyə olunmaqdadır. "Həfəzeyi-kiram", islam etiqadına görə, hər insanı xüsusi olaraq izləyən, onun işlədiyi yaxşı və pis (xeyir və şər) əməlləri qeyd edən mələklərdir. Müəllif, müharibə dövrünün qarışıqlığından və hərc-mərcliyindən faydalanaraq və cəzasız qalmağa ümid edərək haqsızlığa yol verməməyi əsgərlərə tapşırır, işlədikləri günahlara görə bu dünyada məsuliyyətdən qaça bilsələr belə, axirətdə hesab verməli olacaqlarını onların yadına salır. Məqalənin bu hissəsi, Xəlifə Ömərin öz sərkərdəsinə yazdığı məktubdan aşağıdakı cümlələri xatırladır: "Mütləq bilməlisiniz ki, hara getsəniz, ilahi tərəfindən müvəkkəl həfəzeyi-kiram sizinlə birgədir. İşlədiyiniz işləri bilirlər."*

*"Kərrəmallahu-vəchəhu": "Allah onun üzünü ağ eləsin" mənasına gələn dua. İslami ədəbiyyatda məxsusi olaraq Həzrəti Əli barəsində işlədilir.*

*"...ordunun miqdarı (...) məlum olan ayəti-cəlilə mövcibincə..." Mətndə bu yerdə nöqtələr qoyulmuşdur. Cümlədən anlaşılmaqdadır ki, nöqtələrin yerində "Quran"dan ayələr olmalı idi. Söhbət əsgərlərin sayının həlledici olmadığından, az sayda əsgərin çox sayda əsgərə qalib gələ biləcəyindən getdiyinə görə, burada "Bəqərə" surəsinin 249-cu ayəsinin sonu yada düşür: "Neçə dəfə olub ki, kiçik bir dəstə Allahın izniylə böyük bir dəstəyə qalib gəlmişdir." Eləcə də "Ənfal" surəsinin 65 və 66-cı ayələrində, Allah yolunda səbr edənlərin, özlərindən daha böyük kafirlər ordusuna qalib gələcəyi deyilir: "65. Ey Peyğəmbər! Möminləri savaşa təşviq et. Əgər içinizdə səbrli iyirmi nəfər olsa, iki yüz nəfərə qalib gələr. Əgər içinizdə yüz nəfər olsa, kafirlərdən min nəfərə qalib gələr. Çünki onlar anlamayan bir qövmdür. 66. İndi Allah yükünüzü yüngülləşdirdi və sizdə mütləq bir zəiflik olduğunu bildi. Əgər içinizdə səbrli yüz nəfər olsa, iki yüz nəfərə qalib gələr. Əgər içinizdə min nəfər olsa, iki min nəfərə qalib gələr. Allah səbr edənlərlə birlikdədir."*

*"18 təşrin, sənə 34" – Burada il, rumi təqvimlə göstərilmişdir. Miladi təqvimlə 18 oktyabr 1918-ci ilə uyğundur.*

***Ordunun dastanı***

*"Çanaqqala qəhrəmanlarına": Şeir, Birinci Dünya müharibəsi əsnasında Gəlibolu yarımadasında cərəyan edən quru və dəniz döyüşlərinin qəhrəmanlarına həsr edilmişdir. Bu döyüşlər tarixdə "Çanaqqala döyüşləri" yaxud "Çanaqqala müharibəsi" kimi adlandırılır.*

*"Drednot": hərbi dəniz donanmalarında XX əsrin əvvəllərindən etibarən istifadə edilməyə başlanan, güclü artilleriya silahlarına malik zirehli gəmi (drednout).*

*"Obus": Artilleriya silahının bir növü (haubitsa).*

*"Hər gün səkkiz cəhənnəmlə bu mübarək Bolayırı": Şeirin 1915-ci ildə İstanbulda kitabça şəklində çap edilən variantında bu misrada "bu mübarək Bolayırı" yerinə "bir mübarək Bolayırı" yazılmışdır. Şeirin konteksti daxilində "bir" sözü daha doğrudur. (Bax. Məhməd Əmin, "Ordunun dastanı", Mətbəeyi-Əhməd İhsan və şürəkası, [İstanbul], 1331 [1915], səh. 24).*

*"Bolayır": Türkiyədə Çanaqqala ilinin (vilayətinin) Gəlibolu ilçəsinin (rayonunun) kəndi.*

*"Süleyman türbəsi": Osmanlı dövlətinin ikinci sultanı I Orxanın (Orxan Qazi) oğlu Süleyman paşanın türbəsi (məqbərəsi) Bolayır kəndindədir.*

*"Juda": Xristianlıq inanışında İsanın həvarilərindən olan İuda [Judas Iscariot] nəzərdə tutulmuşdur.*

*"Qabalaq": Osmanlı ordusu əsgərlərinin Birinci Dünya müharibəsində istifadə etdikləri papaq.*

*"Fateh": Osmanlı hökmdarı II Məhməd nəzərdə tutulur.*

*"Yavuz": Osmanlı dövlətinin doqquzuncu sultanı I Səlim nəzərdə tutulur.*

*"Sərdənkeçdi": Osmanlı ordusunda, döyüşlərdə ən ön sıralarda olan könüllü əsgərlər.*

*"İran fatehi": Əhəmənilər imperiyasının hökmdarı II Kir nəzərdə tutulur.*

*"Keyxosrov": Əhəməni imperiyasının hökmdarı II Kir nəzərdə tutulmuşdur.*

*"Romanos": Səlcuqlu sultanı Alp Arslan tərəfindən əsir alındıqdan sonra sərbəst buraxılan Bizans (Şərqi Roma) imperatoru Roman IV Diogen nəzərdə tutulur.*

*"Hərəmeyn": Bu sözlə Məkkə və Mədinə şəhərləri birgə nəzərdə tutulur.*

*"Qazi Osman": Osmanlı dövlətinin qurucusu və ilk hökmdarı I Osman (Osman Qazi) nəzərdə tutulur.*

*"Fransua deyilmiydi Süleymandan...": 1515-1547-ci illərdə Fransa kralı olan I Fransisk [I François] və 1520-1566-cı illərdə hakimiyyətdə olan onuncu Osmanlı sultanı I Süleyman nəzərdə tutulur. Fransisk, Avropadakı rəqiblərinə qarşı Süleymanla ittifaqa girmişdi.*

*"Turqudların, Samsaların": Osmanlı dövlətinin qurucusu I Osmanın yaxın silah arxadaşları olan Turqud Alp və Samsa Çavuş nəzərdə tutulmuşdur. "Samsaların" sözü qəzetdə səhvən "Samsarların" kimi getmişdir. (Bax. Məhməd Əmin, "Ordunun dastanı", Mətbəeyi-Əhməd İhsan və şürəkası, [İstanbul], 1331 [1915], səh. 32).*

***"Ordunun dastanı" şeiri***
***(səh. 283-286) üçün lüğət***

*çatı: bina; dam*
*yaldızlamaq: bəzəmək*
*düzənçi: saxtakar; yalançı*
*dəssas: yalançı, hiyləbaz*
*kahpəlik: xəyanət*
*dal: budaq*
*otaq: hökmdar çadırı*
*pınar: bulaq*
*başbuğ: komandan, sərkərdə; başçı*
*dalqılıc: siyirməqılınc*

***Hacı Əhməd paşanın***
***Bakıya vürudu***

*"fəriq Nuri": səh. 10-dakı izaha bax.*

***Nəzarətlərdə:***
***Ticarət və Sənaət Nəzarətindən***

*"Savet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.*

***Türkiyədə:***
***Azərbaycan Heyəti-fövqəladəsinin***
***Sultan həzrətlərini ziyarətləri***

*"Mərasimi-səlami": "Səlamlıq mərasimi", yaxud "cümə səlamlığı". Osmanlı dövlətində padişahların cümə namazını xalqla birgə qılması, namazdan əvvəl və sonra xalqla görüşməsi adəti.*

*"Cülusi-hümayunları": Burada söhbət 3 iyul 1918-ci il tarixində taxta çıxan Osmanlı sultanı VI Məhməd Vəhidəddindən gedir. Rəsulzadənin təbrik etdiyi padişah, axırıncı Osmanlı padişahı olan Vəhidəddindir.*

***Təhlükə qarşısında***

*"Hələ Şəhər komandanı Həsən Bəsri əfəndinin vürudundan müqəddəm...": Şuşa şəhərindən bəhs olunur.*

*"Ənvəriyyə", "Şövkətiyyə", "Xəliliyyə", "Vəhbiyyə" dəstələri: anlaşılır ki, Şuşadakı müdafiə dəstələrinə türk paşalarının – Ənvər paşa, Mahmud Şövkət paşa, Xəlil paşa (Xəlil Qut) və Məhməd Vəhib paşanın adları verilmişdir.*

***Qəzetələrdən:***
***Ukraynada***

*"K.M.": "Kiyevskaya mısl" qəzeti nəzərdə tutulur.*

***Qəzetələrdən:***
***Cəbhə haqqında general Foş nə deyir?***

*"N.L.Z.": "Noye Leypsiqer zeytunq" qəzeti nəzərdə tutulur.*
*"D.T.": "Deyli teleqraf" qəzeti nəzərdə tutulur.*

***Qəzetələrdən:***
***Sofiyanın müqəddəratı***

*"Müttəfiqlər": Antanta bloku nəzərdə tutulur.*

# Tibbi maskadan istifadə təkidlə tövsiyə edilir

**Son günlər dünyada, habelə Azərbaycanda COVID-19-un yayılma sürətində kəskin artım müşahidə edilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) hazırda koronavirusun 110 ölkədə artdığını bildirir.**



Qurum bununla əlaqədar ölkələrə xəbərdarlıq edir və dövlətləri virusla bağlı ciddi tədbirlər görməyə çağırır. Artıq bir neçə ölkədə koronavirus əleyhinə tədbirlərin görülməsinə başlanılıb.

İyulun 8-dən Kipr Respublikasında 12 yaşından böyük hər kəs üçün ictimai yerlərdə maskadan istifadə mütləqdir. Pakistanda da iyunun 28-dən daxili aviareyslərdə maska taxmaq tələbi qüvvəyə minib, bir neçə gün əvvəl isə Qətərdə COVID-19-a yoluxma sayının artması səbəbindən qapalı yerlərdə maska taxmaq məcburi olub. Yaxın günlərdə Almaniyada da ictimai yerlərdə maska taxmaq tələbi gözlənilir. Ölkə hakimiyyəti payız və qış aylarında koronavirusla mübarizə tədbirlərinə hazırlaşdığını və sentyabrda təsdiq üçün parlamentə təqdim olunacağını bəyan edib. Lakin Almaniya qapanmanın və məktəblərin bağlanmasının artıq uyğun tədbirlər olmadığını da xüsusilə vurğulayır.

Görünən odur ki, pandemiyanın üçüncü ilində olsaq da, dünya hələ də virusla mübarizədə məğlub vəziyyətdədir. COVID-19-dan qorunmaq üçün yenə də fiziki məsafə, tibbi maska və bu kimi digər qoruyucu vasitələrdən istifadə vacib zərurətdir.

Hazırda Azərbaycanda da COVID-19-la mübarizə istiqamətində effektiv tədbirlər həyata keçirilir. Ən başlıcası, əhalinin kütləvi vaksinasiyası ilə bağlı işlər uğurla davam etdirilir. Eləcə də respublikamızda epidemioloji vəziyyətin sabit qalması üçün müvafiq işlər görülür.

Ölkədə epidemioloji vəziyyətin normallaşması ilə əlaqədar bu ilin mayında açıq və qapalı məkanlarda tibbi maskadan istifadə ləğv edilmişdi. Lakin hazırda dünyada müşahidə edilən epidemioloji vəziyyətlə əlaqədar respublikamızda da əlaqədar qurumlar tərəfindən maskadan istifadə ilə bağlı tövsiyələr verilir.

Belə ki, bununla bağlı Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb. Məlumatda bildirilir ki, ÜST ötən həftə ərzində qlobal olaraq COVID-19 infeksiyasına yoluxma hallarının artdığını bildirib. Təşkilat dünyada müşahidə olunan yüksək artım fonunda qapalı məkanlarda maskalardan istifadəni və gigiyena qaydalarına əməl olunmasını tövsiyə edib.

Qurumların yaydığı birgə məlumatda ölkəmizdə də son günlər koronavirusun yayılması ilə əlaqədar neqativ dinamika izlənildiyi bildirilir. Həmçinin yoluxanların sayında artım və onların sağalanlarla nisbətdə üstünlük təşkil etməsi müşahidə olunduğu vurğulanır. Mütəxəssislər vətəndaşlara qapalı məkanlarda tibbi maskaların taxılmasını, sosial məsafənin gözlənilməsini, təmasların azaldılmasını, respirator gigiyena qaydalarına əməl olunmasını təkidlə tövsiyə edir: "Proses səhiyyə qurumları tərəfindən diqqətlə izlənilir və nəzarət altındadır. Pandemiya ərzində mənfi dinamikanın aradan qaldırılması ilə bağlı xeyli təcrübə toplanılıb. İstənilən hallarda vəziyyətə uyğun adekvat qərarlar verilir".

Mütəxəssislərin də bildirdiyi kimi, COVID-19-un yayılmasının əsas yollarından biri hava yolu ilə keçən tənəffüs damcılarıdır. İnsanlar fərq etmədən yoluxucu ola bilirlər. Bu, fiziki məsafə saxlamağın nə üçün vacib olduğunun səbəblərindən biridir. Amma heç də həmişə izdihamlı ictimai yerlərdə fiziki məsafəni saxlamaq mümkün olmur və məhz buna görə də belə şəraitdə tibbi maskanın istifadəsi zəruri hesab edilir.

Maskanı hər istifadədən sonra, habelə nəmlənəndə və ya çirklənəndə dəyişdirməli, taxarkən isə toxunmamalıyıq. Əgər maskanı çıxarmağı və gün ərzində ondan yenidən istifadə etməyi planlaşdırırıqsa, onu saxlamaq üçün mütləq təmiz, ağzı bağlanan paketlərdən istifadə etməliyik. Unutmamalıyıq ki, maskadan istifadənin effektiv olması üçün o, ağzı və burnu tam örtməlidir.

Eyni zamanda digər ehtiyat tədbirlərini də görməli, vaksinasiya ilə yanaşı, xüsusi karantin rejiminin qaydalarına ciddi riayət etməliyik.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Avropa alov içindədir

## Anomal istilər 6 ölkədə genişmiqyaslı meşə yanğınlarına səbəb olub

Avropanın bir neçə ölkəsində sinoptiklər tərəfindən qeydə alınan Selsi üzrə 44 dərəcəyədək istilər böyük yanğınlara səbəb olub. Fransa, İspaniya, İtaliya, Portuqaliya, Xorvatiya və Yunanıstan alov içindədir. Yanğın böyük meşə sahələrini, evləri məhv edib, insanlar həyatlarını itiriblər.

Yanğınların tüğyan etdiyi ölkələrdə havanın temperaturu müsbət 40 dərəcəni keçib. Bu isə xilasedicilərin işini ciddi şəkildə çətinləşdirir. Ekoloqlar bildirirlər ki, çox quraq keçən qış belə isti havalarda yanğının sürətlə yayılması üçün ideal şərait yaradıb.

Ölümcül istilər təkcə Portuqaliya və İspaniyada artıq 1027 nəfərin həyatına son qoyub. Artıq bir həftədir ki, Portuqaliya ərazisində və xüsusən də ölkənin mərkəzi hissəsində həddindən artıq yüksək temperatur və quraqlıq səbəbindən meşələr alovlanır. İndiyədək 200-ə yaxın yanğın hadisəsi qeydə alınıb, 10 min hektara yaxın meşə sahəsi məhv olub. Hazırda Portuqaliyada 3 mindən çox yanğınsöndürən evlərini xilas etmək üçün çarəsiz qalan yerli sakinlərlə birlikdə mübarizə aparır.

Qeyd edək ki, Portuqaliyanın bəzi ərazilərində havanın temperaturu rekord həddə çatdıqda (+47 dərəcə), təkcə bir sutka ərzində 440 nəfər ölüb. Həkimlər insanların ölümünün əsas səbəblərini açıqlayıblar: istilik vurması, susuzlaşdırma, dəm qazı zəhərlənməsi. Həlak olanlardan biri Portuqaliyaya məxsus hidrotəyyarənin pilotu olub. O, İspaniya ilə sərhəd yaxınlığındakı Foş Koa şəhəri yaxınlığında yanğını söndürərkən qəzaya uğrayıb.

Portuqaliya hökuməti yanğınlarla əlaqədar fövqəladə vəziyyət rejiminin müddətini uzadıb. Sinoptiklər xəbərdarlıq edirlər ki, 40 dərəcə istilər hələ səngiməyəcək. İsti hava demək olar ki, bütün ölkəni tamamilə qurudur. Yanğınla mübarizə getdikcə çətinləşir. Lakin yanğınların səbəbi yalnız yüksək temperatur deyil. Səlahiyyətlilər iddia edirlər ki, yanğınları həm də məsuliyyətsiz insanlar törədir.

Qonşu İspaniyada da vəziyyət ağırdır. Ölkənin qərbində əlliyə yaxın uşaq yay düşərgəsindən təcili olaraq təxliyə edilib. Ən çətin vəziyyət Salamanka əyalətində yaranıb. Burada 200 yanğınsöndürən hələ də alovu nəzarət altına ala bilmir. İndiyədək 4 min hektar meşə yanıb. Yerli hakimiyyət orqanları ölkənin cənubundakı məşhur Kosta del Sol kurortunda yerləşən Mijas sahilyanı qəsəbəsindən 2300 nəfəri təxliyə edib. Meteoroloqlar deyirlər ki, hazırda ölkədə temperaturun pik nöqtəsidir.

Fransada yanğınsöndürənlər bir həftədir ki, ölkənin cənub-qərb hissəsindəki Jironde departamentinin Bordo bölgəsində iki böyük yanğını lokallaşdırmağa çalışırlar. Min nəfərə yaxın yanğınsöndürənin səyinə və helikopterlərdən tonlarla su atılmasına baxmayaraq, güclü külək nəticəsində artan yanğın genişlənməkdə davam edir. Beş min hektara yaxın meşə və otlaq sahələri məhv edilib. 14 mindən çox turist və yerli sakin təxliyə edilib. Jirondeyə giriş müvəqqəti olaraq qadağandır.

Avinyonun cənubunda daha bir irimiqyaslı yanğın nəzarət altına alınıb. Bununla belə, yanğınsöndürənlərin dediyinə görə, ərazinin əlçatmaz olması səbəbindən Montanyet təbiət qoruğu ərazisində yanğın aktiv olaraq qalır. Ümumilikdə Fransanın 11 departamenti istilərlə əlaqədar narıncı hava xəbərdarlığı edib.

Yanğınlar İtaliyanın şimalında Adriatik sahilindəki Bibione kurortunu da bürüyüb. Hətta onlarla turist yanğından xilas olmaq üçün dənizə atılıb. Onlar daha sonra sahil mühafizəsi tərəfindən xilas edilib. Yanğınlar Venesiya sərhədlərinə qədər uzanıb.

Yunanıstan da yanğın fəlakəti ilə üz-üzə qalıb. Ölkənin Samos adasındakı meşələr yanır. Alovla mübarizə aparan iki yanğınsöndürən - bir yunan və bir rumın həlak olub. Onlar yanğınların söndürülməsində iştirak edən helikopterin qəzaya uğraması nəticəsində həyatlarını itiriblər. Helikopterdə olan iki moldovalı yanğınsöndürən isə xilas edilib.

İndiyədək Yunanıstanda xilasetmə xidmətləri 51 yanğını söndürüblər. Lakin güclü külək yeni yanğınlara səbəb olub. Krit adasında bir neçə yaşayış məntəqəsi boşaldılıb.

Xorvatiyada yanğınlar başlayıb. Ölkənin Şibenik-Knin rayonunda yanğınla 20 saatlıq mübarizədən sonra turizm şəhəri Voditsedən cəmi bir neçə kilometr aralıda alovun qarşısını almaq mümkün olub. Həm yanğınsöndürənlər, həm də hərbçilər və könüllülər təbii fəlakətə qarşı mübarizə aparırlar. Bununla belə, Zaton yaşayış məntəqəsində alov 20-yə yaxın evi məhv edib. Yerli sakinlər təxliyə olunub.

Son məlumata görə, dünən Türkiyənin cənubundakı Adana vilayətinin Feke bölgəsində 6 meşə yanğını söndürülüb. Akkaya, Tənkerli və İncirci rayonlarının meşə sahələrində yanğınlar baş verib. Yanğınsöndürənlərin səyi nəticəsində əyalətin meşə sahələrinə ciddi ziyan dəyməsinin qarşısı alınıb. Jandarmanın məlumatına görə, yarım hektardan az meşə sahəsi zərər çəkib.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

**balansında olan Magic-1 gəmisi üçün Cummins KTA19M baş mühərriklərin ehtiyat hissələrinin satın alınması məqsədilə**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 28 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1071.**

***Tender komissiyası***


# Ermənistan yeni reallıqlarla barışmalıdır

Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, biri-birlərinin ərazi bütövlüyünü tanımaqla tərəflər arasında yekun sülh müqaviləsinin imzalanması hazırda Cənubi Qafqazda sabitlik və regional inkişaf üçün əsas şərtlərdən biridir.

Elə bu səbəbdən də Azərbaycanın yürütdüyü siyasətin mərkəzində sərhədlərin delimitasiya və demarkasiyası, kommunikasiyaların açılması, yekun sülh müqaviləsinin imzalanması ilə qarşılıqlı əməkdaşlığa başlanılması dayanır.

Bu durumda erməni cəmiyyəti sülhə qarşı olan və revanşist mövqe sərgiləyən qüvvələrin onları məhvə apardığını yaxşı görür. Belə vəziyyətdə Nikol Paşinyan iqtidarı revanşist qüvvələrdən çəkinməyərək, siyasi iradə nümayiş etdirərək Azərbaycanla sərhədlərin müəyyən edilməsi, Zəngəzur dəhlizi də daxil olmaqla digər kommunikasiya əlaqələrinin açılması, sülh müqaviləsinin imzalanması istiqamətində əməli addımlar atmalı, Azərbaycanın bu xüsusda təşəbbüslərinə müsbət cavab verməlidir. Bir ölkə kimi Ermənistanın gələcəyi bunlardan asılıdır.

O da aydındır ki, üçtərəfli bəyannamələrə əsasən üzərinə düşən öhdəlikləri yerinə yetirməyəcəyi təqdirdə qarşıdakı dövrdə Ermənistanı daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Hazırda Ermənistanı tərk edənlərin sayı sürətlə artmaqda davam edir. Görülən bütün tədbirlərə baxmayaraq, bu ölkədə əhalinin sayı sürətlə azalır, xaricə köçənlər durmadan artır. Əhalinin artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub. Ancaq real vəziyyət Ermənistanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir.

Bir sözlə, Ermənistandakı durum onu deməyə əsas verir ki, hazırda məğlub ölkə acınacaqlı durumdadır. İllərdir iqtisadi cəhətdən tənəzzülə uğrayan Ermənistan müharibədə ordusunun da darmadağın olması ilə çöküb. Amma bundan dərs götürməyən ölkədəki revanşistlər Azərbaycana "hədə-qorxu" gələrək Qarabağda təxribatlar törədəcəkləri ilə bağlı sərsəm fikirlər səsləndirirlər.

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə çıxışı zamanı qeyd edib ki, Ermənistan 10 noyabr 2020-ci ildə imzalanmış Bəyannamədə təsbit edilən məsələlərdən boyun qaçırır: "10 noyabr Bəyannaməsi faktiki olaraq Ermənistanın kapitulyasiya aktıdır və müharibədə məğlub edilmiş tərəf kimi Ermənistan öz üzərinə öhdəliklər götürüb. Bu öhdəliklər orada açıq-aydın göstərilir. Onlardan biri erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılmasıdır. Bu günə qədər bu məsələ öz həllini tapmayıb. Biz dəfələrlə məsələ qaldırmışdıq, ancaq Ermənistan bunu uzadır. Eyni zamanda biz Rusiyanın hərbi rəhbərliyi qarşısında bu məsələni qaldırmışdıq və bir neçə ay bundan əvvəl Rusiyanın Müdafiə Nazirliyinin yüksəkvəzifəli şəxsi Azərbaycanda səfərdə olarkən bizim Müdafiə Nazirliyinə söz vermişdi ki, iyun ayına qədər erməni silahlı birləşmələri Qarabağdan çıxarılacaq. Ancaq bu gün artıq iyulun ortasıdır, bu məsələ öz həllini tapmayıb. Ermənistan 10 noyabr Bəyannaməsinə zidd olaraq bu öhdəliyi yerinə yetirmir. Rusiya sülhməramlıları - Rusiya tərəfi də 10 noyabr Bəyannaməsini imzalayıb - necə deyərlər, onları buna məcbur etmir. Əlbəttə ki, bu, dözülməz vəziyyətdir. Çünki erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalması tamamilə qəbuledilməzdir. Biz qalib ölkəyik, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik".

Azərbaycan postmüharibə dövründə ən yüksək səviyyədə bəyan edib ki, Ermənistanda baş qaldıran istənilən revanşist qüvvəyə ən sərt şəkildə cavab veriləcək. Ölkəmizə qarşı təxribat və savaşın nə ilə nəticələndiyini Ermənistan əhalisi 44 günlük müharibədən yaxşı bilir. Bu müharibə bir daha göstərir ki, Ermənistanda istənilən qüvvənin revanşizm cəhdi iflasa məhkumdur. Belə cəhdlər baş verəcəyi halda Azərbaycan tərəfindən dərhal məhv ediləcək. Bu səbəbdən Ermənistan öhdəliklərini yerinə yetirməli, reallıqlarla barışmalıdır.

10 noyabr Bəyannaməsinin 4-cü bəndində deyilir: "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır". Bu bəndin bir hissəsi icra olundu. Rusiya sülhməramlıları gəldi. Amma erməni silahlı birləşmələri çıxarılmadı. Bu isə 10 noyabr Bəyannaməsinə zidd bir addımdır.

Erməni silahlı qüvvələri Qarabağdan çıxarılmayacağı təqdirdə bir neçə variant nəzərdən keçirilə bilər. Belə vəziyyətdə Azərbaycanın atdığı addımlar tamamilə beynəlxalq hüquq normalarına uyğun olacaq. Bununla bağlı bütün məsuliyyət isə Ermənistan üzərinə düşmüş olacaq. Nə qədər ki, həmin an yetişməyib, Ermənistan sənədin 4-cü bəndinə əməl etməlidir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi bankın baş direktoru Vüqar Əhmədova atası

**RAMİN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Sumqayıt Yüksək Gərginlikli Elektrik Şəbəkəsinin rəisi Xəndan Əhmədova qardaşı

**QÜDRƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Mətanət A" Şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov iqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü

**AKİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4910
Sifariş 1977
Qiymәti 40 qəpik